# MƏSİH MÜJDƏSİ

HARUN YƏHYA
(ADNAN OKTAR)

# MÜNDƏRİCAT


- **Giriş**
- **Hz. İsa (ə.s)**
- **Hz. İsa (ə.s)-ın həyatı**
- **Quranda hz. İsa (ə.s)-ın Allah qatına yüksəlməsi**
- **Hz. İsa (ə.s) yer üzünə ikinci dəfə gələcək**
- **Hədislərdə hz. İsa (ə.s)-ın ikinci gəlişi**
- **İncil və Tövratda hz. İsa (ə.s)-ın yer üzünə dönüşü**
- **Bədiüzzaman Səid Nursi müsəlmanları hz. İsa (ə.s)-ın gəlişi ilə müjdələmişdir**
- **Hz. İsa (ə.s)-ı ən gözəl şəkildə qarşılamaq**
- **İncil və Tövratın Quran ilə uyğun yönləri**
- **Təkamül yanılması**

# OXUCUYA

Bu kitabda və digər əsərlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısı ilə Allahın varlığını inkar edən darvinizm, 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu ortaya çıxarmaq əhəmiyyətli imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Buna görə də, hər kitabımızda bu mövzuya qısaca da olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd ediləcək başqa bir məqam isə, bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar “bir nəfəsə oxunan kitablar” ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə, bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salan tərəfi son dərəcə güclüdür. Buna görə də, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxuyacağına ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin qaynağın mövcud olduğuna şahid olacaq.

Bu əsərlərdə, digər yerlərdə görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, dini mentalitetə qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Quranın Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (s) Xatəmül-Ənbiya olduğunun rəmzidir. Yazıçı bütün əsərlərində Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu şəkildə inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün əsərlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniyaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, indoneziya, malay, benqal, serb, bolqar, çin, danimarka və isveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər, xarici ölkələrdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub

araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanı dərk edər. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın fikir və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq duyğusal inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan qaldırılmışdır. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə alındıqda insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aradan qaldırmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarmaqarışıqlığın, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və xaos mühitini diqqətə aldıqda bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaqdır.

# GİRİŞ

Dünya tarixi boyunca bir çox qövmə peyğəmbərlər və elçilər göndərilmişdir. Ancaq Rəbbimizin fərqli dövrlərdə fərqli qövmlərə göndərdiyi elçilərin hamısı, eyni dini təbliğ etmişlər. Onlar göndərildikləri qövmləri bir və tək olaraq Allaha iman etməyə, bütlərin qarşısında səcdə etməkdən imtina etməyə, yalnız Allahı məmnun etmək üçün yaşamağa, Allaha güvənib yalnız Allahdan kömək diləməyə, Allah rizası üçün saleh əməllər görməyə və gözəl əxlaqlı olmağa çağırmışlar. Peyğəmbərlərin izah etdikləri haqq dinin inanc əsasları həmişə eyni olmuş, ancaq dövrün və mühitin şərtlərinə görə tətbiqlərdə bəzi fərqlər olmuşdur. Məsələn, hz. İsa (ə.s), fərqli bir din gətirməmişdir. Keçmiş peyğəmbərlərə göndərilən də, hz. Musa (ə.s)-a, hz. İsa (ə.s)-a vəhy edilən də, son peyğəmbər olan hz. Məhəmməd (s.ə.v)-ə endirilən də eyni dindir. *(Bu bənzərliklə, Tövrat və İncilin hz. Musa (ə.s) və hz. İsa (ə.s)-a ilk göndərildikləri halları nəzərdə tutulur. Çünki Rəbbimizin insanlara hidayət rəhbəri olaraq göndərdiyi bu iki İlahi Kitab vəhy edilmələrindən sonra təhrif edilmiş, orijinal hallarından uzaqlaşmışlar.) Necə ki, Allah möminlərin bu dinlər arasında heç bir ayrılıq güdməmələrini bir ayədə belə bildirmişdir:*

**De: "Biz Allaha, bizə nazil edilənə, İbrahimə, İsmailə, İshaqa, Yaquba və onun nəslinə nazil edilənlərə, Musaya, İsaya və peyğəmbərlərə öz Rəbbi tərəfindən verilənlərə iman gətirdik. Biz onların heç birinin arasında fərq qoymuruq. Biz təkcə Ona təslim olanlarıq!" (Ali İmran surəsi, 84)**

Bir başqa ayədə isə bu şəkildə bildirilir:

**Allah Nuha tövsiyə etdiyini, sənə vəhy etdiyimizi, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyimizi sizin üçün də dində qanun etdi: "Dinə doğru-düzgün etiqad edin və onda bölünüb firqə-firqə olmayın!" Sənin dəvət etdiyin tövhid müşriklərə ağır gəldi. Allah istədiyi kəsi Özü üçün seçər və Ona üz tutanı Özünə tərəf yönəldər. (Şura surəsi, 13)**

Rəbbimiz, hər dövrdə mübarək dinini bir çox qövmə göndərmiş və peyğəmbərlik mövqeyi ilə şərəfləndirdiyi elçiləri vasitəsilə onları xəbərdar etmişdir. Haqq dinin təbliğ edildiyi hər insan, Allahın elçiləri vasitəsilə dəvət etdiyi bu dinə tabe olmaqla mükəlləf tutulmuşdur.

Allahın aləmlər üzərinə seçib, nümunə etdiyi elçilərin həyatları, yaşadıqları hadisələr, qarşılaşdıqları çətinliklər, girdikləri böyük mübarizələr bütün insanlar üçün əhəmiyyətli mesajlar və dərslər ehtiva edir. Quranda, həyatıyla, mübarizəsiylə, əxlaqıyla insanlara nümunə göstərilən peyğəmbərlərdən biri də hz. İsa (ə.s)-dır.

Hz. İsa (ə.s)-ın doğumu, həyatı və Allah qatına alınması həmişə möcüzəvi şəkillərdə reallaşmış, bu mübarək insanın həyatı Quranda təfərrüatlı olaraq xəbər verilmişdir. Allah Quranda bir çox peyğəmbərin hekayələrini bizlərə bildirir. Ancaq hz. İsa (ə.s) müxtəlif istiqamətləriylə digər peyğəmbərlərdən fərqli bir mövqeyə malikdir. Allahın üstün elmlərlə dəstəklədiyi bu dəyərli qulu hələ beşikdə ikən danışmış, dünyada qaldığı müddətdə ətrafındakı insanlara böyük möcüzələr göstərmişdir. Onun bu xüsusi vəziyyətinin digər bir dəlili də, Allah Qatına alınması və təkrar dünyaya göndəriləcəyinə dair Quranda əhəmiyyətli işarələrin olmasıdır.

**... sənə nazil olana və səndən əvvəl nazil olanlara iman gətirir, axirətə də yəqinliklə inanırlar. (Bəqərə surəsi, 4)**

Bu kitabın məqsədi hz. İsa (ə.s)-ın həyatını və mübarizəsini, sahib olduğu üstün əxlaq və xarakteri yaxından tanımaq, əlaqədar Quran ayələri və Peyğəmbərimiz (s.ə.v)-in hədisləri işığında bu müqəddəs insanın yenidən dünyaya gəlişinin müjdəsini verməkdir. Rəbbimiz Quranda, hz. İsa (ə.s) haqqında gələcək zamana (*Quranın endirilməsindən qiyamətə qədər ki dövr*) istiqamətli bəzi əhəmiyyətli işarələr vermiş, peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v) isə hədislərində hz. İsa (ə.s) haqqında çox əhəmiyyətli müjdələr bildirmişdir. Böyük İslam alimi Bədiüzzaman Səid Nursinin hz. İsa (ə.s)-ın ikinci dəfə dünyaya gəlişinin ardından edəcəyi böyük mübarizə haqqında verdiyi qiymətli məlumatlar isə, bütün oxuyanlara çox böyük müjdə olub, şövq və həyəcanlarını artıracaq. Bütün bunlar bir əvvəlki səhifədə də ifadə etdiyimiz kimi, hz. İsa (ə.s)-ın çox fövqəladə yaradılışla yaradıldığını, həyatının da möcüzəvi şəkildə inkişaf etdiyini bizlərə göstərir.

Bu kitabı oxuyarkən bir tərəfdən hz. İsa (ə.s)-ın Quran ayələrində və hədislərdə bizlərə deyilən, Rəbbimizin lütfü olan möcüzələrlə dolu həyatı haqqında məlumat sahibi olarkən, bir tərəfdən də çox xüsusi zaman dilimində yaşadığımızı fərq edəcəyik. Bu işin məqsədlərindən biri isə, Quran ayələrində yer alan əhəmiyyətli möcüzəyə diqqət çəkilməsiylə yanaşı Quranda bir çox vəsiləylə təriflənmiş mübarək elçisinin, Məryəm oğlu hz. İsa (ə.s)-ın yer üzünə ikinci dəfə göndərilməsinə yetişənlərdən ola bilmənin feli duasını etməkdir. Unutmamaq lazımdır ki, hz. İsa (ə.s)-ın gəlişi bütün dünyaya təsir edəcək fövqəladəliklər daşıyan, möcüzəvi və metafizik hadisədir. Məhz bu səbəblə bütün iman sahiblərinin bir an əvvəl hərəkətə keçmələri və birlik içində hz. İsa (ə.s)-ı ən gözəl şəkildə qarşılamaq üçün əllərindəki bütün imkanları səfərbər etməlidirlər. Həyəcanla, məhəbbətlə, şövqlə ediləcək bu böyük hazırlıq feli dua olacaq, bu hazırlığı etməyənlər isə hz. İsa yer üzünə döndüyü zaman şübhəsiz çox böyük peşmanlıq yaşayacaqlar. Bütün əlamətlər bizə göstərir ki: hz. İsa (ə.s)-ın gəlişi çox yaxındır və hazırlıq etmək üçün itiriləcək zaman yoxdur.

# Hz. İsa (ə.s)

İnsanlara xəbərdar edici və müjdələyici olaraq göndərilən mübarək elçilər, Rəbbimizin onlara bəxş etdiyi bu şərəfli məsuliyyəti yerinə yetirərkən müxtəlif çətinliklərlə qarşılaşmışlar. İnkarçılar onların Allahın dinini təbliğ etmələrinə maneə törətmək istəmişlər, müxtəlif tələlər, böhtanlar və hücumlarla insanların elçilərin yolundan getmələrinə mane ola biləcəklərini sanmışlar. Allah yolunda mübarizə aparan bütün elçilərin başlarına gələnlər, hz. İsa (ə.s)-ın da başına gəlmiş, yer üzündə aralarında olduğu müddət boyunca həm bütpərəst Roma iqtidarının, həm də fanatik din adamlarının müxtəlif hücumlarına məruz qalmışdır. Gerçək dinin düşməni olan bu iki axınla eyni anda mübarizə etmiş, bu mübarizə əsnasında isə yanında çox az sayda Allaha inanan insan olmuşdur.

Hz. İsa (ə.s)-ın möcüzəvi doğumu, haqq dini izah etməsi, həyatı boyunca Allahın lütfü ilə göstərdiyi möcüzələr, onun qısa müddətdə o dövrün xalqı tərəfindən gözlənilən Məsih olaraq tanınıb sevilməsinə gətirib çıxarmışdır. Ancaq xalqdakı bu sevgi və hz. İsa (ə.s)-ın fanatik din adamlarına gətirdiyi haqlı tənqidlər, bu kütlələrin hücumlarına və bu müqəddəs insana müxtəlif tələlər qurmalarına gətirib çıxarmışdır. Hz. İsa (ə.s)-ı öldürmək üçün etdikləri cəhdlər Allahın onu Öz Qatına yüksəltməsiylə boşa çıxmışdır.

Hz. İsa (ə.s)-ın həyatını və mübarizəsini təfərrüatlı olaraq araşdırmağa başlamadan əvvəl mövzuyla əlaqədar qaynaqların nələr olduğunu öyrənmək faydalı olacaq.

## Hz. İsa (ə.s)-ın həyatıyla əlaqəli qaynaqlar

Hz. İsa (ə.s)-ın həyatını izah edən müxtəlif qaynaqlar vardır. Bunların başında, günümüzə qədər heç dəyişmədən gəlib çıxan və içində heç bir ziddiyyət olmayan Qurani Kərim gəlir. Buna görə tarix boyunca təhrif edilmə ehtimalı olan digər qaynaqlardakı məlumatların doğruluğu ancaq Quranda xəbər verilən məlumatlara uyğun olduqları ölçüdə istifadə ediləcək. Quranla ziddiyyət təşkil etməyən digər bəzi tarixi və arxeoloji məlumatlar üçün isə,

başda İncil olmaq üzrə o dövrlərdən qalma sənədlər istifadə ediləcək. Hz. İsa (ə.s)-ın həyatı, təbliği və inkar edənlərlə etdiyi mübarizə ilə əlaqədar müraciət edə biləcəyimiz bir başqa qaynaq isə peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-in mübarək hədisləri və hörmətli İslam alimlərinin izahları, təfsirləri və şərhləridir.

Xristianların müqəddəs kitabı olan və hz. İsa (ə.s) haqqında ən təfərrüatlı məlumatları verən İncil, bu mövzuda əhəmiyyətli qaynaqlardan biridir. Ancaq İncil hz. İsa (ə.s)-ın ardından müxtəlif təxribata uğramış və orijinallığını itirmişdir. Bu səbəblə də içində Allahın vəhyinə əsaslanan haqq hissələr ola biləcəyi kimi, tamamilə insan yazısı olan hissələr də vardır. Buna görə İncilin, hz. İsa (ə.s)-ın həyatı, mübarizəsi və təbliğiylə əlaqədar, Quranla uyğun olan hissələri, əhəmiyyətli bir tarixi sənəd olaraq diqqətə alınmalıdır.

İncillərin ən erkən, hz. İsa (ə.s)-dan 30-40 il sonra qələmə alındığı təxmin edilir (63-cü il) Ancaq əlimizdə bu mətnlərin heç biri yoxdur. Ələ keçirilən ən qədim mətnlər 3-cü və 4-cü əsrlərə aiddirlər. Xristianlığa bugünkü şəklini verən Pavlusun məktubları isə İncillərdən daha əvvəl qələmə alınmışdır (52-63-cü illər).

Bunlardan başqa Flavius, Flotun, Tacitus kimi o dövrlərdə yaşamış tarixçilərin əsərlərində də kiçik hissələrə rast gəlmək mümkündür. Bundan əlavə bu tarixçilər, hz. İsa (ə.s)-ın şəxsi ilə əlaqədar olmasa da onun yaşadığı dövrlə əlaqədar təfərrüatlı məlumatlar vermişlər.

Son olaraq o dövrlə əlaqədar arxeoloji qazıntılar və bu qazıntılarda ortaya çıxan tapıntılar da hz. İsa (ə.s)-ın yaşadığı dövrün və hadisələrin başa düşülməsi üçün qaynaq olaraq istifadə ediləcək.

# Hz. İsa (ə.s) zamanında Fələstin

Hz. İsa (ə.s)-ın yaşadığı dövrdə, Aralıq dənizi tamamilə Roma İmperatorluğunun suverenliyi altında idi. İmperatorluq böyük əsgəri fəthlərlə torpaqlarını genişlətmiş, Aralıq dənizi daxili göl halına gətirmişdi. İmperatorluq əsgəri sahədə olduğu qədər mədəni sahədə də ən güclü dövrlərindən birini yaşayırdı. Qədim Yunan (Greek) mədəniyyətinin mədəni mirasını götürmüş və onu yeni əlavələrlə inkişaf etdirmişdir. Helenizm adı

verilən bu axın, din daxil olmaq üzrə həyatın bütün sahələrinə hakim idi. Arxitektura və incəsənət olduqca müasir səviyyədə idi. Romalılar özlərini digər cəmiyyətlərdən çox üstün görür və öz həyat şəkillərini işğal etdikləri torpaqlar üzərində də yaymağa çalışırdılar.

Romanın dini, Aralıq dənizi ətrafında yaşayan bütün cəmiyyətlər kimi, çox tanrılı azğın bir din idi. Yunan mifologiyasının xəyali tanrıları, fərqli adlar altında, Roma mifologiyasında da istifadə edilirdi. Ən böyükləri Yupiter olaraq adlandırılan və heykəllərlə simvollaşdıran bir çox bütə tapırdılar. Bəzi Roma İmperatorları isə özlərini də bu saxta ilahlar arasına daxil edən qanunlar çıxarmışdılar. Digər tərəfdən Romanın hakim olduğu torpaqlarda Yunan paqan (bütpərəst) dini və bu inanca aid saxta ilahlar da məşhur idi: Zevs, Hermes, Venera kimi Yunan bütlərinin heykəlləri böyük şəhərlərin meydanlarını bəzəyirdi. Tapınılan bütlər bunlarla məhdud deyildi. Hər şəhərdə, hər məhəllədə hətta hər evdə böyüklü kiçikli, fərqli bütlər, onlara aid heykəllər, şəkillər, xüsusi tapınma və qurbangah yerlər vardı. Romalı dövlət adamları bu çox tanrılı azğın dinləri, öz hakimiyyətlərini yayma mövzusunda bir vasitə olaraq istifadə edirdilər. Roma, hakimiyyətini təhdid etmədiyi müddətcə kimsənin dininə qarışmır, əksinə bu azğın inancları təşviq edir, hər tərəfə məbədlər, qurbangahlar, heykəllər tikərək bütpərəst inancları təbliğ edirdi. Onlar üçün bu azğın dinlər, kütlələrə sədaqəti təlqin etmənin və onlara nəzarət etmənin bir yolu idi, mücərrəd və bu dünya ilə əlaqəsi olmayan bir sahəyə aid idi.

Romalılar başqa bir mədəniyyətlə qarşılaşdıqlarında, o cəmiyyətdə öz saxta ilahlarının bənzərlərini axtarar və beləcə üstünlük təmin edəcək bir əlaqə qurmağa çalışardılar. Buna görə xüsusilə Antiox IV Epifan zamanında, bir və tək olaraq Allaha iman edən yəhudilərə, Zevs adlı baş tanrılarını azğınca mənimsətməyə çalışmışlar, ancaq bu vəziyyətdə böyük müharibələrə gətirib çıxarmışdır. Dindar yəhudilər, müqəddəs torpaqları mənəvi olaraq çirkləndirən bu Roma bütlərinə qarşı sərt reaksiyalar göstərmişlər və romalıların bütpərəst inanclarını yayma çalışmalarına şiddətlə müqavimət göstərmişlər.

Romalılar, yəhudi dininin öz batil dinlərindən çox fərqli olduğunu və onların dinlərinə olan bağlılıqlarını gördükləri üçün, yəhudilərin daxili işlərinə, xüsusilə dini mövzularına çox qarışmamağa qərar verdilər. Fələstini idarələri altında saxladıqları dövr boyunca, yəhudilərin dini inanclarının tələblərini yerinə yetirmələrinə icazə verdilər. Yəhudi xalqının ruhani mərkəzi olan Məbəd, əvvəldən olduğu kimi vəzifəli rahiblər tərəfindən idarə olunmağa

davam etdi. Roma rəhbərliyi, yəhudi rahiblərin meydana gətirdiyi və ən böyük dini məhkəmə xüsusiyyətindəki Sinedrion qurumunun fəaliyyətlərini davam etdirməsinə də icazə verdi.

Sinedrion, Roma rəhbərliyi altında belə, bir yəhudini mühakimə edə bilər və yəhudi şəriətinin nəzərdə tutduğu cəzaları tətbiq edə bilərdi. Romanın bu bölgəyə təyin etdiyi rəhbərlər xalq arasında çıxa biləcək üsyanlara qarşı sərt tədbirlər alır, vergi toplama mövzusunda da heç vaxt güzəştə getmirdilər. Öz rəhbərləri ilə əməkdaşlıq halında olan yəhudi iqtidarına buna görə dözüm göstərir, onlara qarşı baş verən üsyan hərəkətlərini şiddətlə cəzalandırırdılar.

Hz. İsa (ə.s) zamanındakı kiçik yəhudi milləti qədim dünyanın, həmişə bir-birləriylə müharibə edən Misir, Asar, Babil, Fars və Suriya kimi böyük imperatorluqların təhlükəli sərhədlərində olurdu. Buna görə müstəqil bir dövlət olaraq uzun müddət qala bilməmiş, Babil sürgünündən (e.ə. 586-538-ci illər) etibarən fərqli xarici güclərin hakimiyyəti altında qalmışdır. Ellinizm dövrdə əvvəl misirlilərin, sonra suriyalıların və son olaraq da romalıların hakimiyyəti altına girmişlər. Yalnız qısa müddət ərzində yəhudi krallığı qurulmuşdu. Rahib mənşəli bir ailə olan Makkavilər başlatdıqları üsyandan sonra (e.ə. 167-142-ci illər) bir müddət hakimiyyət qurmağı bacarmışlar. Təxminən 80 il davam edən bu hakimiyyət ərzində Haşmonay ailəsi geniş sahədə hakim olmuşdu. Ancaq öz aralarındakı şiddətli liderlik mübarizələri nəticəsində hakimiyyət sona çatdı. İlk başda rəqib partiyaların dəstəyini alan romalı general Pompey e.ə. 63-cü ildə Qüdsü alaraq Fələstinə girdi və yəhudi torpaqlarını Yəhudiyə (Judea) bölgəsiylə məhdudlaşdırdı. Haşmonay kralı II Hirkan isə, Roma qubernatorunun əmri altında məhdud avtonomluğa sahib oldu. Bu tarixdən etibarən Yəhudi xalqının içində, bu bütpərəst idarəyə qarşı narazılıqlar başladı. Romalılar e.ə. 37-ci ildə bu krallığa son verdilər. II Hirkanın kürəkəni Herod, romalılar tərəfindən yəhudilərə kral olaraq təyin edildi.

## Kral Herod dövrü

Roma rəhbərliyinin Fələstindəki ən əsas hədəfi vergi yığmaq idi. Hər yəhudinin ödəməklə mükəlləf olduğu çox ağır vergilər qoyuldu. Roma bu yolla özünə bağlı bir dövlət mexanizmi qurdu. Bu dövrdə romalıların zəifliyini bilən, Sezarın öldürülməsindən sonra dəyişən güc tarazlıqlarını öz mənfəətləri üçün

istifadə etməyi bacara bilən və Helen mədəniyyətinə olan heyranlığıyla tanınan I Herod (e.ə. 37-4-cü illər), romalıların köməyiylə "Yəhudilərin kralı" olmağı bacarmış və dövlətin sərhədlərini yenidən bütün Fələstinə yaymışdır. Herod romalıları məmnun etmək üçün Helen mədəniyyətinin yayılması yolunda böyük səylər göstərmişdir. Bu mədəniyyətin yalnız incəsənət, memarlıq kimi istiqamətlərini deyil, daha əvvəl bəhs etdiyimiz, dünyəvi-materialist xüsusiyyətinin də xalq içində yerləşməsinə çalışmışdır. Bu dövrdə yəhudi xalqının dəstəyini ala bilmək üçün Hz. Süleyman məbədini yenidən tikdirən Kral Herod, bütün ölkəni memari əsərlərlə, heykəllərlə təchiz etdi. Bu dəbdəbəli fəaliyyətlər nəticəsində, ona "Böyük Herod" (Herod the Great) ünvanı verilmişdir. Ancaq bütün bu nümayişə baxmayaraq, dindar yəhudi xalqı Heroddan nifrət edirdi. Çünki o həm bütpərəst Romanın ortaq əməkdaşı, həm də xalqına zülm edən bir lider olmuşdu.

Herod, Romanın dəstəyiylə, ölkəsini e.ə. 37-ci ildən e.s. 4-cü ilə qədər idarə etdi. Ölümündən sonra hər nə qədər yəhudilər, romalılardan Herod rəhbərliyinin sona çatdırılmasını istəmişlərsə də romalılar ölkəni Herodun oğulları arasında bölüşdürmüşdür. Oğullarından biri olan Herod (Herodes) Antipas romalılar tərəfindən Qaliley bölgəsinin rəhbəri oldu. Tarixi qaynaqlara görə hz. İsa (ə.s)-ın təbliği, ən az atası qədər zalım olan Herod Antipasın krallığı dövründə reallaşmışdır. Bu bölgədə yaşanan siyasi və ictimai şərtlər buna görə böyük əhəmiyyət daşıyır. Qaliley bölgəsinin ictimai quruluşu bura yerləşən xarici koloniyalara görə tamamilə dəyişmişdi. Bölgə yəhudililər tərəfindən kiçik görülürdü. Yenə də bölgənin mədəniyyəti, əsas da Antipasın saray çevrəsi, böyük malikanələr və müəyyən məhəllələr olmaq üzrə, böyük ölçüdə Helenin təsiri altında idi. İbranicə danışan, öz halında yaşayan yəhudi xalqının dini ənənələri isə Helen mədəniyyətindən uzaq qalmışdı.

Daha əvvəl də ifadə etdiyimiz kimi ənənəvi olaraq romalılar yəhudilərin din işlərinə qarışmazdılar. Ancaq romalı qubernatorlardan bəziləri bu prinsipə uymamışdılar. Xüsusilə hz. İsa (ə.s) dövrünün qubernatoru, Pontius Pilatus özünü bu qaydadan uzaq tutmuş, şiddət və zülmün hakim olduğu bir rəhbərlik sərgiləmiş (26-36-cı illər) buna görə də vəzifədən uzaqlaşdırılmışdır.

# Hz. İsa (ə.s) dövründə yəhudi məzhəbləri

Yəhudi xalqının qarşı-qarşıya qaldığı bir başqa problem isə, qövmü içəridən bölən məzhəb ayrılıqları idi. E.ə. 2-ci əsrə qədər yəhudilər arasında bir-biriylə zidd düşən məzhəblərin varlığı heç eşidilməmişdi. Ancaq miladdan əvvəlki son əsrdə yəhudi cəmiyyəti parçalanmış, yəhudiliyin özü və gerçək mənası mövzusunda bir çox fərqli görüş meydana çıxmışdır. Bu məzhəblərin inkişafında Əhdi-Ətiq kitablarının və dini qaydaların fərqli şərh olunmasından başqa, siyasi faktorlar, xüsusilə də Roma rəhbərliyinin böyük rolu vardır. O dövrün yazılarına baxanda, xüsusilə də dövrün məşhur yəhudi tarixçisi Josephus Flaviusun qeydləri araşdırıldığında, yəhudi cəmiyyəti içində çox sayda axının inkişaf etdiyini söyləmək mümkündür. Fərqli axınlar içində dördünün fikirləriylə önə çıxmışlar. Bunlardan biri, Roma hakimiyyətiylə uzlaşan və bu rəhbərliyin dəstəyi ilə hakim sinifi meydana gətirərək rifah içində yaşayan Səduqilərin meydana gətirdiyi axındır.

Bu düşüncə daha çox zəngin yəhudilərin arasında yayılmışdı və siyasi partiya fikri kimi qəbul edilmişdi. **Səduqilər**, din qaydalarını yalnız Əhdi-Ətiqin ilk beş kitabına görə təyin edir, bu kitabları yalnız texniki mənalarına görə şərh edir, bu səbəblə də ölümdən sonra həyat, cənnət-cəhənnəm kimi dinin təməl ünsürlərini qəbul etmirdilər. Səduqilərin qarşısında isə, onların bu azğın fikirləriylə mübarizə edən, Səduqilərdən dini mövzularda ayrılan və daha təvazökar bir həyat sürən “mühafizəkar” **Fariseylər** vardı. İlk dəfə dindar yəhudilər tərəfindən qurulan Fariseylər, yəhudi dininin mühafizəsi və müdafiə olunmasında böyük rol oynamışlar. Daha sonrakı dövrlərdə, Fariseylər içində də müxtəlif ayrılıqlar yaşanmışdır.

Bir başqa qrup isə Roma rəhbərliyinə və onlarla əməkdaşlıq edən yəhudilərə qarşı silahlı mübarizəni müdafiə edən **Zealotlardır**. Bu siyasi axının tərəfdarları Allahın hakimiyyətinə zidd olduqlarını düşündükləri əhəmiyyətli romalı və yəhudi rəhbərlərə qarşı terror hərəkətləri başlatmış, sui-qəsdlər etmişlər. Ancaq qısa müddətdən sonra, başlatdıqları üsyan hərəkəti qanlı şəkildə yatırıldı. Digər bir qrup isə 1947-ci ildə Ölü dənizdə olan Kumran kitabələriylə səslənilən, o dövrdə özlərini mağaralarda ibadət və zikrə həsr edən **Esseilərdir**. Esseilər bəzi tədqiqatçılara görə dindar fariseylərin bir qoludur. Daha sonrakı hissələrdə də bəhs edəcəyimiz kimi, tədqiqatçılar arasında esseilərin hz. İsa (ə.s) ilə yaxından əlaqədar olduqları istiqamətində

önəmli qənaət vardır. Bu düşüncədə olan tədqiqatçılar, xristianlığın mənşələrinin esseilərə əsaslandığını iddia edirlər.

Tarixi qaynaqlara və İncildə yer alan izahlara görə, hz. İsa (ə.s) dövrün inkarçı və müşrik qruplarıyla çox böyük mübarizə içində olmuş, onlara Allahın dinini çox hikmətli nümunələrlə izah etmişdir. Buna görə bəhs olunan qrupların fikirlərini yaxından araşdırmaq, o dövrün qarışıq mühitini anlamaq baxımından faydalı olacaq.

# Səduqilər

Qrupları araşdırdığımızda ictimai status baxımından ən təsirli vəziyyətdə olanların səduqilər olduğunu görərik. Adları hz. İsa (ə.s) ilə müəyyənləşdirilməyən tək məzhəb də bunlardır. Çünki həqiqətən də səduqilər hz. İsa (ə.s)-ın gətirdiyi mesaja tamamilə zidd dünya görüşünə sahibdirlər. Əldəki qaynaqlarda təfərrüatlı olaraq ifadə edilməməsinə baxmayaraq, hz. İsa (ə.s)-ın bu azğın axına qarşı da mübarizə etmişdir. Matta İncilində hz. İsa (ə.s) inananları səduqilərin fikirlərinə qarşı xəbərdar etmişdir:

**İsa onlara, "Gözünüzü açın" dedi, fariseylərlə səduqilərin mayasından çəkinin. (Matta, 16: 6)**

Roma rəhbərliyi ilə əməkdaşlıq edən və yüksək rahiblər soyundan gəldiklərini iddia edən bu qrup, Qüds məbədinin nizamından məsul idi. Məbəddə icra edilən qurban sistemini bütün təfərrüatlarıyla tətbiq edənlər onlar idi.[1] Əhəmiyyətli bir iş olaraq qəbul edilən məbəd fəaliyyətlərini icra etdikləri üçün də başqa heç bir işlə maraqlanmazlar və özlərini yüksək sinif olaraq görərdilər. Etdikləri bu iş sayəsində böyük qazanc, siyasi imtiyazlar və etibar əldə etmişdilər. Sayları 7-8 min olan bu rahiblərin vəzifələri atadan oğula keçirdi. Səduqilər, bir tərəfdən hakimiyyətlərini zəmanət altına alma ənənəsi davam etdirmək istəyərkən, bir tərəfdən də Helen mədəniyyətini qəbul etmişlər və bunu yaymağa çalışmışlar.

Digər tərəfdən, "materialist" sayıla biləcək özlərinə xas inancları vardı. Ölümlə birlikdə ruhun da öldüyünə, yəni ölümdən sonra həyatın var olmadığına

inanırdılar. Mələklərin, cənnət-cəhənnəmin, taleyin varlığını da qəbul etmir, dünya işlərinin dini inanclardan tamamilə müstəqil olduğuna inanırdılar. Bunun səbəbi Roma mədəniyyətindən təsirlənmələri idi. Bu yanlış fikirləri sayəsində də dünyəvi həyat və hakimiyyət ehtirası onlar üçün mümkün hala gəlirdi. Səduqilər, uzun müddət hakimiyyətdə qalmış, bu müddət ərzində fariseylərlə və digər dindar axınlarla zidd düşmüşdür. Sonunda, 70-ci ildə Yəhudi Dövlətinin yıxılmasıyla yoxa çıxmışlar.

## Fariseylər

Fariseylər isə səduqilərdən bir çox mövzuda ayrılan, onlarla zidd düşən bir məzhəb idi. Başda Tövrat olmaq üzrə müqəddəs yazılarla maraqlanar, xalq içində dini nüfuz olaraq qəbul edilir və hörmət görərdilər. Səduqilərin Məbədi idarə etmələrinə qarşı çıxar, onların dindən kənar bütün davranışlarını tənqid edərdilər. Səduqilərin əksinə, ruhun varlığına, ölümdən sonrakı həyata, cənnətə və cəhənnəmə inanırdılar. Roma rəhbərliyi ilə səduqilər kimi bir əməkdaşlıq içində deyildilər. Romalıların gətirdiyi Helen mədəniyyətini əsla qəbul etmirdilər. Ancaq Paks Romana adı verilən və Romanın hakim olduğu torpaqlarda barış mühitinin mühafizəsini nəzərdə tutan tətbiq onların da maraqlarına uyurdu.

Fariseylər əslində dini duyğuları güclü olan və dinsizliklə mübarizə aparan qrupdur. "Şifahi ənənə" adı altında dini mühafizə etməyə və yəhudi cəmiyyəti içində yaymağa çalışmışlar. Hz. Musa (ə.s)-ın şəriətinin hakim olması üçün böyük səy göstərmiş, hətta bu məqsədlə döyüşmüşlər. Bəzi tarixçilər, hz. İsa (ə.s)-ın etdiyi təbliğin ən çox fariseylərin fikrinə yaxın olduğunu söyləyərək, hz. İsa (ə.s)-ın da bu dindar kəslərlə birlikdə olduğunu müdafiə etmişlər. Ancaq İncildə hz. İsa (ə.s)-ın fariseylərə istiqamətli çox müxtəlif xatırlatmaları, xəbərdarlıqları vardır. Bununla birlikdə hz. İsa (ə.s)-ın fariseylərlə dostluq etdiyi, birlikdə yemək yediyi də İncildə yer alır. (Luka, 7: 36; Luka, 11: 37; Luka, 14: 1).

# Zealotlar

Səduqilər və fariseylərdən sonrakı ən aktiv qrup, zealotlar idi. Bu kəslərin çoxu farisey mənşəli idi. Ancaq Roma işğalına qarşı verdikləri reaksiya səbəbiylə radikallaşaraq, bəhsi keçən yeni qrupu meydana gətirmişdilər. Zealotlar Romaya qarşı silahlı mübarizənin vacibliyinə inanırdılar. Buna görə bir müqavimət təşkilatı kimi hərəkət etmiş və partizan taktikalarıyla həm romalılara, həm də onlarla əməkdaşlıq edən yəhudilərə qarşı sui-qəsdlər təşkil etmiş, bəzən də böyük qiyamlar başlatmışlar. Zealotların bir qolu, reallaşdırdıqları bıçaqlı sui-qəsdlər səbəbiylə hz. İsa (ə.s) dövründə Sicarii (xəncərlilər) olaraq xatırlanarlar.

Bu qrup, Böyük Herod zamanında fərqli siyasi görüş müdafiə edərək ortaya çıxmışdır. 6-cı ildə, yəhudiyə, birbaşa Roma hakimiyyətinə keçib rəsmi avtoritetlər vergi mövzusunda yeni tənzimləmələr etdiklərində, Yahudiyəli Judasın öndərlik etdiyi zealotlar üsyan etmək istədilər. Bütpərəst Roma İmperatorunun nüfuzunu qəbul etmək onlar üçün Allahın hakimiyyətini rədd etmək və köləliyi qəbul etmək mənasını verirdi.

Bu ilk qiyam qısa müddətdə yatırıldı və böyük hissəsi öldürülmüş, ancaq geridə qalanlar müqavimətlərinə davam etmişlər. Daha sonra silahlı mübarizə şəklinə bürünərək I Yəhudi qiyamıyla (66-70-ci illər) nəticələnmiş və Masada qalasında edilən qırğınla sona çatmışdı. Hz. İsa (ə.s) dövründə, Məsihi gözləyən fərqli axınlar ortaya çıxmış və çox sayda tərəfdarları artmışdı. Romalılar bu hərəkətlərə qarşı ciddi tədbirlər almaqda gecikməmiş, hər cür təzyiq və idarəsini artırmışlar. Əgər xalqa təhrik edici bir hərəkət təsbit etsələr sərt və mərhəmətsiz davranmışlar. Daha sonra yəhudilər, romalıların bu həssaslığını hz. İsa (ə.s)-a qarşı istifadə etmişlər. Məsihin gəlişini gözləyən zealotlar hz. İsa (ə.s)-ın təbliğinə maraq duymuşlar.

# Esseilər və Ölü dəniz perqamentləri

Dördüncü qrup, yəni esseilər isə, ilk üç qrupun əksinə Qüdsdə ya da digər şəhər və ya qəsəbələrdə deyil, İordaniya vadisinin kimsəsiz bölgələrində yaşayırdılar. Digər üç qrupa görə daha çox dinlərinə bağlı, batini elm tərəfdən

qüvvətli təriqət idilər. O dövrdə çox məşhur olan inanc onlarda da hakim idi: **Məsihin çox yaxında gələcəyinə, İsrailoğulları arasındakı sapma və ayrılıqları düzəldəcəyinə, ölkəni işğaldan qurtaracağına inanırdılar.** Helen mədəniyyətinə və Roma rəhbərliyinə tamamilə qarşı olan bu qrup, hz. Musa (ə.s)-ın gətirdiyi şəriəti ən mükəmməl şəkildə tətbiq etməyə çalışırdı. Vəd edilən Məsih gələnə qədər özlərini xarici dünyadan təcrid olub, ibadətə həsr etmişdilər. İordaniya vadisindəki mağaralarda yaşayır və bütün zamanlarını dini mətnlər üzərində çalışaraq keçirirdilər.

**Şübhəsiz ki, möminlərin, yəhudi, nəsrani və sabiilərdən Allaha və Axirət gününə iman gətirənlərin və yaxşı iş görənlərin mükafatı öz Rəbbi yanındadır... (Bəqərə surəsi, 62)**

Flavius bu qrup haqqında kitabında müxtəlif açıqlamalar etmişdir. Ancaq 1947-ci ildə Kumranda olan çoxlu sayda əl yazmasının esseilər adı verilən bu təriqətə aid olduğu ortaya çıxanda, haqqında ən çox şey bilinən qrup halına gəlmiş, yazmaların məzmunu mövzusunda edilən izahlar bu təriqəti olduqca əhəmiyyətli bir hala gətirmişdir.

1947-ci ildə, Ölü Dənizin şimal qərbində, Kirbet Kumran adlı yerdəki mağaralarda **Ölü dəniz perqamentləri** adı verilən mətnlər tapılmışdır. Sonrakı illərdə aparılan tədqiqatlar nəticəsində 600-ə qədər İbranicə-Aramicə yazma və çoxlu sayda parça tapılmışdır. Bu tapıntıların içində o dövrə aid Tövrat mətnləri və daha əvvəl heç bilinməyən yəhudi dini mətnləri, bu yazmaların sahibi olan təriqətin gündəlik həyatını və qaydalarını izah edən mətnlər və çoxlu sayda fərqli mövzuda mətnlər mövcuddur.

Uzun araşdırmalardan sonra mətnləri yazanların bir yəhudi təriqəti olduğu qətilik qazanmış və bunların tarixçi Josephusun bəhs etdiyi essei təriqəti olduğu ümumiyyətlə qəbul edilmişdir. Romalı yazar Kiçik Plinusun, esseilərin yaşadığı yer olaraq Kirbet Kumranı bildirməsi də bu qənaəti gücləndirmişdir. Mətnlərin ən qədimi olanı e.ə. 200-cü il, ən yenisinin isə 68-ci il tarixinə aid olduğu təsbit edilmişdir. Bu tarix eyni zamanda romalı general Vepasianusun yəhudi qiyamını yatışdırmaq üçün başlatdığı hücumla eyni dövrə də uyğun gəlir.

Mətnlər araşdırıldığında, esseilərin həyatlarına və inanclarına aid məlumatlar ortaya çıxmışdır. Yaxın zamanda gələcək bir qurtarıcı peyğəmbəri

gözləyən bu təriqət, müqəddəs mətnlərə, qanunlara intizamlı şəkildə riayət edir, səduqi axınının əksinə axirətə, taleyə, mələklərə, cənnət və cəhənnəmə inanırlar. Bundan başqa təriqətin mənsubları özlərini Tanrının xidmətindəki "işığın uşaqları" olaraq görür və "qaranlığın uşaqlarıyla" edəcəkləri mübarizəyə hazırlanırlar. Bu "işığın uşaqları" termini İncildə də yer alır. Təriqətin üzvləri təmizliyə çox əhəmiyyət verir, gündə bir neçə dəfə yuyunur və təmizlənirlər. Bir-birlərini qardaş olaraq görür və qardaş sevgisinə böyük əhəmiyyət verirlər. Məsihi gözləmək bu birliyin inancının əhəmiyyətli bir elementidir.

Edilən araşdırmalar yekunlaşdırılsa, esseilərin, fariseylərlə davam edən ənənənin bir qolu və eyni görüşə bağlı bir birlik olduğu bilinir. Onlar da fariseylər kimi, səduqilərin rəsmi yəhudilik və Tövrat düşüncəsindən ayrılmış və tənha həyat yaşayaraq, dini yaymağa çalışmışlar. Bu dindar qrup, əllərindəki mətnlərə əsaslanaraq, çox yaxında bir qurtarıcının, Məsihin, gələcəyini də bilərək buna hazırlıq görür. Bu isə o dövrdə, gerçək dinin, bütün maneələrə baxmayaraq yaşandığının əhəmiyyətli dəlillərindən birini meydana gətirir. Burada vurğulanması lazım olan əhəmiyyətli xüsuslardan biri isə, hz. İsa (ə.s) dövründə yəhudi cəmiyyətinin içində olduğu bu parçalanmadır. Xalq, həm bütpərəst işğalçı hökumət tərəfindən idarə olunurdu, həm də öz dini mövzusunda müxtəlif fikir ayrılıqları yaşayırdı. Bir-birlərindən çox fərqli düşüncələrə sahib olan məzhəblər, gerçək yəhudiliyi özlərinin təmsil etdiyini iddia edirdilər.

## Yəhudilərin "Qurtarıcı" gözləməsi

Əhdi-Ətiqdə, Məsihin gələcəyinə dair çox sayda izaha rast gəlmək mümkündür. Kitabın sonrakı hissələrində bir qismini etdiyimiz bu izahlar o qədər təsirli olmuşdur ki, yəhudilər üçün Məsih, ən böyük qurtuluş mənasını vermişdir. Sonrakı əsrlərdə yaşamış məşhur yəhudi ilahiyyatçı Maimonides, yəhudi inanc sistemini hazırlayarkən on üç qaydanın ilk ikisini Məsihin gəlişinə ayırmışdır. **Bu qaydalar, "Məsihin gəlişinə qəti iman ilə inanıram. Geciksə belə onun gələcəyini gözləyirəm" şəklindədir.**

**..."Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən çıxart, bizə Öz tərəfindən bir himayəçi göndər, bizə Öz tərəfindən bir yardımçı göndər!"... (Nisa surəsi, 75)**

Yəhudi inancına görə, İsrailoğullarının həm siyasi, həm dini istiqamətdən çöküntüyə uğradığı bir dövrdə, Allah onları hər iki istiqamətdən də qurtaracaq bir lider göndərəcəkdi. Bu lider həm İsrailoğullarının əvvəldən olduğu kimi şirk qoşmadan Allaha iman etmələrini təmin edəcək, həm də bir "Məsih" olaraq düşmənlərinə qarşı onlara zəfər verəcək.

Əhdi-Ətiqin bəzi hissələrində tez-tez bu qurtarıcıdan danışılmış və onun zamanında nə qədər böyük ədalət, hüzur və düzgünlük yaşanacağı xəbər verilmişdir. Məsələn, İşaya kitabında, Məsihin necə böyük ədalət, "Rəbb qorxusu" və bəsirət sahibi olacağı və İsrailə necə böyük hüzur gətirəcəyi belə müjdələnirdi:

*Yessenin gövdəsindən bir filiz çıxacaq və onun köklərindən bir cücərti doğulacaq.* ***Rəbbin ruhu, hikmət və sağlam fikir ruhu, öyüd və ürəklilik ruhu, məlumat və Rəbb qorxusu ruhu onun üzərində olacaq. O, Rəbb qorxusundan zövq alacaq; o gözlərinin gördüyünə görə mühakimə etməyəcək; qulaqlarının eşitdiyinə görə qərar verməyəcək. Zəifləri ədalətlə mühakimə edəcək; yer üzündəki yoxsullara haqlarını verəcək. Bir dəyənəklə vurar kimi yer üzünə sözüylə vuracaq və dodaqlarının nəfəsiylə pisi yox edəcək.*** *Ədalət onun belinin qurşağı... olacaq. Qurd quzuyla birlikdə oturacaq; aslan oğlaqla birlikdə yatacaq; buzov, aslan və mal-qara bir yerdə yaşayacaq və onları kiçik bir uşaq qoruyacaq. İnək ayı ilə birlikdə otlayacaq; balaları bir yerdə oturacaqlar və aslan mal-qara kimi saman yeyəcək. Əmzikli uşaq, kobra ilanının yuvası yanında oynayacaq və süddən yeni kəsilmiş uşaq, qara ilanın dəliyinə əlini uzadacaq. Mənim müqəddəs dağım üzərində heç pislik edilməyəcək; artıq heç bir zərər verilməyəcək; çünki dənizin dibi necə onu örtən sularla doludursa, yer üzü də Rəbb bilgisi ilə elə dolacaq. (İşaya, 11: 1-9)*

**... adı Məryəm oğlu İsa Məsih olan bir kəlmə ilə müjdələyir. O, bu dünyada və axirətdə şan-şöhrətli və Allaha yaxınlaşdırılmışlardan olacaqdır. (Ali İmran surəsi, 45)**

Bu Məsih gözləməsi, az əvvəl ifadə etdiyimiz kimi, Herodun zalım rəhbərliyi altında yaxşı şəkildə güclənmişdi. Yəhudi torpaqlarının hər tərəfində Məsihi gözləyən, onun gəlişi üçün hazırlıqlar edən və ya insanları xəbərdar edən hərəkətlər ortaya çıxmışdı. Bu Məsih gözləməsi həm Roma rəhbərliyi, həm də Herodun hakimiyyəti üçün bir təhlükə meydana gətirirdi. Çünki bu hərəkətlər ümumiyyətlə Roma nüfuzunu və ona bağlı yəhudi rəhbərliyini hədəf alırdı. Belə güclü bir hərəkət bütün xalqı bütpərəst rəhbərliyə qarşı qiyama təşviq edə bilərdi. Buna görə hər iki rəhbərlik də özlərinə görə tədbirlər almışdılar. İncildə izah edildiyinə görə, Herod məhz bu səbəblə hz. İsa (ə.s)-ın doğumu ilə əlaqədar xəbərləri öyrəndiyində Məsihi hələ beşikdə ikən öldürmək istəmiş, bu iş üçün bir qırğın törətməkdən çəkinməmişdir. Hadisə, Matta İncilində belə izah edilir:

*İsa, Kral Herodesin dövründə Yəhudiyənin Betləhəm (Beytullahım) qəsəbəsində doğulduqdan sonra bəzi münəccimlər şərqdən Qüdsə gəlib belə dedilər: "Yəhudilərin kralı olaraq doğulan uşaq harada? Şərqdə onun ulduzunu gördük"... Kral Herodes bunu eşidəndə bütün Qüds xalqıyla birlikdə çox narahat oldu. Bütün baş kahinləri və xalqın din alimlərini yığaraq onlara Məsihin harada doğulacağını soruşdu. "Yəhudiyənin Betləhəm qəsəbəsində" dedilər. Çünki peyğəmbər vasitəsilə belə yazılmışdır: "Sən, Yəhuda diyarında olan ey Betləhəm, Yəhuda öndərləri arasında heç də əhəmiyyətsiz deyilsən! Çünki mənim xalqım İsraili qoruyacaq öndər səndən çıxacaq".*

*Bunun üzərinə Herodes münəccimləri gizlicə çağırıb onlardan ulduzun göründüyü anı tam olaraq öyrəndi. "Gedin, uşağı diqqətlə axtarın, tapdığınız zaman mənə xəbər verin..." deyərək onları Betləhəmə göndərdi. (Matta, 2: 1-7)*

... Herodes, münəccimlər tərəfindən aldadıldığını görəndə çox qəzəbləndi. Onlardan tam olaraq öyrənmiş olduğu zamana görə, Betləhəm və bütün bölgəsində olan iki və daha kiçik yaşdakı oğlanların hamısını öldürtdü. Beləliklə, Yeremya peyğəmbər vasitəsilə bildirilən bu söz yerinə gəlmiş oldu: "Ramahda bir səs eşidildi, ağlamaq və acı fəryad səsləri! Uşaqları üçün ağlayan Rahel, təsəlli edilmək istəmir. Çünki onlar yox artıq!" (Matta, 2: 16-18)

Gözlənilən Məsihin ən əhəmiyyətli xüsusiyyətlərindən biri, Hz. Davud soyundan gələcək olmasıdır. İncildə də Hz. İsanın soyunun Hz. Davuddan gəldiyi bildirilməkdədir.

Yəhudi təriqətlərinin içində Məsih inancı fərqlər göstərirdi. Ümumiyyətlə Məsihi böyük peyğəmbər və qurtarıcı olaraq gözləyən bəzi Yəhudilər, onu əsla fövqəlbəşər bir varlıq olaraq görmürdülər. Məsih, Hz. Davud kimi, Hz. Süleyman kimi ya da Hz. Musa kimi bir insan olacaqdı. Yəni Allahın sadiq qulu, Tövratda təsvir edildiyi xüsusiyyətiylə, "Rəbb qorxusundan zövq alan" biri olacaqdı. Esseilər bu Məsih gözləməsinin yanında Məsihin möcüzələrini də əvvəldən xəbər vermişlər. Onlara görə Məsih, "düşəni qaldıracaq, xəstəni yaxşılaşdıracaq, əsiri azad edəcək, tozun içində yatanı dirildəcək". Nəticə olaraq, Yəhudilər əllərindəki məlumatlara baxaraq Məsihin çox yaxında gələcəyini bilməkdə idilər. Çöldə, şəhərlərdə gəzərək Məsihin gəlişini gözləyən və buna hazırlıq edən çox sayda insan və qrup vardı.

## Çətinlik və sıxıntı içində olan qövmlərin Allahdan "Qurtarıcı" istəmələri

Quran ayələrində çətinlik içində olan, təzyiq və zülm görən qövmlərin bu vəziyyətdən özlərini qurtarmağa vəsilə olacaq bir qurtarıcı gözlədikləri bildirilir. Rəbbimiz Nisa surəsində bu şəkildə buyurur:

**(Ey müsəlmanlar!) Sizə nə olub ki, Allah yolunda: "Ey Rəbbimiz, bizi əhalisi zalım olan bu şəhərdən kənara çıxart, bizə öz tərəfindən mühafizəçi göndər, yardımçı yolla!" – deyə dua edən aciz kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz? (Nisa surəsi, 75)**

Ayələrdə, Allahın elçi göndərdiyi bölgələrdə, elçinin gəlişindən əvvəl ictimai və əxlaqi baxımdan böyük çöküntü yaşandığı xəbər verilir. Elçinin gəlişinin ardından onun izindən gedən insanlar dinin gətirdiyi bolluq, bərəkət və hüzuru yaşayarlarkən, elçidən sonrakı dövrlərdə insanların bir qismi

nəfslərinə uymuş, getdikcə din əxlaqından uzaqlaşaraq inkara yönəlmişlər. Allahdan başqa bəzi saxta ilahlara taparaq özlərinə zülm etmişlər. Allah, Məryəm surəsində elçilərin Allaha olan bağlılıqlarından, səmimiyyətlərindən və ixlaslarından bəhs etdikdən sonra, onlardan sonra gələn qövmlərin bu inanclarını tamamilə itirdiklərini xəbər verir. Bu kəslərlə əlaqədar olaraq ayələrdə belə buyurulur:

**Bunlar Adəmi və Nuhla gəmiyə mindirdiyimiz adamların nəslindən, İbrahimin, İsrailin (Yəqubun) nəslindən seçib haqq yola yönəltdiyimiz və Allahın nemət bəxş etdiyi peyğəmbərlərdəndir. Onlar Rəhmanın (Allahın) ayələri özlərinə oxunduğu zaman ağlayaraq səcdəyə qapanırlar. Onlardan sonra namazı tərk edib şəhvətə uyan bir nəsil gəldi. Onlar öz əməllərinin cəzasını alacaqlar. (Məryəm surəsi, 58-59)**

Allah dinindən uzaqlaşan, niyə yaradıldıqlarını və Yaradana qarşı olan məsuliyyətlərini heç düşünməyən bu insanları müxtəlif fəlakətlərlə xəbərdar etmişdir. Bu etdiklərinin qarşılığı olaraq onlara olan nemətini dəyişdirmiş, **"Kim də Mənim zikrimdən üz çevirsə, artıq onun üçün çətin bir dolanışıq vardır..." (Taha surəsi, 124)** ayətdə bildirdiyi kimi çətin həyat vermişdir.

Tarix boyunca iqtisadi və ictimai problemlərin yaşandığı, ədalətsiz rəhbərliyin hakim olduğu "çətin" dövrlərdə, insanlar həmişə bir qurtarıcıya ehtiyac duymuşlar. Bu qurtarıcı, yaşadıqları mövcud sistemin mənfi istiqamətlərini düzəldəcək, ədaləti, barışı, təhlükəsizliyi təmin edəcək və özlərini doğru yola çəkəcəkdi. Dövrümüzdəki cəmiyyətlərdə də çox sürətli pozulma, korlanma və degenerasiya yaşanır. Kasıblıq, səfalət, zülm mühitində olan insanlar, gözəl əxlaqın yaşandığı, dinc bir həyatın həsrətindədirlər. Allah əvvəlki qövmlərə də, eyni ictimai çöküntüdən sonra qurtarıcılar göndərmiş və çətinliyin ardından böyük bolluq, bərəkət və zənginlik vermişdir. Allah, qorxub çəkinən cəmiyyətlərə bolluq və bərəkət verəcəyinə bir ayəsində belə işarə edir:

**Əgər o məmləkətlərin əhalisi iman gətirib (pis əməllərdən) çəkinsəydilər, sözsüz ki, onların başlarına göydən və yerdən bərəkət yağdırardıq. Lakin onlar yalançı hesab etdilər, Biz də onları qazandıqlarına (qazandıqları günahlara) görə məhv etdik. (Əraf surəsi, 96)**

Rəbbimiz yuxarıdakı ayələrlə bizə çox əhəmiyyətli bir həqiqəti xatırladır: Barışın, hüzurun, bolluğun və bərəkətin tək yolu, din əxlaqının yaşanmasıdır. Bu, keçmiş qövmlərdə bu şəkildə olmuşdur, bundan sonrakı qövmlərdə də bu şəkildə olacaq. İslam əxlaqının olmadığı yerdə, ədalətin, təhlükəsizliyin, sabitliyin hakim olması qeyri-mümkündür. Bu, Allahın bir qanunudur. Fatır surəsində bizlərə bu müjdə verilir:

**...Sən Allahın qoyduğu qayda-qanunda heç bir dəyişiklik tapmazsan! (Fatır surəsi, 43)**

Yaşadığımız bu dövr, hər cür korlanmanın hakim olduğu maddi və mənəvi pozulmanın artdığı, bir çox azğınlığın yaşandığı, siyasi və iqtisadi baxımdan böyük qeyri-sabitliyin hökm sürdüyü, zənginlə kasıb arasında çox böyük uçurumların yarandığı bir dövrdür. Bizim Qurandan öyrəndiyimiz həqiqət isə, belə bir mühitdən sonra Allahın bir qurtuluş yolu göstərəcəyi və bu vəsilə ilə İslam əxlaqının bütün dünyada mütləq yaşanacağı, haqq dinin digər batil dinlərə üstün gələcəyidir. Allah Tövbə surəsində inanan qullarını bu həqiqətlə belə müjdələyir:

**Onlar ağızları ilə Allahın nurunu söndürmək istəyirlər. Allah isə buna yol verməz, kafirlərin xoşuna gəlməsə də, O, Öz nurunu tamamlayar. Müşriklərin xoşuna gəlməsə də, İslamı bütün dinlərdən üstün etmək üçün Öz Elçisini doğru yol göstəricisi və haqq din ilə göndərən Odur. (Tövbə surəsi, 32-33)**

Allah hər imanlı qövmə kömək etdiyi kimi, bundan sonra da yer üzündəki inananlara kömək edəcək. Allah ixlasla və səmimiyyətlə Özünə yönələn qullarına bunu vəd etmişdir. Ayələrdə belə buyurulur:

**Onlar ancaq "Rəbbimiz Allahdır" - dediklərinə görə haqsız yerə yurdlarından çıxarıldılar. Əgər Allah insanların bəzilərini, digərləri ilə dəf etməsəydi, içərisində Allahın adı çox zikr olunan hücrələr, kilsələr, sinaqoqlar və məscidlər dağılıb gedərdi. Allah Ona yardım edənlərə, mütləq yardım edər. Şübhəsiz ki, Allah Qüvvətlidir, Qüdrətlidir. Əgər onlara yer üzündə hökmranlıq versək, onlar namaz qılar, zəkat verər, yaxşı işlər görməyi əmr edib, pis işlər**

**görməyi qadağan edərlər. Bütün işlərin aqibəti Allaha aiddir. (Həcc surəsi, 40-41)**

# Yəhya peyğəmbər

**Əgər o ölkələrin əhalisi iman gətirib Allahdan qorxsaydı, əlbəttə, Biz onların üstünə göydən və yerdən bərəkət qapılarını açardıq. Lakin onlar peyğəmbərləri yalançı hesab etdilər. Biz də onları qazandıqları günahlara görə əzabla yaxaladıq. (Əraf surəsi, 96**

Əhdi-Cədidə görə təbliğə hz. İsa (ə.s)-dan bir müddət əvvəl başlamış hz. Yəhya (ə.s), ətrafındakı insanları Məsihin gəlişi mövzusunda müjdələmiş və Məsihin ən böyük dəstəkçisi olmuşdur.

Hz. Yəhya (ə.s)-ın doğumu, Rəbbimizin təqdiri ilə, möcüzəvi şəkildə reallaşmışdır. Bu müqəddəs hadisənin gerçək xəbəri Məryəm surəsinin ilk ayətlərində bu şəkildə izah edilir:

**Kəf. Ha. Yə. Ayn. Sad. Bu sənin Rəbbinin Öz qulu Zəkəriyyaya göstərdiyi mərhəmətinin yada salınmasıdır. Bir zaman Zəkəriyya Rəbbinə gizlicə dua edib demişdi: "Ey Rəbbim! Artıq sümüklərim zəifləmiş, başım da ağappaq ağarmışdır. Ey Rəbbim! Sənə etdiyim dua sayəsində heç vaxt bədbəxt olmamışam. Mən özümdən sonra gələn qohumlarımdan dinə etinasız yanaşacaqlarından qorxuram. Zövcəm də sonsuzdur. Mənə Öz tərəfindən elə bir övlad bəxş et ki, o həm mənə, həm də Yaqub nəslinə varis olsun. Ey Rəbbim! Elə et ki, o Sənin razılığını qazanmış olsun!" Ona belə vəhy olundu: "Ey Zəkəriyya! Səni Yəhya adlı bir oğulla müjdələyirik. Biz bu adı ondan öncə kimsəyə qoymamışıq!" O dedi: "Ey Rəbbim! Zövcəm sonsuz bir qadın ikən, özüm də qocalığın son həddində olduğum halda necə mənim övladım ola bilər?" Mələk dedi: "Bu, belədir, lakin Rəbbin buyurdu: "Bu Mənim üçün asandır. Axı əvvəlcə sənin özünü də sən heç bir şey deyilkən xəlq etmişdim!"" (Məryəm surəsi, 1-9)**

Luka İncilində hz. Yəhya (ə.s)-ın doğumu ilə əlaqədar olaraq Quran ayələriylə uyğun izahat vardır. Hz. Yəhya (ə.s)-ın atası hz. Zəkəriyya (ə.s)-dır. Hz. Zəkəriyya (ə.s) və həyat yoldaşı, Lukaya görə "*Allahın gözündə doğru kəslər idi, Rəbbin bütün buyruq və qaydalarına əskiksiz uyardılar".* (Luka, 1: 6) Hər ikisi də yaşlanmışdılar və uşaqları olmurdu. Buna qarşı Allah hz. Zəkəriyya (ə.s)-a bir oğul müjdələdi. Luka İncilində bu hadisə belə bildirilir:

Zəkəriyya onu (mələyi) görüncə təəccübləndi, qorxuya qapıldı. Mələk ona, "Qorxma, Zəkəriyya duan qəbul edildi. Arvadın Elizabet sənə bir oğul doğuracaq, onun adını Yəhya qoyacaqsan. Sevinib coşacaqsan. Bir çoxları da onun doğumuna sevinəcək. O, Rəbbin gözündə böyük olacaq. Heç şərab və içki içməyəcək; hələ anasının rəhmindəykən Müqəddəs Ruhla dolacaq. İsrailoğullarından bir çoxunu, Tanrıları olan Rəbbin yoluna dəvət edəcək." (Luka, 1: 11-16)

Hz. Yəhya (ə.s) təqva sahibi saleh bir qul və qövmü üçün də bir hidayət öndəri olmuşdur. Allah bu ixlas sahibi qulunu Quran ayələrində bu şəkildə tərifləyir:

**Yəhyaya da: "Ey Yəhya! Kitabdan möhkəm yapış!" - deyə vəhy etdik. Biz ona uşaq ikən hikmət bəxş etdik. Üstəlik Öz tərəfimizdən bir şəfqət və paklıq da bəxş etdik. O, müttəqi idi. Həm də ata-anasına qarşı qayğıkeş idi; lovğa və asi deyildi. Doğulduğu gün də, öləcəyi gün də, yenidən dirildiləcəyi gün də ona salam olsun! (Məryəm surəsi, 12-15)**

**Onlar ağızları ilə Allahın nurunu söndürmək istəyirlər. Allah isə buna yol verməz, kafirlərin xoşuna gəlməsə də, O, Öz nurunu tamamlayar. (Tövbə surəsi, 32)**

Hz. Yəhya (ə.s), Əhdi-Cədidə görə də Allahın sadiq bir qulu və təqva sahibi bir mömindir. O, din əxlaqından uzaqlaşan bəzi yəhudiləri qürurları səbəbiylə xəbərdar etmiş və onları Allahın hökmlərini qorumağa, günahdan çəkinməyə dəvət etmişdir. Luka İncili, hz. Yəhya (ə.s) ilə onu dinləməyə gələn bəzi yəhudilər arasındakı danışıqları belə izah edir:

*Yəhya, vəftiz olmaq üçün özünə axın edən izdihamlara belə səsləndi: "Ey viperinaelər soyu! Gələcək qəzəbdən qaçmanız üçün sizi kim xəbərdar etdi? Bundan belə tövbəyə yaraşan meyvələr verin! Öz özünüzə, "Biz İbrahimin soyundanıq" deməyə qalxmayın. Mən sizə bunu söyləyim: Allah, İbrahimə bu daşlardan uşaq yaradacaq gücdədir. Balta indidən ağacların kökünə söykənmişdir. Yaxşı meyvə verməyən hər ağac kəsilib oda atılacaq."*

*Xalq ona: "Elə isə biz nə edək?" deyə soruşdu. Yəhya onlara: "İki geyimi olan, birini heç geyimi olmayana versin; yeməyi olan da bunu heç yeməyi olmayanla paylaşsın" cavabını verdi. Bəzi vergi işçiləri də baptizm olmağa gələrək ona: "Müəllimimiz, biz nə edək?" dedilər. Yəhya onlara: "Sizə buyurulandan daha çox vergi almayın." dedi. Bəzi əsgərlər də ona: "Biz nə edək?" deyə soruşdular. O da onlara belə dedi: "Sərt qüvvətlə ya da yalan ittihamlarla kimsədən pul qoparmayın, sizə verilənlə kifayətlənin." (Luka, 3: 7-14)*

Əhdi-Cədidə görə Hz. Yəhya bu təbliği əsnasında özünü dinləyənlərə həmişə "vaxtın dolduğunu" söyləyirdi. "Gələcək olan" artıq gəlmək üzrə idi.

# Hz. İsa (ə.s)-ın həyatı

Tarixi qaynaqlara görə hz. Məryəm, əvvəlki hissələrdə üzərində durduğumuz bütün anarxiyanın yaşandığı, Roma İmperatorluğunun zülmünün davam etdiyi və yəhudilərin Məsihin gəlişini səbirsizliklə gözlədikləri bir zamanda dünyaya gəlmişdir. Hz. Məryəm, Allahın aləmlər üzərinə seçib üstün etdiyi bir soydan, İmran ailəsindən gəlir (Ali İmran surəsi, 33).

Allah, İmran ailəsini aləmlərə üstün etdiyi kimi, bu ailəyə mənsub olan hz. Məryəmi də seçmiş, təmizləmiş və onu aləmlərin qadınlarına üstün etmişdir. Quranda belə bildirilir:

**Bir zaman mələklər dedilər: "Ey Məryəm! Həqiqətən, Allah səni seçdi, təmizlədi və seçib aləmlərin qadınlarından üstün etdi. Ey Məryəm! Rəbbinə itaət et, səcdə qıl və rükuya gedənlərlə birlikdə rükuya get!" (Ali İmran surəsi, 42-43)**

İmran ailəsi, Allaha iman edən, hər işlərində Onun razılığını qazanmağa çalışan və Onun qoyduğu sərhədləri diqqətlə qoruyan, ətraflarında da bu xüsusiyyətləriylə tanınan bir ailədir. İmranın zövcəsi, hz. Məryəmə hamilə qaldığını öyrəndiyi zaman, dərhal Allaha yönəlib dua etmiş və doğuracağı uşağı Allaha həsr etmişdi. Doğan qız uşağına qoyduğu Məryəm adı da onun Allaha olan könüldən təslimiyyətinin bir işarəsidir. Məryəm "abidə" yəni "Allaha davamlı ibadət edən kimsə" mənasını verən bir sözdür. Bu mövzu Quranda belə xəbər verilir:

**Bir zaman İmranın arvadı demişdi: "Ey Rəbbim! Mən bətnimdəkini Sənə qul olmaq üçün nəzir etdim. Məndən qəbul et! Həqiqətən, Sən Eşidənsən, Bilənsən". Ondan azad olduğu zaman demişdi: "Ey Rəbbim! Mənim qızım oldu" - Allah onun nə doğduğunu daha yaxşı bilirdi, - "axı oğlan qız kimi deyildir. Mən onun adını Məryəm qoydum, onu və onun nəslini lənətlənmiş şeytandan qorunmağı Sənə həvalə edirəm". (Ali İmran surəsi, 35-36)**

Allah, hz. Məryəmin anasının onu "hər cür asılılıqdan azadlığa qovuşdurulmuş olaraq Allaha həsr etdiyini" bildirir. Bu ifadənin ərəbcəsində

keçən "muharreren" sözü, "yalnız axirət işləriylə məşğul olan, dünya ilə maraqlanmayan, Allaha davamlı ibadət edən, Allahın məbədinə xidmət edən, ixlaslı şəkildə ibadət edən, ibadətində dünya məqsədi olmayan adam" mənalarını verir. Həqiqi mənada azadlıq, insanın yalnız Allaha qulluq edib, Ona təslim olması, varlıqlara ya da bəzi dəyərlərə qulluq etməkdən tamamilə xilas olmasıyla əldə edilə bilər. Məhz İmranın xanımı da, hz. Məryəmin yalnız Allaha qulluq edən, insanların razılığından tamamilə uzaqlaşmış bir insan olmasını Allahdan diləmişdir.

Hz. Məryəm dünyaya gəldiyində, İmranın zövcəsi həm hz. Məryəmi, həm də ondan törəyəcək olan soyu şeytanın şərindən qoruması üçün Allaha dua etmişdir. Allah, İmranın zövcəsinin bu səmimi yönəlişini qəbul etmiş və duasına qarşılıq olaraq, doğurduğu uşağa üstün əxlaq vermişdir. Quranda, hz. Məryəmin, Allahın qoruması altında nə qədər diqqətlə yetişdirildiyinə: "**Bunun üzərinə Rəbbi (Məryəmi) yaxşı qəbul etdi, onu gözəl bir fidan kimi böyütdü və Zəkəriyyaya tapşırdı...**" (Ali İmran surəsi, 37) ayəsiylə xüsusi olaraq diqqət çəkilmişdir.

**Ey Kitab əhli! Dininizdə ifrata varmayın və Allah barəsində yalnız həqiqəti deyin. Məryəm oğlu İsa Məsih ancaq Allahın elçisi, Onun Məryəmə göndərdiyi "Ol!" kəlməsi və Onun tərəfindən göndərilən bir ruhdur. Allaha və Onun elçilərinə iman gətirin və: "Tanrı üçdür!" deməyin. Batil əqidənizə son qoyun! Bu sizin üçün xeyirli olar. Həqiqətən, Allah Tək İlahdır! O, pakdır, müqəddəsdir, övladı olmaqdan uzaqdır. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Qoruyan olaraq Allah yetər. (Nisa surəsi, 171)**

Hz. Zəkəriyya Allahın, saleh bir qul olduğunu, hidayətə çatdırdığını, aləmlərə üstün etdiyini və düz yola yönəltdiyini bildirdiyi peyğəmbərlərdəndir. Allah Quranda bu müqəddəs insandan təriflə bəhs etmiş, gözəl əxlaqına diqqət çəkmişdir. (Ənam surəsi, 85-87) Hz. Məryəmin məsuliyyətini boynuna götürən hz. Zəkəriyya (ə.s), onun həyatındakı möcüzəvi hadisələrə şəxsən şahid olmuş, Allahın hz. Məryəmi xüsusi olaraq seçmiş olduğunu anlamışdır. Məsələn, tək başına davamlı ibadət edən hz. Məryəmin yanına gedən hz. Zəkəriyya (ə.s), onun yeməyini hər vaxt yanında hazır olaraq görmüşdür. Bu mövzu Quranda bu şəkildə xəbər verilmişdir:

**... Zəkəriyya hər dəfə onun yanına ibadətgaha daxil olduqda, onun yanında ruzi olduğunu görərdi. O dedi: "Ey Məryəm! Bu, sənin üçün haradandır?" Məryəm dedi: "Bu, Allah tərəfindəndir. Həqiqətən, Allah istədiyi kimsəyə hesabsız ruzi verir" (Ali İmran surəsi, 37)**

Hz. Məryəm, yaşadığı cəmiyyətdə, həm ailəsinin, həm də özünün Allaha olan bağlılığı və səmimiyyətiylə tanınan bir adam olmuşdur. Quranda açıqca ifadə edilən xüsusiyyəti isə iffətidir. Bu mövzu Təhrim surəsində bu şəkildə keçir:

**Həmçinin ismətini qoruyan İmran qızı Məryəmi də misal çəkdi. Biz ona paltarının yaxasından Öz ruhumuzdan üfürdük. O, Rəbbinin Sözlərini və Onun Kitablarını təsdiq etdi və itaət edənlərdən oldu. (Təhrim surəsi, 12)**

## Hz. Məryəmin Cəbrayıl ilə görüşməsi

Allah, hz. Məryəmin həyatının müxtəlif dövrlərində bir çox möcüzəvi hadisə yaratmışdır. Bunlardan biri də Cəbrayıl ilə görüşməsidir. Hz. Məryəm həyatının müəyyən bir dövründən sonra yaşadığı cəmiyyətdən və ailəsindən uzaqlaşaraq, şərq tərəfində bir yerə çəkilmişdir. Burada Cəbrayıl hz. Məryəmə "insan" şəklində görünmüşdür. Bu möcüzəvi hadisə Quranda bu şəkildə xəbər verilir:

**Kitabda Məryəmi də yada sal. O zaman o, ailəsindən ayrılıb şərq tərəfdə olan bir yerə çəkilmiş və ibadət vaxtı onlardan gizlənmək üçün pərdə tutmuşdu. Biz Öz Ruhumuzu (Cəbraili) onun yanına göndərdik. O, Məryəmin qarşısında kamil bir insan surətində peyda oldu. Məryəm dedi: "Mən səndən Mərhəmətli Allaha sığınıram! Əgər müttəqisənsə, mənə toxunma". (Məryəm surəsi, 16-18)**

Hz. Məryəm qarşısındakı adamın Cəbrayıl olduğunu ilk başda bilmirdi. Bu səbəblə də tanımadığı bir adamla qarşılaşdığını düşündüyü üçün dərhal

Allaha sığınmış və özünün Allahdan qorxan, iman edən bir mömin olduğunu ifadə etmişdir. Bu sözləri hz. Məryəmin Allah qorxusunu, iffətinə olan düşkünlüyünü və təqva sahibi bir qul olduğunu açıqca ortaya qoyur. Bunun üzərinə Cəbrayıl özünü tanıtmış, Allahın vəzifələndirdiyi bir elçi olduğunu və ona Allahdan bir müjdə ilə gəldiyini bildirmişdir:

**Mələk dedi: "Mən sənə ancaq pak bir oğlan bəxş etmək üçün Rəbbinin elçisiyəm". (Məryəm surəsi, 19)**

**O zaman mələklər dedilər: "Ey Məryəm! Həqiqətən, Allah səni Öz tərəfindən, adı Məryəm oğlu İsa Məsih olan bir kəlmə ilə müjdələyir. O, bu dünyada və axirətdə şan-şöhrətli və Allaha yaxınlaşdırılmışlardan olacaqdır. (Ali İmran surəsi, 45)**

**Onların ardınca Məryəm oğlu İsanı özündən əvvəlki Tövratı təsdiqləyici olaraq göndərdik. Ona içərisində hidayət və nur olan, özündən əvvəlki Tövratı təsdiqləyən, müttəqilər üçün doğru yol göstəricisi və öyüd-nəsihət olan İncili verdik. (Maidə surəsi, 46)**

Bu əhəmiyyətli müjdəni alan hz. Məryəm, özünə heç bir insan toxunmadığı halda necə bir uşağı ola biləcəyini anlamaq üçün Cəbrayıla bu sualı vermişdir:

**Məryəm dedi: "Mənə bir insan toxunmadığı və özüm də zinakar olmadığım halda, necə mənim övladım ola bilər?" Mələk dedi: "Bu belədir, lakin Rəbbin buyurdu: "Bu, Mənim üçün asandır. Biz onu insanlar üçün bir möcüzə və Öz tərəfimizdən bir mərhəmət edəcəyik. Bu, hökmü verilmiş bir işdir"". Məryəm uşağa qaldı və bətnindəki ilə birlikdə gedib uzaq bir yerə çəkildi. (Məryəm surəsi, 20-22)**

**Məryəm dedi: "Ey Rəbbim! Mənə bir insan toxunmadığı bir halda necə övladım ola bilər?" Allah dedi: "Allah beləcə istədiyini yaradır. O, bir işin olmasını istədikdə ona ancaq "Ol!" - deyir, o da olur". (Ali İmran surəsi, 47)**

Cəbrayıl isə onun bu sualı qarşısında Allahın gücünün hər şeyə çatacağını, bir işə yalnız "Ol" deməsiylə onun dərhal olacağını söyləmişdir. Beləcə hz. Məryəm, özünə heç bir insan əli dəymədən, Allahın diləməsiylə hz. İsa (ə.s)-a hamilə qalmışdır. Onun hamiləliyi dünyadakı bütün səbəblərdən müstəqil olaraq, möcüzəvi şəkildə reallaşmışdır. Rəbbimizin bildirdiyi kimi, Cəbrayılın müjdəsinin ardından hz. Məryəm, kimsəsiz bir bölgəyə çəkilmişdir. Allah bu dövrdə də hz. Məryəmi hər yöndən dəstəkləmiş, bir insanın hamiləlik dövrü boyunca psixoloji və fiziki baxımdan ehtiyacı ola biləcək hər cür dəstək və imkanı onun üçün yaratmışdır. Onu kimsəsiz bir bölgəyə yerləşdirərək, bu vəziyyəti qavraya bilməyəcək insanların maddi və mənəvi baxımdan verəcəkləri hər cür narahatlığın da qarşısını almışdır.

**Xurma ağacının gövdəsini özünə tərəf silkələ ki, üstünə yetişmiş, təzə xurma tökülsün. Ye, iç, gözün aydın olsun!.. (Məryəm surəsi, 25-26)**

## Hz. İsa (ə.s)-ın doğumu

Allah, Quranda hz. İsa (ə.s)-ın doğumundan ölümünə qədər hər mövzuda, digər insanlardan çox fərqləndiyinə diqqət çəkmişdir. Hər şeydən əvvəl hz. İsa (ə.s), bilinən səbəblərin uzaq yaradılışla doğulmuş və atasız olaraq dünyaya gəlmişdir. Allah, o doğulmadan əvvəl, bir çox xüsusiyyətini və onu insanlar üçün bir Məsih olaraq göndərdiyini mələkləri vasitəsilə anası hz. Məryəmə bildirmişdir. Hz. İsa (ə.s)-ın bu seçilmiş xüsusiyyətlərindən biri, "Allahın sözü" olaraq bildirmiş olmasıdır:

**... Məryəm oğlu İsa Məsih ancaq Allahın elçisi, Onun Məryəmə göndərdiyi "Ol!" kəlməsi və Onun tərəfindən göndərilən bir ruhdur... (Nisa surəsi, 171)**

**O zaman mələklər dedilər: "Ey Məryəm! Həqiqətən, Allah səni Öz tərəfindən, adı Məryəm oğlu İsa Məsih olan bir kəlmə ilə müjdələyir. O, bu**

**dünyada və axirətdə şan-şöhrətli və Allaha yaxınlaşdırılmışlardan olacaqdır. (Ali İmran surəsi, 45)**

**İsmətini qoruyan Məryəmi də yada sal! Biz onun paltarının döşündəki kəsiyinə Öz ruhumuzdan Cəbrail vasitəsilə üfürdük, onu və onun oğlunu aləmlərə bir möcüzə etdik. (Ənbiya surəsi, 91)**

Quranda "Allahın sözü" ifadəsi yalnız hz. İsa (ə.s) üçün istifadə edilmişdir. Allah, hz. İsa (ə.s) hələ dünyaya gəlmədən onun adını bildirmişdir. Allah Özündən bir söz olaraq hz. İsa (ə.s)-a "İsa Məsih" adını vermişdir. Bu, hz. İsa (ə.s)-ın digər insanlardan daha fərqli yaradılışla yaradıldığının ifadələrindən biridir.

Allah, hamiləliyi və hz. İsa (ə.s)-ın doğumu mərhələsində hz. Məryəmi hər baxımdan ən gözəl şəkildə dəstəkləmiş, ona yol göstərmişdir. Allah qövmündən uzaqda, tək başına reallaşan bu əsas hadisədə, heç bir təcrübəsi olmayan və bir köməkçisi də olmayan hz. Məryəm üçün mühiti uyğun etmiş və doğum problemsiz bir şəkildə reallaşmışdır. Hz. Məryəm Allahın köməyi ilə bu çətin işi tək başına reallaşdırmışdır. Allah hz. Məryəmə olan bu nemətini Quranda belə bildirir:

**Doğuş sancıları onu bir xurma ağacının gövdəsinə söykənməyə vadar etdi. O dedi: "Kaş bundan əvvəl öləydim və bir dəfəlik unudulaydım!" Məryəmin aşağı tərəfindən (İsa və ya Cəbrail) onu səsləyib dedi: "Qəm yemə, Rəbbin sənin ayağının altından bir bulaq axıtdı. Xurma ağacının gövdəsini özünə tərəf silkələ ki, üstünə yetişmiş, təzə xurma tökülsün. Ye, iç, gözün aydın olsun! Əgər insanlardan kimisə görsən, de: "Mən Mərhəmətli Allaha oruc tutmağı nəzir etmişəm. Odur ki, bu gün heç kimlə danışmayacağam". (Məryəm surəsi, 23-26)**

Ayələrdə də görüldüyü kimi Allah vəhyi ilə hz. Məryəmə kömək etmiş, kədərlənməsini, alt tərəfdə onun üçün bir su arxı axıtdığını bildirmişdir. Ehtiyacı olduğu hər mövzuda etməsi lazım olan hər şeyi bildirərək ona kömək etmiş və doğumun ən yaxşı şəkildə reallaşmasını təmin etmişdir. Allahın hz. Məryəm üzərindəki rəhməti və qoruması doğum hadisəsində bütün açıqlığıyla

görülür. (Geniş məlumat üçün baxın: *Nümunə müsəlman qadın: Həzrəti Məryəm*, Harun Yəhya, mart 2003, Araşdırma nəşriyyat)

Hz. Məryəm, daha əvvəl getdiyi kimsəsiz bölgədən hz. İsa (ə.s) ilə birlikdə qövmünün yanına gəldiyində, onlar, yalnız zənn və təxmin üzərinə hz. Məryəmə qarşı bəzi çirkin böhtanlar atmışlar. Halbuki böhtanlar atan bu qövmün fərdləri, hz. Məryəmi tanıyır, həm onun, həm də İmran ailəsinin nə qədər Allaha bağlı, dindar və iffətlərinə düşkün insanlar olduqlarını çox yaxşı bilirdilər. Hz. İsa (ə.s)-ın dünyaya gəliş şəkli, Allahın hz. Məryəmin qövmünə göstərdiyi böyük möcüzə, Allahın varlığına bağlı əhəmiyyətli dəlildir. Ancaq hz. Məryəmin ətrafındakılar bu vəziyyəti anlamamış, onun haqqında həqiqətdən kənar bəzi ittihamlar edərək ona çirkin böhtan atmağa çalışmışlar:

**Məryəm körpəni qucağına alıb öz tayfasının yanına gətirdi. Onlar dedilər: "Ey Məryəm! Sən yaramaz (və ya görünməmiş) bir iş tutmusan. Ey Harunun bacısı! Atan pis kişi, anan da pozğun deyildi". (Məryəm surəsi, 27-28)**

Hz. Məryəm isə gerçəkdə bu çirkin iftira və böhtanlar ilə sınanırdı. Allaha son dərəcə bağlı və iffətinə düşkün bir insana bu yöndə böhtan atılması, Allahın onun üçün yaratdığı bir imtahandır. Bu vəziyyət qarşısında hz. Məryəm dərhal Allaha sığınmış və onların bu böhtanlarına qarşı Allahın ona kömək edəcəyini bilərək təvəkkül etmişdir. O köməyi və dəstəyi yalnız Allahdan gözləmiş və hər dəfə də Allahın geniş fəzli və rəhmətiylə qarşılıq görmüşdür.

Allah çətin vəziyyətdə olan bu seçilmiş quluna yenə bir möcüzəylə kömək etmiş və qövmü onunla danışmaq istədiyində susmasını və iftira atanlara hz. İsa (ə.s)-ı işarə etməsini bildirmişdir. Allahın hz. Mərymə bildirdiyi bu əmri Quranda bu şəkildə bildirilir:

**... Əgər insanlardan kimisə görsən, de: "Mən Mərhəmətli Allaha oruc tutmağı nəzir etmişəm. Odur ki, bu gün heç kimlə danışmayacağam". (Məryəm surəsi, 26)**

Allah, hz. Məryəmə hz. İsa (ə.s)-ın doğumunu müjdələdiyi zaman, onun hələ beşikdəki bir körpə ikən danışacağını da xəbər vermişdi. Məhz o möcüzə, bu çətin anında hz. Məryəmə Rəbbimizdən çox böyük dəstək olmuşdur:

**O, həm beşikdə ikən, həm də yetkin çağında insanlarla danışacaqdır və salehlərdən olacaqdır". (Ali İmran surəsi, 46)**

Allah hz. Məryəmin edəcəyi açıqlamanı möcüzəvi şəkildə hz. İsa (ə.s)-a etdirmişdir. Beləcə, həm hz. Məryəmi atılan böhtanlardan təmizə çıxarmış, həm də bir möcüzə ilə hz. İsa (ə.s)-ın elçiliyini İsrailoğullarına müjdələmişdir:

**Məryəm ona işarə etdi. Onlar dedilər: "Beşikdə olan körpə ilə necə danışaq?" Körpə dil açıb dedi: "Həqiqətən də, mən Allahın quluyam! O mənə Kitab verdi və məni peyğəmbər etdi. Harada oluramsa olum, məni mübarək etdi və nə qədər ki sağam, mənə namaz qılıb zəkat verməyi əmr etdi. Həm də məni anama qarşı qayğıkeş etdi; məni lovğa və bədbəxt etmədi. Doğulduğum gün də, öləcəyim gün də, yenidən dirildiləcəyim gün də mənə salam olsun!" (Məryəm surəsi, 29-33)**

Hz. İsa (ə.s) Allahın qulu olduğunu, ona kitab verildiyini və yetkin olduqda insanlara təbliğ etməklə vəzifəli peyğəmbər olduğunu, Allah üçün namaz qılıb zəkat verməsi lazım olduğunu, anası hz. Məryəmə hörmətli olub sözünü dinləməsi lazım olduğunu, öləcəyini və qiyamət günü dirildiləcəyini də bilir.

Bu vəziyyət İsrailoğullarına fövqəladə bir gerçəklə qarşı-qarşıya olduqlarını Məsihin dünyaya gəldiyini sübut etmişdir. Allah bu şəkildə bildirir:

**İsmətini qoruyan Məryəmi də yada sal! Biz onun paltarının döşündəki kəsiyinə Öz ruhumuzdan Cəbrail vasitəsilə üfürdük, onu və onun oğlunu aləmlərə bir möcüzə etdik. (Ənbiya surəsi, 91)**

Ayələrdə İsrailoğullarına bir xəbər də verilir. Özlərinə göstərilən bütün möcüzəvi hadisələrə baxmayaraq, hz. Məryəmə böhtan atmağı davam etdirən kəslər üçün böyük bir əzab olduğunu. (Nisa surəsi, 156-157)

# Hz. İsa (ə.s)-ın həyatı

Hz. İsa (ə.s), tarixi qaynaqlara görə, bundan təxminən 2000 il əvvəl yaşamış, Allahın dünyada və axirətdə seçdiyi elçisidir. Matta İncilində hz. İsa (ə.s)-ın I Herod və rejim dəyişikliyi dövründə (e.ə. 4-cü il), Luka İncilində isə İmperator Oktavian Avqust dövründə (6-cı il), Yəhudeyadakı siyahıyaalma əsnasında doğulduğu bildirilir. Bu məlumatları təsdiqləmək mümkün deyil. Ancaq müxtəlif qaynaqları araşdıran mütəxəssislər, hz. İsa (ə.s)-ın e.ə. 7-6-cı illəri arasında doğulduğunu təxmin edilir.

Allahın üstün xüsusiyyətlərlə lütf etdiyi, sonsuz cənnət yurduyla müjdələdiyi bu dəyərli elçisinin gətirdiyi haqq din bu gün ad olaraq yer üzündə olsa da, həqiqətdə degenerasiyaya uğramış və əslindən dəyişdirilmişdir. Allahın hz. İsa (ə.s)-a vəhy etdiyi İncil də eyni şəkildə ad olaraq mövcuddur, ancaq əsli ortada yoxdur. Xristian qaynaqları müxtəlif pozulmalara məruz qalmış və təhrif edilmişdir. Bu səbəbdən bu gün hz. İsa (ə.s) ilə əlaqədar gerçək məlumatları bu qaynaqlardan təmin etməmiz mümkün deyil. Hz. İsa (ə.s) haqqında həqiqəti və qəti məlumatı əldə edə biləcəyimiz yeganə qaynaq, Allahın qiyamətə qədər qoruyacağını vəd etdiyi Quran və Peyğəmbərimiz (s.ə.v)-in hədisləridir. Quranda, hz. İsa (ə.s)-ın doğumu, həyatı, bu müddət ərzində qarşılaşdığı hadisələrdən nümunələr, ətrafındakı insanların vəziyyəti və daha bir çox mövzudan bəhs edilmişdir. Hz. İsa (ə.s)-ın yəhudilərə necə təbliğ etdiyi də bir çox örnəklə xəbər verilmişdir. Ali İmran surəsində Rəbbimiz belə buyurur:

**Məndən əvvəl nazil olmuş Tövratı təsdiqləyici kimi və sizə haram edilmiş bəzi şeyləri halal etmək üçün göndərildim. Mən sizə Rəbbinizdən bir dəlil gətirdim. Allahdan qorxun və mənə itaət edin. Həqiqətən, Allah mənim də Rəbbim, sizin də Rəbbinizdir. Ona ibadət edin! Çünki bu, düz yoldur". (Ali İmran surəsi, 50-51)**

Hz. İsa (ə.s)-ın bu dəvətinə yəhudilərdən çoxu razılıq etməmiş, ancaq az saydakı həvari ona tabe olmuşdur. Quranda bu səmimi inananların varlığı belə bildirilir:

**İsa onlardakı küfrü hiss etdikdə dedi: "Allah yolunda kimlər mənə yardımçı olacaq?" Həvarilər dedilər: "Bizik Allahın dininin yardımçıları! Biz Allaha iman gətirdik. Sən də şahid ol ki, biz müsəlmanlarıq! Ey Rəbbimiz! Biz sənin nazil etdiyinə iman gətirdik və göndərdiyin elçinin ardınca getdik. Bizi də şahidlərlə bir yerdə yaz!" (Ali İmran surəsi, 52-53)**

Əhdi-Cədidə görə hz. İsa (ə.s), yanında bu 12 şagirdi olduğu halda Fələstinin dörd bir tərəfini gəzmişdir. İnsanları Allaha iman etməyə dəvət etmək üçün etdiyi bu səfərləri əsnasında Allahın diləməsiylə müxtəlif möcüzələr reallaşdırmışdır. Xəstə və şikəst insanları, cüzam xəstəliyinə tutulanları sağaltmış, doğuşdan kor olanların gözlərini açmış və ölüləri diriltmişdir. Bu möcüzələr Quran ayələrində bu şəkildə xəbər verilir:

**... "Mən sizə Rəbbinizdən elçi olduğumu təsdiqləyən bir əlamət gətirdim. Mən sizin üçün palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürərəm, o da Allahın izni ilə quş olar. Allahın izni ilə anadangəlmə koru, cüzam xəstəliyinə tutulanı sağaldar və ölüləri dirildərəm. Evlərinizdə yediyiniz və saxladığınız şeyləri sizə xəbər verərəm. Əgər möminsinizsə, şübhəsiz ki, bunda sizin üçün dəlil vardır." (Ali İmran surəsi, 49)**

**Allah deyəcəkdir: "Ey Məryəm oğlu İsa! Sənə və anana olan nemətimi xatırla! O zaman səni müqəddəs ruhla qüvvətləndirmişdim. Sən həm beşikdə ikən, həm də yetkin çağında insanlarla danışırdın. Sənə yazmağı, hikməti, Tövratı və İncili öyrətmişdim. Sən Mənim iznimlə palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürürdün, o da Mənim iznimlə quş olurdu. Sən Mənim iznimlə anadangəlmə koru və cüzam xəstəliyinə tutulanı sağaldır və Mənim iznimlə ölüləri dirildirdin. Sən İsrail oğullarının yanına açıq-aydın dəlillərlə gəldikdə Mən onları səndən dəf etmişdim. Onlardan kafir olanlar isə demişdilər: "Bu, açıq-aydın sehrdən başqa bir şey deyildir". (Maidə surəsi, 110)**

Hz. İsa (ə.s), Allahın təqdiri ilə, böyük möcüzələr göstərmiş, insanlar onun göstərdiyi bu möcüzələrdən çox təsirlənmişlər. Ancaq hz. İsa (ə.s) daim, bu möcüzələrin Allahın icazəsiylə reallaşdığını ifadə etmiş, İncil izahlarında isə sağaltdığı insanlara tez-tez "imanın səni qurtardı" demişdir. Necə ki, xalq da, Matta İncilinə görə, hz. İsa (ə.s)-ın möcüzələri qarşısında Allahı ucaltmışlar:

*İsa o bölgədən ayrılıb Qaliley gölünün sahilindən keçərək dağa çıxıb oturdu. Yanına böyük bir camaat gəldi. Aralarında iflic, kor, çolaq, dilsiz və daha bir çox xəstə vardı. Xəstələri onun ayaqlarının dibinə yaxınlaşdı. O da onları sağaltdı. Xalq, dilsizlərin danışdığını, çolaqların möhkəm olduğunu, korların gördüyünü, ifliclərin yeridiyini görüncə təəccübləndi və İsrailin Tanrısını ucaltdı. (Matta, 15: 29-31)*

Artan maneələrə baxmayaraq, xüsusilə də, təzyiq və zülm altında yaşayan xalqın arasında, hz. İsa (ə.s)-a inananların sayı artmağa başlamışdır. Bu dövrdə hz. İsa (ə.s) və həvariləri bütün ətraf qəsəbələri və şəhərləri gəzmişlər. Bu vaxt rahiblər və yazıçılar, illərdir davam etdirdikləri ənənələrinin batil istiqamətlərini özlərinə izah edən, qurduqları nizamdakı sapmaları xatırladan, özlərini yalnız Allaha iman edib, Allah üçün yaşamağa çağıran hz. İsa (ə.s)-a qarşı tələlər hazırlamağa başlamışlar. (Luka, 22: 1-2; Yuhanna, 11: 48). Ancaq Allah bu tələlərdən hz. İsa (ə.s)-ı qorumuşdur.

Quranda hz. İsa (ə.s)-ın Allah Qatına alındığı və bir bənzərinin, zənn edilərək öldürüldüyü xəbər verilmişdir. Hz. İsa (ə.s), bütün peyğəmbərlərin etdiyi kimi, qövmünü, Allaha iman etməyə, könüldən təslim olub Allahın məmnuniyyətini qazanmaq üçün yaşamağa, günahlardan və pisliklərdən çəkinməyə, saleh əməllər görməyə dəvət etmişdir. Onlara dünya həyatının keçiciliyini və ölümün yaxınlığını xatırlatmış, axirət günündə hər insanın bütün etdikləriylə hesaba çəkiləcəyini bildirmişdir. İnsanları yalnız Allaha ibadət etməyə və yalnız Allahdan qorxub çəkinməyə çağırmışdır. İncildə də bu mövzularla əlaqədar çox sayda öyüdə və məsəl adı verilən tərbiyəvi hekayələrə rast gəlmək mümkündür. Hz. İsa (ə.s), İncildə yer alan ifadəylə, "imanı zəif olanlar"a qarşı nəsihətlər verir, insanlara "Allahın üstünlüyünün" yaxın olduğunu müjdələyir və onları Allahdan bağışlanma diləməyə dəvət edir. Bu hakimiyyət, yəhudilərin Məsihin gəlişiylə birlikdə qurulacağını ümid etdikləri, İsrailoğullarının imanına və qurtuluşuna vəsilə olmasını gözlədikləri hakimiyyətdir.

Hz. İsa (ə.s), hz. Musa (ə.s)-a endiriləni tamamlamağa gəldiyini bildirmiş; yəni gerçək Tövratın hökmlərinə bağlı qalmış və bəzi yəhudiləri də, bu hökmlərdən uzaqlaşdıqları ya da bu hökmləri səmimiyyətsiz bir şəkildə, nümayiş məqsədiylə tətbiq etdikləri üçün xəbərdar etmişdir. Əhdi-Cədidə görə, ona qarşı çıxan bəzi yəhudilərə: *"Musaya iman etmiş olsaydınız, mənə də*

*iman edərdiniz, çünki o mənim haqqımda yazmışdır." demişdir. (Yuhanna, 5: 46)* Hz. İsa (ə.s) insanları Tövrata uymağa dəvət etmişdir. Matta İncilində hz. İsa (ə.s)-ın hz. Musa (ə.s)-a endiriləni tamamlamağa gəldiyi belə xəbər verilir:

*... Mən etibarsız etməyə deyil, tamamlamağa gəldim... (Matta, 5: 17)*

*Bu səbəblə, bu buyruqların ən kiçiklərindən birini kim tapdalayar və başqalarına elə etməyi öyrətsə, Allah Qatında ən kiçik sayılacaq. Amma bu buyruqları kim yerinə yetirər və başqalarına öyrətsə, Allah Qatında böyük sayılacaq. (Matta, 5: 19)*

Quranda da hz. İsa (ə.s) üçün bu şəkildə xəbər verilir:

**Məndən əvvəl nazil olmuş Tövratı təsdiqləyici kimi və sizə haram edilmiş bəzi şeyləri halal etmək üçün göndərildim. Mən sizə Rəbbinizdən bir dəlil gətirdim. Allahdan qorxun və mənə itaət edin. (Ali İmran surəsi, 50)**

## Hz. İsa (ə.s)-ın mübarizəsi

Əvvəlki hissələrdə də gördüyümüz kimi, hz. İsa (ə.s)-ın gəldiyi dövrdə, yəhudi cəmiyyətində dini fərqli şəkillərdə izah edən bir çox məzhəb var idi. Allahın hz. Musa (ə.s)-a vəhy etdiyi haqq dindən uzaqlaşılmış, batil ənənələr və yanlış inanclar törədilmişdi. Bunlara əlavə olaraq, bütpərəst Helen mədəniyyəti də insanlar arasında yayılmış və təşviq edilirdi. Bu mədəniyyətin təsiri altında olan bəzi yəhudi məzhəbləri isə sahib olduqları tövhid inancının yerinə, bu azğın anlayışın simvollarını, heykəllərini qoymağa başlamışdılar.

Anarxiya içindəki cəmiyyətə hidayət öndəri olaraq göndərilən hz. İsa (ə.s) aralarında olduğu müddət ərzində çox müxtəlif qövmlərə mübarizə etmişdir. Quran ayələrindən hz. İsa (ə.s)-ın, dinləri mövzusunda ixtilafa düşənlərə yol göstərdiyi aydın olur. İncildə yer alan bəzi təriflərdən də, hz. İsa (ə.s)-ın əvvəlcə saxta din adamlarını, Allaha ortaq qoşan müşrik qrupları, dindar görünərək xalqı aldadanları etdiklərindən imtina etməyə, səmimiyyətlə Allaha iman

etməyə dəvət etdiyi aydındır. İncildə tez-tez adı çəkilən iki qrup fariseylər və səduqilər bu baxımdan əhəmiyyətlidir. Müxtəlif mövzularda dərin anlaşılmazlıqlar içində olan bu iki qrupun bəzi mənsublarının ortaq xüsusiyyətləri isə, Allahın hz. İsa (ə.s) vasitəsilə insanlara göndərdiyi vəhydən şiddətlə narahat olmalarıdır. Çünki, hz. İsa (ə.s)-ın təbliğ etdiyi haqq dinə görə həm materialist bir dünya görüşünə sahib olan səduqilər, həm də səmimiyyətini itirərək xurafata yönələn fariseylər səhv yolda idi. Bu qruplar, içində olduqları vəziyyəti anladıqlarında dərhal hz. İsa (ə.s)-a qarşı çıxmışlar. Allah Quranda bu şəkildə bildirir:

**İsa aydın dəlillərlə gəldiyi zaman dedi: “Mən sizə hikmət gətirmişəm və barəsində ziddiyyətə düşdüyünüz bəzi şeyləri izah etmək üçün gəlmişəm. Allahdan qorxun və mənə itaət edin! (Zuxruf surəsi, 63)**

Həm fariseylər, həm də səduqilərin böyük qismi qurulan nizamdan mənfəət təmin edirdilər. Bu səbəblə də böyük qismi hz. İsa (ə.s)-a itaət etmirdilər. Yəhudi cəmiyyəti üzərində böyük nüfuza sahib idilər. Din adamı olaraq hər kəsdən böyük hörmət görürdülər. Yaratdıqları saxta sistem, onlara status və pul qazandıran bir təşkilat halına gəlmişdi. Ölkəni idarə edən Roma qubernatoru ilə də möhkəm əməkdaşlığa girmişdilər. Xüsusilə də səduqilərin əhəmiyyətli bir qismi Roma ilə İsrail xalqı arasındakı gərginliyi azaldır, buna qarşılıq Romanın özlərinə təmin etdiyi imtiyazlardan faydalanırdılar. Bu şərtlər nəzərə alındığında, hz. İsa (ə.s)-ın təbliğinin niyə bəzi din adamlarını narahat etdiyini anlamaq çox asandır. Çünki hz. İsa (ə.s), bütün peyğəmbərlər kimi, pozulmuş, hər cür əxlaqsızlığı qanuni görən “qurulu nizamı” hədəf almışdı. İnsanlardan, etdikləri bütün ədalətsizlikləri, haqsızlıqları, əxlaqsızlıqları və bütpərəst dinlərini tərk etmələrini yalnız Allah üçün yaşamalarını istəyirdi. Hz. İsa (ə.s) insanlara Allah qorxusunu, Allahı sevməyi, Allaha təslim olmağı nəsihət edirdi. Batil qaydalardan, fanatik tətbiqlərdən uzaqlaşmalarını, yalnız Allaha ibadət edib etdikləri hər işdə Allaha yönəlmələrini söyləyirdi. Göstərdiyi möcüzələr onun, Allahın aləmlər üzərinə seçib bəyəndiyi, elm və qüvvət olaraq dəstəklədiyi, çox dəyərli peyğəmbər olduğunu açıqca ortaya qoyurdu. Onun iman dərinliyi, yüksək əxlaqı, üstün qavrayışı və hikmətli izahları insanlarda böyük heyranlıq oyandırırdı.

Əhdi-Cədidə görə, hz. İsa (ə.s), təbliğ edərkən bir tərəfdən də şiddətli zülm görən xalqa qurtuluşun yaxınlaşdığını, yaxında Allahın hakimiyyətinin

qurulacağını söyləyərək onların içindəki inancı canlandırmışdır. Hz. İsanın Hz. Davudun soyundan gəldiyi xəbəri də xalqda yayılmış və onun gözlənilən Məsih olduğu inancı dalğa-dalğa yayılmışdır. (Matta, 9: 28-35) Məhz bütün bunlar qurulu nizamdan mənfəət təmin edən fanatik din adamlarını və Romanın gətirdiyi bütpərəst mədəniyyəti qəbul edənləri narahat etmişdir.

Əhdi-Cədidə görə, bu kütlələr, hz. İsa (ə.s)-ın təbliğini təsirsiz etmək üçün hər fürsəti qiymətləndirmiş, amma hər səfərində uduzmuşlar. Hz. İsa (ə.s)-ın, onların iddialarını tamamilə çürüdən cavablar verməsi və hikmətli açıqlamalar etməsi bəzi sözdə din adamlarını olduqca narahat etmişdir. Onsuz da onları tələ qurmağa məcbur edən səbəblərdən biri də, hz. İsa (ə.s)-ın özləri haqqında dediyi olmuşdur. Hz. İsa, Luka İncilinə görə, xalqın qarşısında onların saxtakarlıqlarını bu şəkildə açıqlamışdır:

*İlahiyyatçılardan özünüzü gözləyin. Onlar uzun paltarlarda gəzməyi xoşlayar, bazar meydanlarında salam almağı və sinaqoqlarda baş kürsüləri, ziyafətlərdə yuxarı başı tutmağı sevərlər. Onlar dul qadınların evlərini yeyib-dağıdar və özlərini göstərmək üçün uzun-uzadı dua edərlər. Bu adamların cəzası daha ağır olacaq. (Luka, 20: 46-47)*

Bəzi yəhudi rahibləri Tövrat hökmlərini dəyişdirmişlər, öz mənfəətlərinə uyğun yeni hökmlər əlavə etmişdilər. Hz. İsa (ə.s) yəhudi qövmünə verdiyi öyüdlərlə bu saxta hökmləri ortadan qaldırırdı. Hz. İsa (ə.s)-ın təmizləməyə çalışdığı şey, hz. Musa (ə.s)-a vəhy edilən qanunları ört-bas edən batil ənənələr, xurafatlar, insanların yaratdığı qadağalar idi. Mark İncilinə görə, fariseylərlə danışarkən onları xüsusilə bu baxımdan xəbərdar etmişdir:

*İsa onlara (fariseylərə və din adamlarına) belə cavab verdi: "...Siz Allah buyruğunu bir kənara buraxmış, insan ənənəsinə tabe olursuz... Beləcə nəsildən-nəsilə keçirdiyiniz ənənələrlə Allahın sözünü etibarsız edirsiniz. Buna bənzər daha bir çox şey edirsiniz." (Mark, 7: 6-13)*

Fariseylər, qazanclarının onda birini Allaha həsr etmələri lazım olduğuna inanar və bu qaydaya da riayət edirdilər Ancaq bunu bir ibadətdən çox, ənənə şəklinə gətirmişdilər. Hz. İsa (ə.s), Luka İncilinə görə, onları belə xəbərdar etmişdir:

*"Amma vay halınıza, ey fariseylər! Siz nanənin, sədəf otunun və hər növ tərəvəzin muzdunu verirsiniz də, ədaləti və Allah sevgisini laqeydlik edirsiniz. Muzd verməyə laqeyd yanaşmadan əsas bunları yerinə yetirməniz lazım idi. Vay halınıza, ey fariseylər! Sinaqoqlarda ən seçmə yerlərə qurulmağa, meydanlarda sizə salam verilməsinə huşunu itirərsiniz. Vay halınıza! İnsanların, fərqində olmadan üzərlərində gəzişdiyi naməlum məzarlara bənzəyirsiniz." (Luka, 11: 42-44)*

*... "Sizin də vay halınıza, ey Yasa mütəxəssisləri!" dedi. "İnsanlara daşınması çətin yüklər yükləyirsiniz, özünüz isə bu yükləri qaldırmaq üçün tək bir barmağınızı tərpətməzsiniz." (Luka, 11: 46)*

*Vay halınıza!.. Vay halınıza, ey Yasa mütəxəssisləri! Elm qapısının açarını alıb apardınız. Özünüz bu qapıdan girmədiniz, girmək istəyənlərə də mane oldunuz." (Luka, 11: 52)*

*Bu cür xəbərdarlıqlar və etdikləri əxlaqsızlıqların bir-bir ortaya çıxarılması saxta din adamlarının hz. İsa (ə.s)-a olan ağılsızca düşmənliklərini daha da artırmışdır. Necə ki, Lukaya görə, hz. İsa (ə.s)-ın yuxarıdakı sözlərindən sonra sözdə din alimləriylə fariseylər onu tələyə salmaq üçün fürsət axtarmağa başlamışlar. (Luka, 11: 53-54)*

Hz. İsa (ə.s), Quranda ifadə edildiyi kimi İsrailoğullarını Allaha könüldən iman etməyə və hz. Musa (ə.s)-ın gətirdiyi şəriətə geri dönməyə dəvət etmişdir. Hz. İsa (ə.s)-ın bəzi yəhudilər haqqında Tövratın İşaya kitabından götürülərək söylədiyi aşağıdakı sözlər də, Allahın Quranda inkar edənlər üçün bildirdiyi "... **Ürəkləri vardır bununla qavrayıb-anlamazlar, gözləri vardır bununla görməzlər, qulaqları vardır bununla eşitməzlər..." (Əraf surəsi, 179)** ayəsi ilə böyük bir bənzərlik göstərir.

*"Çox dinləyəcəksiniz, amma bir şey anlamayacaqsınız. Çox görəcəksiniz amma bir şey qavramayacaqsınız. Çünki bu xalqın ürəyi yağ bağladı, qulaqları eşitməz oldu. Gözlərini yumdular. Gözləriylə görməsinlər, qulaqlarıyla*

*eşitməsinlər, ürəkləriylə anlamasınlar deyə. Geri dönməsinlər ki, mən onlara kömək etməyim." (Matta, 13: 14-15)*

Peyğəmbərlər, Allahın onlara verdiyi məsuliyyəti ən gözəl şəkildə yerinə yetirmiş, insanları hidayət yoluna dəvət etmək üçün əllərindəki imkanları və bütün güclərini sonuna qədər istifadə etmişlər. Hz. İsa (ə.s) da ona qurulan bütün tələlər, atılan böhtanlar və təşkil edilən hücumlar qarşısında çox üstün səbir göstərmiş, Allaha təvəkkül edib təbliğinə davam etmişdir. O, yanında az sayda köməkçisi olmasına baxmayaraq həmişə qalib gələn tərəf olmuşdur. Bu təbliğ əsnasında dini əslinə çevirmək, xurafatlardan və batil tətbiqlərdən təmizləmək üçün bir çox üsula müraciət etmişdir. Rəbbimizin ona bəxş etdiyi üstün qavrayış və hikmət sayəsində İsrailoğullarına qarşı son dərəcə təsir edici danışıqlar etmiş, hikmətli nümunələr vermişdir.

Nəticə olaraq hz. İsa (ə.s) insanları yalnız Allaha imana dəvət etmiş, din əxlaqının hakim olacağını müjdələmiş, batil inanclarla, xurafatlarla və bütpərəstlərlə mübarizə etmiş, dünyanın bir imtahan yeri olduğunu nümunələrlə açıqlamış, qövmün yanlış əxlaq anlayışını düzəltmək üçün böyük səy göstərmiş, üstün əxlaqıyla da ətrafındakı insanlara ən gözəl nümunə olmuşdur. Ancaq bütün bu fəaliyyətlər, düşmənlərinin daha sərt davranmalarına, onu öldürmək üçün böyük tələ qurmalarına gətirib çıxarmışdır.

## Hz. İsa (ə.s)-ın üstün əxlaq xüsusiyyətləri

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində hz. İsa (ə.s) ilə əlaqədar bir çox əhəmiyyətli xəbər verilmişdir. Hədislərdə bu mübarək insanın xüsusiyyətləri haqqında da bəzi məlumatlar var. Buna görə, hz. İsa (ə.s) orta boylu, qırmızıya çalan ağ bədənli, düz saçlı, fövqəladə gözəlliyə sahib bir kimsədir. Saçları çiyinlərinə qədər düşürdü. Kürəyinə yun paltar, ayağına ağac qabığından düzəlmiş bir səndəl geyirdi. Hz. İsa (ə.s) dünyadan üz çevirər, axirəti istəyər, Allaha ibadətlə vaxt keçirərdi.[2] Hər görənin heyran qalacağı gözəllikdəki bu mübarək insan bəzi hədislərdə bu şəkildə təsvir edilir:

*"Mən bu gecə özümü yuxumda Kəbədə gördüm. Qəflətən əsmər bir adam gördüm. Sanki o, əsmər insanlardan görülənlərdən ən gözəli, saçı iki çiyini arasına düşürdü. Sanki daranmış və təmizlənmiş başı su damlayırdı. İki əlini iki adamın iki çiyninə qoyaraq Beyti təvaf edirdi. "Bu kimdir?" deyə soruşdum. Onlar: "Bu Məryəmin oğlu Məsihdir, dedilər."*

*"... O halda, onu gördükdə tanıyacaqsınız. O, orta boylu, ağ və çəhrayı bədənli bir adam olub, sarı geyimli paltar geyinəcək..."*[3]

**Biz onları Axirət yurdunu sadiq ürəklə andıqlarına görə seçdik. Həqiqətən, onlar Bizim yanımızda seçilmiş ən yaxşı kimsələrdəndirlər. (Sad surəsi, 46-47)**

Allahın seçib göndərdiyi hər peyğəmbər kimi, hz. İsa (ə.s)-da bütün üstün əxlaq xüsusiyyətləri ən gözəl şəkildə təcəlli edir. Onu digər insanlardan ayıran ən diqqətə çarpan xüsusiyyətlərindən biri, insanların görər görməz heyrətlənəcəkləri yüksək əxlaqı və şəxsiyyətidir. Hz. İsa (ə.s), Allaha olan etibarı, təvəkkülü və imanı ilə son dərəcə qərarlı, cəsarətli, cəmiyyətin təsiri altında qalmayan, əksinə hər kəsə təsir edən, güclü insandır. Necə ki, bütün peyğəmbərlərin sahib olduqları bu üstünlük ayələrdə bu şəkildə bildirilmişdir:

**Bunlar, öz qövmünə qarşı İbrahimə verdiyimiz dəlillərimizdir. Biz istədiyimiz kəsi dərəcə-dərəcə ucaldarıq... (Ənam surəsi, 83)**

**Biz ona İshaqı və Yaqubu bəxş etdik. Hər ikisini doğru yola yönəltdik. Bundan əvvəl Nuhu da doğru yola yönəltmişdik. Onun nəslindən olan Davudu, Süleymanı, Əyyubu, Yusifi, Musanı və Harunu da. Biz yaxşı əməl sahiblərini belə mükafatlandırırıq. Zəkəriyyanı, Yəhyanı, İsanı və İlyası da. Hamısı əməlisalehlərdən idilər. İsmaili, Əlyəsəni, Yunisi və Lutu da. Hamısını aləmlərdən üstün etdik. Onların atalarından, nəsillərindən və qardaşlarından bəzilərini də. Onları seçdik və düz yola yönəltdik. Bu, Allahın hidayətidir. Bununla O, qullarından istədiyi şəxsi doğru yola yönəldir. Əgər Ona şərik qoşsaydılar, əlbəttə, etdikləri əməllər puç olardı. (Ənam surəsi, 84-88)**

Digər peyğəmbərlər kimi hz. İsa (ə.s) da, ədalətdən ayrılmayan, təvazökar, şəfqətli, səmimi, dürüst, fədakar bir insan olaraq, Allahın seçdiyi peyğəmbərlərdəndir. Allah bir ayədə hz. İsa (as) üçün belə buyurur:

**Biz o elçilərin bəzisini digərlərindən üstün etdik. Onlardan bəzisi ilə Allah danışmış, bəzisini isə dərəcələrə yüksəltmişdir. Biz Məryəm oğlu İsaya açıq-aydın dəlillər verdik və onu müqəddəs Ruh (Cəbrail) ilə qüvvətləndirdik... (Bəqərə surəsi, 253)**

Hz. İsa (ə.s)-ın həyatına baxıldığında bu üstün əxlaq xüsusiyyətlərini görmək mümkündür. Hz. İsa (ə.s) gerçək dini insanlara izah edən bir hidayət öndəridir. O həm Allahın bütün əmr və tövsiyələrinə ən çox riayət edən, həm də ən doğrusunu izah edərək xalqı xurafatlardan təmizləyən bir yol göstəricidir. Quranda hz. İsa (ə.s)-ın, Allahın bildirdiyi ibadətləri və digər əxlaqi xüsusiyyətləri həssaslıqla tətbiq etdiyi bu şəkildə ifadə edilir:

**Körpə dil açıb dedi: "Həqiqətən də, mən Allahın quluyam! O mənə Kitab verdi və məni peyğəmbər etdi. Harada oluramsa olum, məni mübarək etdi və nə qədər ki sağam, mənə namaz qılıb zəkat verməyi əmr etdi. Həm də məni anama qarşı qayğıkeş etdi; məni lovğa və bədbəxt etmədi. (Məryəm surəsi, 30-32)**

Hz. İsa (ə.s) yer üzündə olduğu müddət ərzində, doğrunu səhvdən ayırma, hikmətli və təsirli söz söyləmək kimi xüsusiyyətləri ən gözəl nümunələrlə ortaya qoymuşdur. Düşmənlərinin onu öz ağılsız fikirlərinə görə guya hörmətdən salmaq üçün pis niyyətlə verdikləri suallara ən hikmətli və ən ağıllı cavablar vermiş, tək bir örnəklə düşmənlərinin bütün cəhdlərini ortadan qaldırmışdır. O, qövmünün rəftarı qarşısında hər vaxt təvəkküllü olmuş, Allaha olan güclü imanı və ixlası ona güc vermiş, Allahın varlığını ən təsirli yollarla izah etmişdir.

Hz. İsa (ə.s) digər peyğəmbərlər kimi təbliğində açıq, sadə və xalqın anlayacağı bir dil istifadə etmişdir. Verdiyi hikmətli nümunələr insanların vicdanlarını dərhal hərəkətə keçirmiş, onları dərin düşünməyə, Allahın razı

olacağı kimi davranmağa təşviq etmişdir. Hz. İsa (ə.s)-ın təbliğindən, onun Allaha olan sevgisi, coşğulu imanı və Allahın əmrlərini tətbiq etməkdə göstərdiyi vasvasılığı açıq bir şəkildə aydın olur. İzlədiyi təbliğ üsulu, onun Allahın seçib bəyəndiyi və insanlara üstün etdiyi, müqəddəs bir insan olduğunu bizlərə ən gözəl şəkildə göstərir.

## Hz. İsa (ə.s)-ın təbliği

Doğumundan Allahın Qatına alınmasına qədər bütün həyatı Rəbbimizin təqdir etdiyi möcüzələrlə dolu olan hz. İsa (ə.s)-ın yaşadığı və Allahın icazəsiylə reallaşdırdığı möcüzələr, Quranda bu şəkildə xəbər verilir:

**Allah deyəcəkdir: “Ey Məryəm oğlu İsa! Sənə və anana olan nemətimi xatırla! O zaman səni müqəddəs ruhla qüvvətləndirmişdim. Sən həm beşikdə ikən, həm də yetkin çağında insanlarla danışırdın. Sənə yazmağı, hikməti, Tövratı və İncili öyrətmişdim.”... (Maidə surəsi, 110)**

**Allah onu İsrail oğullarına bir elçi edəcəkdir. O deyəcəkdir: “Mən sizə Rəbbinizdən elçi olduğumu təsdiqləyən bir əlamət gətirdim. Mən sizin üçün palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürərəm, o da Allahın izni ilə quş olar. Allahın izni ilə anadangəlmə koru, cüzam xəstəliyinə tutulanı sağaldar və ölüləri dirildərəm. Evlərinizdə yediyiniz və saxladığınız şeyləri sizə xəbər verərəm. Əgər möminsinizsə, şübhəsiz ki, bunda sizin üçün dəlil vardır. (Ali İmran surəsi, 49)**

Hz. İsa (ə.s)-ın Allahın diləməsiylə reallaşdırdığı, ayələrdə bildirilən möcüzələri;

- atasız olaraq doğulması,
- beşikdə ikən danışması,
- Allahın müqəddəs kitablarını, Tövratı, İncili və Quranı bilməsi,
- palçıqdan quş formasında bir şey düzəldib, nəfəsiylə canlandırıb uçurması,

- doğuşdan kor olanı, cüzam xəstəliyini sağaltması,
- ölünü diriltməsi,
- insanların yediklərini və yığıb saxladıqlarını xəbər verməsi,
- özündən sonra gələcək müqəddəs insanı, peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-i "Əhməd" adıyla xəbər verməsi sayıla bilər.

Hz. İsa (ə.s)-ın göstərdiyi bütün bu möcüzələrə və Allahın vəhyi ilə etdiyi təbliğə baxmayaraq qövmün böyük hissəsi inkarlarını davam etdirmişdir. Quranda nümunələri verilmiş digər qövmlər kimi, o dövrün inkarçıları da (böyük ağılsızlıq edərək) hz. İsa (ə.s)-ın etdiklərinin sehr olduğunu söyləyərək, onu cadugərliklə ittiham etmişlər:

**Bir zaman Məryəm oğlu İsa demişdi: "Ey İsrail oğulları! Həqiqətən, mən Allahın sizə göndərdiyi, məndən əvvəl nazil edilmiş Tövratı təsdiqləyən və məndən sonra gələcək Əhməd adlı peyğəmbərlə sizi müjdələyən bir elçisiyəm!" Allahın elçisi onlara açıq-aydın dəlillər gətirdikdə onlar: "Bu, aşkar bir sehrdir!" - dedilər. (Saff surəsi, 6)**

Yenə Quranda bildirildiyi kimi hz. İsa (ə.s) yəhudiliyi ortadan qaldırmaq üçün deyil, bu şəriətin əslində doğru olduğunu vurğulamaq və içinə əlavə olunmuş xurafatları təmizləyərək, dini əslinə çevirmək üçün göndərilmişdir. Bundan əlavə Allah onu, daha əvvəl araşdırdığımız müxtəlif yəhudi təriqətləri arasındakı mübahisələrə aydınlıq gətirməklə də vəzifələndirilmişdir. Quranda belə bildirilir:

**Məndən əvvəl nazil olmuş Tövratı təsdiqləyici kimi və sizə haram edilmiş bəzi şeyləri halal etmək üçün göndərildim. Mən sizə Rəbbinizdən bir dəlil gətirdim. Allahdan qorxun və mənə itaət edin. (Ali İmran surəsi, 50)**

**İsa aydın dəlillərlə gəldiyi zaman dedi: "Mən sizə hikmət gətirmişəm və barəsində ziddiyyətə düşdüyünüz bəzi şeyləri izah etmək üçün gəlmişəm. Allahdan qorxun və mənə itaət edin! (Zuxruf surəsi, 63)**

Hz. İsa (ə.s) Tövratdakı imani mövzuları təsdiqləmiş, lakin Allahın insanlara bir yol göstərici və öyüd olaraq göndərdiyi yeni kitabını; İncili gətirmişdir:

**Onların ardınca Məryəm oğlu İsanı özündən əvvəlki Tövratı təsdiqləyici olaraq göndərdik. Ona içərisində hidayət və nur olan, özündən əvvəlki Tövratı təsdiqləyən, müttəqilər üçün doğru yol göstəricisi və öyüd-nəsihət olan İncili verdik. Qoy İncil əhli Allahın onda nazil etdiyi şəriət qanunları əsasında hökm versinlər. Allahın nazil etdiyi ilə hökm verməyənlər – məhz onlar fasiqlərdir. (Maidə surəsi, 46-47)**

Hz. İsa (ə.s)-ın çağırışına cavab verənlərin sayı başlanğıcda çox az olmuşdur. Çünki bu çağırış, həm dolanışıqlarını illərdir hakim etdikləri xurafat və ənənədən təmin edən rahib sinfinin, həm də Allahın hakimiyyətini qəbul etməyən idarəçi sinfin imtiyazlarını ortadan qaldırırdı. Onların tətbiq etdikləri təzyiq və təhdid, xalqın böyük qisminin qorxmasına və hz. İsa (ə.s)-dan uzaqlaşmalarına gətirib çıxarırdı. Hz. İsa (ə.s)-ın etdiyi təbliğ yayılmağa, onu izləyənlərin sayı artmağa başladığında, bu qrupların hazırladıqları hiyləgər tələlər və hz. İsa (ə.s)-ı öz ağıllarına görə maneə törətmək üçün qurduqları planlar da artmışdır. Bütün peyğəmbərlər bu kimi tələlərlə tarix boyunca qarşılaşmışlar. Quranda müşriklərin elçilərə qarşı göstərdikləri bu insanlıqdan kənar münasibət belə ifadə edilmişdir:

**... sizə göndərilən elçi ürəyinizə yatmayan bir şey gətirəndə siz təkəbbür göstərmədinizmi? Onların bir qismini yalançı hesab edib, bir qismini də öldürmədinizmi? (Bəqərə surəsi, 87)**

Cəmiyyət içində hz. İsa (ə.s)-ı dinləyib inananlar ilə inkar edənlər ayrılmağa başlamış, iki qrup arasındakı fərq diqqətə çarpan şəkildə ortaya çıxmışdır. Bir tərəfdə gerçək dini izah edən və insanları tək bir Allaha iman etməyə çağıran Allahın elçisi, digər tərəfdə isə hansı möcüzəni, hansı dəlili görürsə görsün, inanmamağa qərar vermiş bir qrup vardır. Hz. İsa (ə.s)-ın qarşısındakı düşmənlər özlərini açıq şəkildə bildirmişlər. Onu dinləyən, yanında olan kəslərdən də sonradan onu inkar edənlər çıxması ehtimalı vardı. Necə ki, Allah: **"Sonra, içlərindən bəzi təriqətlər ixtilafa düşdü..." (Zuxruf**

**surəsi, 65)** ayəsiylə bu vəziyyəti bizlərə xəbər verir. Bu səbəblə də hz. İsa (ə.s) qövmün içində iman edən, həqiqətən güvənə biləcəyi kəsləri təyin etmişdir. Bu vəziyyət Quranda bu şəkildə ifadə edilmişdir:

**İsa onlardakı küfrü hiss etdikdə dedi: "Allah yolunda kimlər mənə yardımçı olacaq?" Həvarilər dedilər: "Bizik Allahın dininin yardımçıları! Biz Allaha iman gətirdik. Sən də şahid ol ki, biz müsəlmanlarıq! (Ali İmran surəsi, 52)**

**Yaxud onlar Allahın hiyləsindən ehtiyat etmirdilərmi? Allahın hiyləsindən yalnız ziyana uğrayanlar ehtiyat etməzlər. (Əraf surəsi, 99)**

Quranda hz. İsa (ə.s)-ı öldürmək məqsədiylə inkar edənlərin bir tələ qurduqları xəbər verilir. Rəvayətlərə görə, hz. İsa (ə.s)-ın yanındakılardan birinin xəyanət etməsinə imkan verən bir qisim fanatik din adamları, Allahın elçisini həbs edib romalılara təslim etmək istəmişlər. Yenə rəvayətlərə görə, ölüm cəzasını tətbiq etməyə haqqı olmayan rahiblər, Roma rəhbərliyini təhrik etmək üçün bir tələ hazırlamış və hz. İsa (ə.s)-ı romalı dövlət adamlarına qarşı olan bir adam olaraq təqdim etmişlər. Çünki romalıların bu mövzuda çox həssas və mərhəmətsiz olduqlarını bilirlər. Bu tələnin sonu isə Quranda belə bildirilmişdir.

**Onlar hiylə qurdular, Allah da hiylə qurdu. Allah hiylə quranların ən yaxşısıdır. (Ali İmran surəsi, 54)**

Ayələrdə də bildirildiyi kimi, hz. İsa (ə.s)-ı öldürmək üçün hərəkətə keçilmiş, tələ qurulmuşdur. Ancaq onlar hz. İsa (ə.s)-ı öldürməyi bacara bilməmişlər, onun bir bənzərini, hz. İsa (ə.s) zənn edərək öldürmüşlər. Allah, hz. İsa (ə.s)-ı Öz Qatına yüksəldərək, hazırlanan tələni boşa çıxarmışdır:

**bir də: "Həqiqətən, biz Allahın elçisi Məryəm oğlu İsa Məsihi öldürdük!" - dediklərinə görə lənətə düçar edildilər. Halbuki onu nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlara ancaq İsanın bənzəri göstərildi. Şübhəsiz ki, bunda ixtilaf edənlər onun barəsində şəkk-şübhə içindədirlər. Bu haqda onların,**

**zənnə uymaqdan başqa heç bir məlumatı yoxdur. Onlar onu öldürdüklərinə yəqinliklə əmin deyillər. Əksinə, Allah onu Özünə tərəf qaldırmışdır. Allah Qüdrətlidir, Müdrikdir. (Nisa surəsi, 157-158)**

Romalıların hz. İsa (ə.s)-ı çarmıxa çəkərək öldürdükləri iddiası dünyada olduqca məşhur yanılmadır. Bu yanılmaya görə, hz. İsa (ə.s)-ı həbs edən romalılar və onu çarmıxa gərərək öldürmüşlər. Necə ki, xristian aləminin çox böyük bir hissəsi də hadisəni bu şəkildə qəbul edir, lakin hz. İsa (ə.s)-ın öldükdən sonra dirilərək göyə yüksəldiyinə inanır. Halbuki hz. İsa ölməmişdir və öldürülməmişdir. Necə ki, Quran ayələrini araşdırdığımızda da hadisənin əslinin belə olmadığını görərik:

**bir də: "Həqiqətən, biz Allahın elçisi Məryəm oğlu İsa Məsihi öldürdük!" - dediklərinə görə lənətə düçar edildilər. Halbuki onu nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlara ancaq İsanın bənzəri göstərildi. Şübhəsiz ki, bunda ixtilaf edənlər onun barəsində şəkk-şübhə içindədirlər. Bu haqda onların, zənnə uymaqdan başqa heç bir məlumatı yoxdur. Onlar onu öldürdüklərinə yəqinliklə əmin deyillər. (Nisa surəsi, 157)**

Yəni hz. İsa (ə.s) ölməmiş və öldürülməmişdir. Eyni ayənin davamında hz. İsa (ə.s)-ın ölmədiyi, Allah Qatına yüksəldildiyi bu şəkildə bildirilir:

**Əksinə, Allah onu Özünə tərəf qaldırmışdır. Allah Qüdrətlidir, Müdrikdir. (Nisa surəsi, 158)**

Ayədə bildirilən həqiqət açıqdır. Hz. İsa (ə.s)-ı öldürməyə cəhd edən romalılar, bunda müvəffəqiyyətli olmamışlar. Ayədə keçən "**...Onlara ancaq İsanın bənzəri göstərildi....**" ifadəsi bu vəziyyəti açıqca xəbər verir.

Allah insanlara hz. İsa (ə.s)-ın bir bənzərini göstərmiş və onu Öz qatına yüksəltmişdir. Bundan əlavə Rəbbimiz, bu iddiada olanların həqiqətə dair məlumatları olmadığını da bildirir.

Hz. İsa (ə.s)-ın çarmıxa çəkildiyi yalanı haqqında ilk çağlarda müxtəlif ayrı düşüncələr ortaya çıxmışdır. Sonrakı əsrlərdə, Konsul qərarlarıyla, xristianlığın iman qaydaları təyin olunana qədər bu fikir ayrılıqları davam etmiş

və hz. İsa (ə.s)-ın çarmıxa gərilmədiyini iddia edən axınlar azğın elan edilmişlər.

# Quranda hz. İsa (ə.s)-ın Allah qatına yüksəlməsi

Peyğəmbərlərin ölümlərinin izah edildiyi hekayələrdə keçən sözlərlə, hz. İsa (ə.s)-ın Allah Qatına alınmasının izah edildiyi ayələrin araşdırılması, hz. İsa (ə.s)-ın vəziyyətiylə əlaqədar əhəmiyyətli bir həqiqəti ortaya çıxarır: Hz. İsa (ə.s) heç bir peyğəmbər kimi vəfat etməmiş ya da inkar edənlər tərəfindən öldürülməmiş, Rəbbimiz onu Öz qatına yüksəltmişdir. Bu hissədə hz. İsa (ə.s)-ın və digər peyğəmbərlərin ölümlərini ifadə edən sözlərin ərəbcə qarşılıqlarını və Quran ayələrində nə şəkildə istifadə edildiklərini araşdıracağıq.

Quranda peyğəmbərlərin ölməsi və ya öldürülməsiylə əlaqədar olaraq istifadə edilən sözlər irəlidə daha təfərrüatlı şəkildə görəcəyimiz kimi "katələ (öldürmək), mata (ölmək), haləkə (həlak olmaq), səhləbə (asmaq)" ya da bir neçə xüsusi sözdür. Halbuki hz. İsa (ə.s) üçün, Quranda çox açıq bir ifadəylə, **"Onu öldürmədilər (ma katələhu) və asmadılar (ma saləbuhu)"** ifadəsi istifadə edilərək heç bir öldürmə şəkliylə öldürülmədiyi bildirilmişdir. Allah ayələrdə insanlara hz. İsa (ə.s)-ın bir bənzərinin göstərildiyini və onun Öz Qatına yüksəldildiyini bildirir. Bu həqiqət Ali İmran surəsində bu şəkildə xəbər verilir:

**O vaxt Allah dedi: "Ey İsa! Mən sənin həyatına son qoyub Özümə tərəf qaldıracağam, səni kafirlərdən təmizləyəcək və sənin ardınca gedənləri Qiyamət gününə qədər kafirlərdən üstün edəcəyəm... (Ali İmran surəsi, 55)**

Quranda ölüm mənası işarə edən sözlərin və Ali İmran surəsində keçən "vəfat etdirmə" sözünün istifadə şəkilləri belədir:

## 1) Təvəffa: Vəfat etdirmə

Ayədə keçən "vəfat" sözünün qarşılığı Azərbaycan dilində istifadə edilən ölmə mənasından fərqli mənaları verir. Ayələrin ərəbcə mənalarının araşdırılması, hz. İsa (ə.s)-ın bildiyimiz mənada ölmədiyini açıqca ortaya qoyur. Maidə surəsinin 117-ci ayəsində ölüm hadisəsi bu şəkildə izah edilir:

**Mən onlara ancaq Sənin mənə əmr etdiyini: "Mənim də Rəbbim, sizin də Rəbbiniz olan Allaha ibadət edin!" - demişəm. Nə qədər ki, onların arasında idim, mən onlara şahid idim. Sən məni onların arasından götürdükdən sonra isə onlara nəzarət edən Özün oldun. Sən hər şeyə Şahidsən. (Maidə surəsi, 117)**

Bu ayələrdə keçən və Azərbaycan dilində tərcümələrdə öldürmə ya da vəfat etdirmə olaraq tərcümə edilən söz (təvəffəytəni) ərəbcədə "vəfəa" kökündən törəmiş "təvəffa" feilidir və bu feil ölüm mənasına deyil, "canın alınması" mənasını verir. Necə ki, ərəbcə təfsirlərdə də ölüm mənasında istifadə edilməz. İslam alimi Kurtubinin təfsiri bunun nümunələrindən biridir. Kurtubi təfsirində bəhsi keçən söz üçün "nəfslərin ələ alınması" təbiri istifadə edilmişdir. Necə ki, insanın canının alınmasının hər vaxt ölüm mənasını vermədiyini Allah Quranda bizlərə bildirir. Məsələn "təvəffa" sözünün keçdiyi bir ayədə insanın ölümündən deyil, yuxudakı halından bəhs edilir:

**Sizi gecə vəfat etdirən (yetəvəffakum) və gündüz "güc çatdırıb təsir etməkdə olduqlarınızı" bilən, sonra adı qoyulmuş əcəl dolana qədər onda sizi dirildən Odur... (Ənam surəsi, 60)**

Bu ayədə "vəfat etdirmə" olaraq tərcümə edilən söz ilə, Ali İmran surəsinin 55-ci ayəsində keçən söz eynidir, yəni hər iki ayədə də "təvəffa" sözü keçir. İnsanın, gecə yatdığı vəziyyət ölüm olmadığına görə yuxarıdakı ayədə keçən "yetəvəffakum" sözünün ölümü nəzərdə tutmadığı, doğru tərcümənin "gecə canlarınızı alan" şəklində olması lazım olduğu açıqdır. Aşağıdakı ayədə isə eyni söz bu şəkildə keçir:

**Allah, öləcəkləri (mevt) zaman canlarını alır (yetəvəffa); ölməyəni də yuxusunda (canını alır) (lem temut). Beləcə, özü haqqında ölüm qərarı (əl mevtə) verilmiş olanı saxlayar, o birisisini isə adı qoyulmuş bir əcələ qədər buraxar... (Zumər surəsi, 42)**

Bu ayədən də aydın olduğu kimi, Allah yatan insanın canını alır, amma haqqında ölüm qərarı verilməmiş olanı əcəli gələnə qədər təkrar yollayır. Bu

halıyla insan bildiyimiz mənada ölmüş olmaz. Yalnız keçici bir müddət üçün ruhu bədənindən ayrılmış fərqli aləmə girmiş olar. Allah insanın ruhunu oyanacağı zaman bədəninə qaytarar.

Yuxunun bir növ vəfat olaraq qiymətləndirildiyini, ancaq bununla bioloji ölümün nəzərdə tutulmadığını göstərən nümunələrdən biri də Peyğəmbərimiz (s.ə.v)-ın yuxusundan oyandığı zaman "Bizi öldürdükdən sonra dirildən Allaha həmd olsun" dediyini bildirən hədisdir. *(Buxari, Kitabu'd Deavat 6312; İbni Sinni, Fi Amelli'l Yəvm vəl Leyle, nömrə 647, 856, 857, 885; Məhəmməd Xəlil Herras; Hz. İsa Gələcəkmi?, Isparta 2002, səh. 9*) Şübhəsiz, hz. Məhəmməd (s.ə.v) bu hikmətli sözüylə, yatan zaman biolojik mənada ölüm reallaşdığına deyil, yatan insanın bizim anladığımızdan fərqli mənada "canının alındığına" diqqət çəkmişdir. Məşhur İslam alimi və təfsirçi İbn Kəsr də, Ali İmran surəsinin təfsirini edərkən, digər bir çox dəlil ilə birlikdə bəhs olunan hədisi istifadə etmişdir. İbn Kəsrin təfsirində, "təvəffa" sözünün yuxuya işarə etdiyi, eyni sözün digər ayələrdə nə şəkildə yer aldığını göstərilərək açıqlanır. Bu şərhlərin ardından, İbn Kəsr, İbn Əbu Hatimdən rəvayət edilən bir hədisi də istifadə edərək qənaətini belə ifadə edir:

İbn Əbu Hatim deyir ki; "Bizə atam... Həsəndən rəvayət etdi ki, o, "Səni vəfat etdirəcəyəm..." ayəsi haqqında bu açıqlamanı etmişdir: Bura, "Səni yuxu ölümü ilə öldürəcəyəm, yəni yatırdacağam" mənasındadır ki, Allah hz. İsa (ə.s)-ı yuxuda ikən göyə qaldırmışdır... Allah, hz. İsa (ə.s)-ı şübhə yaratmayan bir həqiqət olaraq, yuxu ilə vəfat etdirdikdən sonra göyə çəkmiş və o dövrdə özünə əziyyət edən yəhudilərin əziyyətlərindən qurtarmışdır.[4]

## 2) Katele: Öldürmək

Quranda ölüm mövzusu izah edilərkən ümumiyyətlə istifadə edilən söz ərəbcədə "öldürmək" mənasını verən "katele" sözüdür. Mömin surəsində "katele" sözü bu şəkildə istifadə edilir:

**Firon dedi ki: "Buraxın məni, Musanı öldürüm (aktul) də o (getsin) Rəbbinə yalvarsın"... (Mömin surəsi, 26)**

Ayədə keçən "Musanı öldürüm" ifadəsinin ərəbcəsi "aktul Musa" şəklindədir. Bu söz katele hərəkətindən törəmişdir. Bir başqa ayədə isə eyni söz bu şəkildə istifadə edilir:

**... Peyğəmbərləri haqsız yerə öldürdüklərinə görə (yaktulunə) idi.... (Bəqərə surəsi, 61)**

Ayədə keçən "öldürdüklərinə görə idi" sözünün ərəbcəsi "yaktulunə" şəklindədir və yenə eyni şəkildə katele sözündən törəmişdir. Və tərcümədə də açıqca ifadə edildiyi kimi "öldürmək" mənasını verir.

Aşağıda peyğəmbərlərin ölümünü açıqlayan bəzi ayələrdə "katele" hərəkətinin nə şəkildə istifadə edildiyi ifadə edilir. Mötərizə içində mənaları bildirilən bütün sözlərin hərəkət kökləri kateledir:

**... Onların bu sözlərini və peyğəmbərləri haqsız yerə öldürmələrini (katləhum) yazacağıq... (Ali İmran surəsi, 181)**

**... "Əgər siz inanan kəslərsinizsə, bəs nə üçün əvvəllər Allahın peyğəmbərlərini öldürürdünüz? (taktulunə)" (Bəqərə surəsi, 91)**

**Allahın hökmlərini inkar edənlərə, peyğəmbərləri haqsız yerə öldürənlərə (yaktulunə) və insanlardan ədaləti əmr edənləri öldürənlərə; (yaktulunə)... (Ali İmran surəsi, 21)**

**"Yusifi öldürün (uktuhu) və ya (uzaq) bir yerə atın ki..." (Yusuf surəsi, 9)**

**"Ya Musa! Əyan-əşraf səni öldürmək (li yaktulu) barəsində məsləhət-məşvərət edirlər..." (Qəsas surəsi, 20)**

**"Onu öldürün (uktuluhu), yaxud da yandırın!" - deməkdən başqa bir şey olmadı. ... (Ənkəbut surəsi, 24)**

## 3) Haləkə: Ölmək

Quranda öldürmə feili üçün istifadə edilən bir başqa söz isə “haləkə” feilidir. Haləkə sözü ayələrdə “həlak olmaq, ölmək” mənalarında istifadə edilməkdədir. Məsələn Mömin surəsinin 34-cü ayəsində bu şəkildə keçməkdədir:

**...(Yusif) vəfat (haləkə) etdikdə: “Allah ondan sonra əsla peyğəmbər göndərməyəcəkdir!” - dediniz... (Mömin surəsi, 34)**

Ayədə, bizim dilə “vəfat etdikdə” olaraq tərcümə edilən ifadənin ərəbcəsi “izə həlekə” şəklindədir və bu sözün mənası da ölməkdir.

## 4) Əl mevtə: Ölüm

Quranda peyğəmbərlərin ölümüylə əlaqədar olaraq istifadə edilən bir başqa söz isə “əl mevtə” sözüdür. Mate sözü ayələrdə “ölmək” mənasında istifadə edilir. Bunlardan biri Səba surəsində hz. Süleyman ilə əlaqədar olaraq bildirilir:

**Beləcə onun (Süleymanın) ölümünə (əl mevtə) qərar verdiyimiz zaman, ölümünü (mevtihi), onlara, əsasını yeyən bir ağac qurdundan başqası xəbər vermədi... (Səba surəsi, 14)**

Eyni mənşədən gələn bir başqa istifadə isə hz. İsaya istiqamətli olaraq istifadə edilir:

**Ona salam olsun; doğulduğu gün, öləcəyi gün (yemutu) və diri olaraq yenidən-qaldırılacağı gün də. (Məryəm surəsi, 15)**

Bu ayədə “öləcəyi” şəklində tərcümə edilən sözün ərəbcəsi “yemutu” sözüdür. Eyni söz hz. Yaqubun ölümü ilə əlaqədar ayələrdə də keçir. Bəqərə surəsində bu şəkildə yer alır:

**Yoxsa siz, Yaqubun ölüm anında (əl mevtə) orada şahidlər idinizmi?.. (Bəqərə surəsi, 133)**

Bu ayədə keçən “əl mevtə” sözü də yenə eyni kökdən gəlir və ölüm mənasını daşıyır.

Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v) ilə əlaqədar bir ayədə isə “katele” və “mata” feilləri eyni anda istifadə edilir:

**Muhəmməd ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib-getmişlər. Əgər o, ölsə (mate) və ya öldürülsə (kutile), siz gerimi dönəcəksiniz?.. (Ali İmran surəsi, 144)**

Mate (ölmək) kökündən gələn ölüm sözü, yenə peyğəmbər ölümlərinin izah edildiyi başqa ayələrdə də keçir:

**...Dedi: “Kaş ki, mən bundan əvvəl ölüb (mittu) qurtaraydım və ya tamamilə unudulub getmiş olaydım!” (Məryəm surəsi, 23)**

**Səndən əvvəl də (dünyada) heç bir bəşərə ölməzlik (el hulde) vermədik. Belə olduğu təqdirdə, sən ölsən (mitte), onlar dirimi qalacaqlar?! (Ənbiya surəsi, 34)**

**“Məni öldürəcək (yumituni), sonra dirildəcək olan da Odur.” (Şuəra surəsi, 81)**

## 5) Halid: Ölümsüz

Ayələrdə yer alan, birbaşa ölmək ya da öldürmək hərəkətini deyil, ancaq ölümsüzlüyü ifadə edən bir başqa söz isə "halid" sözüdür. Halid sözünün mənası qalıcı olmaq, varlığılığı davam etmək şəklindədir. Ənbiya surəsində "halid" sözü bu şəkildə istifadə edilmişdir:

**Biz onları, yemək yeməz cəsədlər etmədik və onlar ölümsüz (halidiynə) deyillərdi. (Ənbiya surəsi, 8)**

## 6) Səhləbə: Asmaq

Quranda peyğəmbərlərin ölümləri izah edilərkən istifadə edilən sözlərdən biri də səhləbə (asmaq) hərəkətidir. Səhləbə hərəkəti "asmaq, çarmıxa çəkmək və edam etmək" kimi mənalara gəlir. Bu hərəkət bəzi ayələrdə bu şəkildə istifadə edilir:

**... Halbuki onu öldürmədilər və onu asmadılar (ma saləbuhu) ... (Nisa surəsi, 157)**

**... sizin biriniz yenə ağasına şərab içirdəcək, digəriniz isə edam olunacaq (yusləbi)... (Yusuf surəsi, 41)**

**... Ancaq öldürülmələri asılmaları (yusalləbu)... (Maidə surəsi, 33)**

**Əl-ayağınızı çarpaz kəsdirəcək, sonra isə hamınızı edam edəcəyəm! (usallibənnəkum) (Əraf surəsi, 124)**

Ayələrdə də görüldüyü kimi hz. İsa (ə.s)-ın vəfatıyla digər peyğəmbərlərin ölümlərinin izah edildiyi ayələr bir-birindən çox fərqli sözlərlə

ifadə edilir. Allah Quran ayələrində hz. İsa (ə.s)-ın öldürülmədiyini, asılmadığını, insanlara onun bir bənzərinin göstərildiyini, onu vəfat etdirdiyini (yəni yuxudakı kimi canını aldığını) və Öz qatına yüksəltdiyini bildirmişdir. Hz. İsa üçün "canını almaq" mənasını verən "təvəffa" feili istifadə edilərkən, digər peyğəmbərlər üçün normal ölümü ifadə edən "katele" ya da "ölüm" kimi ifadələr istifadə edilir. Bu məlumatlar isə bizə hz. İsa (ə.s)-ın vəziyyətinin fövqəladəliyini bir daha göstərir.

# Hz. İsa (ə.s) yer üzünə ikinci dəfə gələcək

Təhrif olunmuş İncildə yazanların əksinə, hz. İsa (ə.s), çarmıxa çəkilməmiş, yəni romalıların qurduğu tələnin nəticəsi olaraq öldürülməmişdir. Rəbbimiz onların bu tələlərini pozmuş, romalılar başqa birini hz. İsa (ə.s) zənn etmişlər. Allah hz. İsa (ə.s)-ı Öz qatına almışdır.

Quran və İncil açıqlamaları arasında, hz. İsa (ə.s)-ın yer üzündən ayrılması haqqında əhəmiyyətli fərq olmasına baxmayaraq, hz. İsa (ə.s)-ın Allah qatına alındığı və qiyamət qopmadan əvvəl bir daha geri dönüb dünyada həqiqi dini hakim edəcəyi mövzusunda böyük bənzərlik vardır. Quranda qarşılaşdığımız dəlillər və Peyğəmbərimiz (s.ə.v) tərəfindən xəbər verilən hədislər, hz. İsa (ə.s)-ın ikinci dəfə yer üzünə gələcəyini təsdiqləyir.

Hz. İsa (ə.s)-ın yer üzünə ikinci dəfə gələcəyi mövzusu Quranda çox açıq olaraq bildirilmişdir. Bir çox ayədə bu mövzu ilə əlaqədar qəti ifadələr var. Quranda bildirilən bu dəlillər aşağıdakı şəkildədir:

## 1-ci dəlil

**"... Sənə iman gətirənləri qiyamət gününə qədər kafirlərə qalib edərəm..."**

Hz. İsa (ə.s)-ın ikinci dəfə yer üzünə gələcəyinə dair işarələr daşıyan ayələrdən ilki Ali İmran surəsinin 55-ci ayəsidir:

**O vaxt Allah dedi: "Ey İsa! Mən sənin həyatına son qoyub Özümə tərəf qaldıracağam, səni kafirlərdən təmizləyəcək və sənin ardınca gedənləri Qiyamət gününə qədər kafirlərdən üstün edəcəyəm. Sonra sizin dönüşünüz Mənə olacaq. Mən də ixtilafa düşdüyünüz şeylər barəsində sizin aranızda hökm verəcəyəm. (Ali İmran surəsi, 55)**

Allah qiyamətə qədər inkar edənlərə qalib gələn və hz. İsa (ə.s)-a həqiqətən tabe olan bir qrupun varlığından danışır. Hz. İsa (ə.s) həyatda ikən ona inananların sayı çox az idi. Və onun Allah qatına yüksəlişinin ardından da sürətlə dində degenerasiya başladı. Sonrakı iki əsr boyunca da, hz. İsa (ə.s)-a iman edənlər (İsəvilər) şiddətli təzyiqlərə məruz qaldılar. Üstəlik İsəvilərin heç bir siyasi gücü də yox idi. Bu vəziyyətdə keçmişdə yaşayan xristianların, inkar edənlərə qalib gəldiklərini və bu ayənin onlara işarə etdiyini söyləyə bilmərik.

İndiki vaxtda isə xristianlığın özündən uzaqlaşdığını, hz. İsa (ə.s)-ın izah etdiyi haqq dindən fərqli bir dinə çevrildiyini görərik. Xristianlar arasında hz. İsa (ə.s)-ın Allahın oğlu olduğu şəklindəki (Allahı tənzih edirik) azğın inanc mənimsənmiş və azğın təslis inancı (üçləmə; ata, oğul, müqəddəs ruh) əsrlər əvvəl qəbul edilmişdir. Bu vəziyyətdə, dinin əslindən uzaqlaşmış indiki xristianlar da hz. İsa (ə.s)-a uyanlar olaraq qəbul edə bilmərik, çünki Allah, Quranın bir çox ayəsində “üçləməyə” inananların inkar içərisində olduqlarını bildirmişdir:

**“Allah üçlüyün üçüncüsüdür!” - deyənlər artıq kafir oldular. Halbuki Tək İlahdan başqa ibadətə layiq olan heç bir məbud yoxdur... (Maidə surəsi, 73)**

Bu vəziyyətdə **“Sənə iman gətirənləri qiyamət gününə qədər kafirlərə qalib edərəm”** ifadəsi açıq işarə daşıyır. Hz. İsa (ə.s)-a inanan və qiyamətə qədər yaşayacaq bir birlik olması lazımdır. Belə bir birlik, şübhəsiz hz. İsa (ə.s)-ın yer üzünə təkrar gəlməsi ilə ortaya çıxacaq. Və təkrar dünyaya gəlişi əsnasında bu müqəddəs insana tabe olanlar, qiyamətə qədər inkar edənlərə üstün olacaq.

**Əksinə, Allah onu Özünə tərəf qaldırmışdır. Allah Qüdrətlidir, Müdrikdir. (Nisa surəsi, 158)**

## 2-ci dəlil

**“... ölmədən əvvəl ona inanmayacaq kimsə yoxdur...”**

Nisa surəsinin 156-158-ci ayələrindən sonra Allah, 159-cu ayədə belə buyurur:

**Kitab əhlindən elə kimsə yoxdur ki, (öz ölümündən, yaxud İsanın) ölümündən əvvəl ona iman gətirməsin. Qiyamət günü isə İsa onların əleyhinə şahid olacaqdır. (Nisa surəsi, 159)**

Yuxarıdakı ayədə yer alan **"ölmədən əvvəl ona inanmayacaq kimsə yoxdur"** ifadəsi olduqca diqqət çəkicidir. Bu cümlənin ərəbcə qarşılığı bu şəkildədir: "**... və ən min əhlil kitabı illa ləyüminənnə bihi kablə məvtihi"**

Burada bəzi təfsirçilər "o" əvəzliyinin hz. İsa yerinə Qurana işarə etdiyini düşünmüşlər və ayəyə Kitab əhlinin ölmədən Qurana iman edəcəyi şəklində bir açıqlama etmişlər. Halbuki bu ayədən əvvəlki iki ayədə də "o" əvəzliyi müzakirəsiz bir şəkildə hz. İsa (ə.s) üçün istifadə edilmişdir:

**bir də: "Həqiqətən, biz Allahın elçisi Məryəm oğlu İsa Məsihi öldürdük!" - dediklərinə görə lənətə düçar edildilər. Halbuki onu nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlara ancaq İsanın bənzəri göstərildi. Şübhəsiz ki, bunda ixtilaf edənlər onun barəsində şəkk-şübhə içindədirlər. Bu haqda onların, zənnə uymaqdan başqa heç bir məlumatı yoxdur. Onlar onu öldürdüklərinə yəqinliklə əmin deyillər. (Nisa surəsi, 157)**

**Əksinə, Allah onu Özünə tərəf qaldırmışdır. Allah Qüdrətlidir, Müdrikdir. (Nisa surəsi, 158)**

Bu ayələrindən sonra gələn ayədə istifadə edilən "o" əvəzliyinin Hz. İsadan başqa bir varlığı nəzərdə tutduğunun heç bir dəlili yoxdur.

**Kitab əhlindən elə kimsə yoxdur ki, (öz ölümündən, yaxud İsanın) ölümündən əvvəl ona iman gətirməsin. Qiyamət günü isə İsa onların əleyhinə şahid olacaqdır. (Nisa surəsi, 159)**

Digər tərəfdən ayənin ikinci cümləsində yer alan **"Qiyamət günü, o da onların əleyhinə şəhadət verəcəkdir."** ifadəsi də olduqca əhəmiyyətlidir. Quranda qiyamət günü insanın dilinin, əllərinin və ayaqlarının (Nur surəsi, 24, Yasin surəsi, 65), eşitmə, görmə duyğularının və dərilərinin (Fussilət surəsi, 20-23) öz əleyhinə şahidlik edəcəkləri bildirilir. Quranın şahidliyi ilə əlaqədar isə heç bir ayə yoxdur. İlk cümlənin *(cümlə quruluşu olaraq və ya ayələrin ard-arda gəlişi baxımından hər hansı bir dəlil olmamasına baxmayaraq)* "Quranı" ifadə etdiyi qəbul edilsə, ikinci cümlədə yer alan "o" əvəzliyinin də Qurana işarə etdiyi iddia edilmiş olar. Halbuki Allah Quranda bizlərə bu mövzuyla əlaqədar hər hansı bir məlumat verməmişdir (Doğrusunu Allah bilir).

**O, yalnız və yalnız Bizim nemət verdiyimiz və İsrail oğullarına nümunə etdiyimiz bir quldur. (Zuxruf surəsi, 59)**

Bununla birlikdə, bir əvvəlki ayədə bildirilən "**Allah onu Özünə yüksəltdi**" ifadəsi də, bu ayədə işarə edilənin Quran olmadığını bir daha göstərir. Quran 1400 ildir iman edənlərə hidayət rəhbəridir və Allah Qatına yüksəldilməmişdir. Allah Qatına yüksəldilən hz. İsa (ə.s)-dır. Bu da ayədə xəbər verilən şahidliyin, hz. İsa (ə.s)-ın Kitab Əhli üçün edəcəyi şahidlik olduğunu, ayədə "o" əvəzliyi ilə Qurana işarə edilmədiyini göstərən bir başqa dəlildir (Doğrusunu Allah bilir.)

Quran ayələrinə baxdığımızda eyni əvəzliyin, Qurana işarə etdiyi vəziyyətlərdə, (Tariq surəsi, 13, Təkvir surəsi, 19, Nəml surəsi, 77 və Şuəra surəsi, 192-196-da olduğu kimi) ayənin əvvəlində ya da sonrasında mütləq Qurandan bəhs edildiyini görərik. Ayənin əvvəlində, sonrasında və ya ayənin içində Qurandan bəhs edilmirsə, bu ayənin Quranı təsvir etdiyini söyləmək səhv olar. Ayə çox açıq bir şəkildə hz. İsaya inanılmasından və onun inananlara şahid olmasından bəhs edir.

Ayənin mənası haqqında ifadə edəcəyimiz ikinci nöqtə isə "ölümündən əvvəl" ifadəsinin izahı ilə əlaqədardır. Bəziləri bu ifadənin "Kitab Əhlinin öz ölümlərindən əvvəl" inanması mənasında olduğunu düşünürlər. Bu izaha görə Kitab Əhlindən olan hər adam özünə ölüm gəlmədən hz. İsa (ə.s)-a mütləq iman edəcək. Halbuki ərəbcə qrammatika, bu iddianın doğru olmadığını göstərir. Quranda Kitab Əhli ilə əlaqədar bütün ayələrdə, çoxluğu ifadə edən "hum" əlavəsi istifadə edilmişdir (Beyyinə surəsi, 1 və 6; Hədid surəsi, 29; Həşr surəsi 2 də olduğu kimi.) Bu ayədə isə təkliyi ifadə edən "h" əlavəsi istifadə edilmişdir. Bu vəziyyətdə, ayədə xəbər verilən, hz. İsa (ə.s)-ın ölümündən (yəni

yer üzünə ikinci dəfə gəlib bioloji olaraq ölümündən) əvvəl Kitab Əhlinin özünə inanacağıdır.

Bundan əlavə hz. İsa (ə.s) dövründə Kitab Əhli təyin etməsinə daxil olan yəhudilərin bir qismi ona iman etməməklə qalmamış, bəziləri onu öldürmək üçün tələ qurmuşlar. Daha sonra da onu öldü sanıb inkarlarını davam etdirmişlər. Eyni vəziyyət bugünkü yəhudilər üçün də etibarlıdır, çünki onlar hz. İsa (ə.s)-ı peyğəmbər olaraq qəbul etmirlər. Bu günə qədər hz. İsaya iman etməmiş milyonlarla Əhli Kitab yəhudi yaşamış və hz. İsa (ə.s)-a iman etmədən ölmüşdür. Bu səbəbdən ayədə bəhsi keçən Kitab Əhlinin deyil, hz. İsa (ə.s)-ın ölümüdür. Nəticə olaraq, ayələrin bizlərə göstərdiyi həqiqət isə budur: "**Hz. İsa ölmədən əvvəl bütün Əhli Kitab ona iman edəcək".**

Ayə əsil mənasıyla ələ alındığında isə çox açıq həqiqətlərlə qarşılaşarıq.

Birincisi, ayədə gələcəkdən bəhs edildiyi açıqdır, çünki hz. İsa (ə.s)-ın ölümü əsas mövzudur. Halbuki o ölməmiş, Allah qatına yüksəlmişdir. Hz. İsa (ə.s) dünyaya yenidən gələcək və hər insan kimi yaşayıb öləcək. İkincisi hz. İsa (ə.s)-a bütün Əhli Kitabın iman etməsi əsas mövzudur. Bu da hələ reallaşmamış ancaq qəti olaraq reallaşacağı bildirilən bir hadisədir. Bu səbəbdən buradakı "ölümündən əvvəl" ifadəsinin işarə etdiyi adam hz. İsa (ə.s)-dır. Kitab Əhli onu görüb biləcək, ona yaşayarkən irəliləyən sətirlərdə təfərrüatlı olaraq izah ediləcəyi kimi müsəlman olaraq itaət edəcək və hz. İsa (ə.s) da onların vəziyyətləriylə əlaqədar axirətdə şahidlik edəcək (Doğrusunu Allah bilir.)

## 3-cü dəlil

**"Şübhəsiz o, qiyamət-saatı üçün bir elmdir..."**

Hz. İsa (ə.s)-ın yenidən yer üzünə dönəcəyi ilə əlaqədar bir başqa ayə də Zuxruf surəsinin 61-ci ayəsidir. Bu surənin 57-ci ayəsindən etibarən hz. İsa (ə.s)-dan bəhs edilir:

**Məryəm oğlu örnək göstərilincə sənin xalqın sevincdən güldü. Onlar dedilər: "Bizim məbudlarımız yaxşıdır, yoxsa o?" Onlar bunu sənə yalnız höcət etmək üçün dedilər. Doğrusu, onlar höcətləşən adamlardır. O, yalnız və yalnız Bizim nemət verdiyimiz və İsrail oğullarına nümunə etdiyimiz bir quldur. Əgər**

**istəsəydik, yer üzündə içinizdən sizi əvəz edəcək mələklər yaradardıq. (Zuxruf surəsi, 57-60)**

Bu ayələrin arxasından gələn 61-ci ayədə hz. İsa (ə.s)-ın qiyamət saatı üçün bir elm olduğu ifadə edilir:

**Həqiqətən, İsanın yer üzünə enməsi Saatın yaxınlaşmasının əlamətidir. Qiyamətə şəkk etməyin və Mənə tabe olun. Budur, düz yol! (Zuxruf surəsi, 61)**

Bu ayənin hz. İsa (ə.s)-ın Axırzamanda yer üzünə dönüşünə açıq işarə etdiyini söyləyə bilərik. Çünki hz. İsa (ə.s), Quranın endirilməsindən təxminən altı əsr əvvəl yaşamışdır. Bu səbəbdən bu ilk həyatını "qiyamət saatı üçün bir elm" yəni qiyamət əlaməti olaraq anlaya bilmərik. Ayənin işarə etdiyi məna, hz. İsa (ə.s)-ın, Axırzamanda, yəni qiyamətdən əvvəlki son zaman dilimində yenidən yer üzünə dönəcəyi və bunun da bir qiyamət əlaməti olacağıdır.

Bu ayədə keçən **"O, qiyamət saatı üçün bir elmdir"** ifadəsinin ərəbcə qarşılığı bu şəkildədir: **"İnnəhu lə elmin lissaati."**

Bu ifadədə yer alan "hu" əvəzliyinin "Qurana" işarə etdiyini söyləyənlər vardır. Ancaq yuxarıda da ifadə edildiyi kimi Quran üçün "hu" -"o" əvəzliyi istifadə edildiyində mütləq ayənin əvvəlində və ya sonrasında və ya ayənin içində Quranı izah edən başqa ifadələr də var. Başqa bir mövzu içində "hu" əvəzliyi ilə Qurandan bəhs edilməz. bundan əlavə bu ayənin əvvəlindəki ayəyə baxıldığında, orada da açıq şəkildə hz. İsa (ə.s) nəzərdə tutularaq o əvəzliyi istifadə edildiyi görüləcək:

**O, yalnız və yalnız Bizim nemət verdiyimiz və İsrail oğullarına nümunə etdiyimiz bir quldur. (Zuxruf surəsi, 59)**

Bu əvəzliyin Qurana işarə etdiyini söyləyənlər isə ayənin davamında keçən "**Ona (qiyamətə) şəkk etməyin və Mənə tabe olun**." ifadəsini dəlil olaraq göstərərlər. Ancaq bu ifadənin əvvəlindəki ayələr tamamilə hz. İsa (ə.s)-dan bəhs edir. Bu səbəblə "hu" əvəzliyinin bir əvvəlki ayələrlə əlaqədar olması və hz. İsa (ə.s)-ı izah etməsi daha uyğundur. Necə ki, böyük İslam alimləri də bu əvəzliyi istər ayələrə istərsə səhih hədislərə əsaslanaraq hz. İsa (ə.s) olaraq

açıqlayırlar. Almalılı Həmdi Yazırın təfsirində bu mövzu aşağıdakı şəkildə açıqlanır:

"**O, qiyamət saatı üçün bir elmdir**" -saatın gələcəyini ölülərin dirilib, qiyam edəcəyini bildirən bir dəlil və əlamətdir. Çünki İsa istər zühuru və istər emvati əhya (ölüləri diriltmə) möcüzəsi və istər emvatın qiyamını (ölülərin qalxmasını) xəbər verməsi etibarıyla qiyamətin baş verəcəyinə bir dəlil olduğu kimi hədisdə varid olduğuna görə eşratı saatdandır (qiyamət əlamətidir)." [5]

# 4-cü dəlil

**"... Ona Kitabı, hikməti, Tövratı və İncili öyrədəcək..."**

Hz. İsa (ə.s)-ın ikinci gəlişinə işarə edən başqa ayələr də belədir:

**O zaman mələklər dedilər: "Ey Məryəm! Həqiqətən, Allah səni Öz tərəfindən, adı Məryəm oğlu İsa Məsih olan bir kəlmə ilə müjdələyir. O, bu dünyada və axirətdə şan-şöhrətli və Allaha yaxınlaşdırılmışlardan olacaqdır. O, həm beşikdə ikən, həm də yetkin çağında insanlarla danışacaqdır və salehlərdən olacaqdır". Məryəm dedi: "Ey Rəbbim! Mənə bir insan toxunmadığı bir halda necə övladım ola bilər?" Allah dedi: "Allah beləcə istədiyini yaradır. O, bir işin olmasını istədikdə ona ancaq "Ol!" - deyir, o da olur". Allah ona yazmağı, hikməti, Tövratı və İncili öyrədəcək. (Ali İmran surəsi, 45-48)**

Ayədə, Allahın hz. İsa (ə.s)-a, Tövratı, İncili və bir də "Kitabı" öyrədəcəyi xəbər verilir. Bu kitabın hansı kitab olduğu şübhəsiz əhəmiyyətlidir. Eyni ifadə Maidə surəsinin 110-cu ayəsində də yer alır:

**Allah deyəcəkdir: "Ey Məryəm oğlu İsa! Sənə və anana olan nemətimi xatırla! O zaman səni müqəddəs ruhla qüvvətləndirmişdim. Sən həm beşikdə**

**ikən, həm də yetkin çağında insanlarla danışırdın. Sənə yazmağı, hikməti, Tövratı və İncili öyrətmişdim"... (Maidə surəsi, 110)**

Hər iki ayədə də keçən "Kitab" ifadəsini araşdırdığımızda, bunun Qurana işarə etdiyini görərik. Ayələrdə Tövrat və İncildən başqa göndərilən son haqq kitabın Quran olduğu bildirilir. (Hz. Davud (ə.s)-a verilən Zəbur da Əhdi-Ətiqin içindədir) Bununla yanaşı, yenə Quranın bir başqa ayəsində, "Kitab" sözü, İncil və Tövratla bərabər Quranı ifadə etmək üçün istifadə edilmişdir:

**Allah. Ondan başqa ibadətə layiq olan məbud yoxdur, əbədi Yaşayandır, bütün yaradılanların Qəyyumudur. O, sənə Kitabı gerçək olaraq, ondan əvvəlkiləri təsdiqləməsi üçün nazil etdi. Tövratı və İncili də O nazil etdi (Ali İmran surəsi, 2-3)**

Kitab sözünün Qurana işarə etdiyi başqa bəzi ayələr də bu şəkildədir:

**Onlara Allah tərəfindən özlərində olanı təsdiqləyən bir Kitab (Quran) gəldikdə onu inkar etdilər. Halbuki əvvəllər kafirlər üzərində qələbə diləyirdilər. Onlara tanıdıqları peyğəmbər gəldikdə isə onu inkar etdilər. Allah kafirlərə lənət etsin! (Bəqərə surəsi, 89)**

**Həmçinin öz içərinizdən ayələrimizi sizə oxuyan, sizi günahlardan təmizləyən, Kitabı və hikməti sizə öyrədən, habelə bilmədiklərinizi də sizə öyrədən bir Elçi göndərdik. (Bəqərə surəsi, 151)**

Bu vəziyyətdə, hz. İsa (ə.s)-a öyrədiləcək üçüncü "Kitabın" Quran olduğunu və bunun da ancaq hz. İsa (ə.s)-ın Axırzamanda dünyaya dönüşündə mümkün ola biləcəyini düşünə bilərik. Çünki hz. İsa (ə.s) Quranın endirilməsindən təxminən 600 il əvvəl yaşamışdı. İrəliləyən hissələrdə təfərrüatlı olaraq görəcəyimiz kimi, Peyğəmbərimiz (s.ə.v)-ın hədislərində hz. İsa (ə.s)-ın dünyaya ikinci dəfə gəlişində İncil ilə deyil, Quranla hökm edəcəyi bildirilir. Bu da ayədəki mənaya tam olaraq uyğun gəlir (Şübhəsiz doğrusunu Allah bilər).

# 5-ci dəlil

**“Şübhəsiz, Allah Qatında İsanın vəziyyəti, Adəmin vəziyyəti kimidir...”**

**“Şübhəsiz, Allah Qatında İsanın vəziyyəti, Adəmin vəziyyəti kimidir...” (Ali İmran surəsi, 59)** ayəsi də hz. İsa (ə.s)-ın dönüşünə işarə edir ola bilər. Təfsir alimləri ümumiyyətlə bu ayənin hər iki peyğəmbərin də atasız olma xüsusiyyətinə, hz. Adəmin Allahın “Ol” əmriylə torpaqdan yaradılması ilə hz. İsa (ə.s)-ın yenə “Ol” əmriylə atasız doğulmasına işarə etdiyinə diqqət çəkmişlər. Ancaq ayənin ikinci işarəsi də ola bilər. Hz. Adəm cənnətdən necə yer üzünə endirildisə, hz. İsa (ə.s) da Axırzamanda Allahın Qatından yer üzünə endiriləcək ola bilər.

Görüldüyü kimi hz. İsa (ə.s)-ın yer üzünə yenidən dönəcəyinə bağlı olaraq Quranda keçən ayələr çox açıqdır. Quranda digər peyğəmbərlər üçün bunlara bənzər ifadələr istifadə edilməmişdir. Ancaq bütün bu ifadələr, hz. İsa (ə.s) üçün istifadə edilmişdir. Bunun mənası isə olduqca açıqdır.

# 6-cı dəlil

**“...doğulduğum gün, öləcəyim gün və diri olaraq yenidən-qaldırılacağım gün...”**

Quranda hz. İsa (ə.s)-ın ölümünü ifadə edən bir başqa ayə isə Məryəm surəsində belə xəbər verilir:

**Doğulduğum gün də, öləcəyim gün də, yenidən dirildiləcəyim gün də mənə salam olsun!” (Məryəm surəsi, 33)**

Bu ayə Ali İmran surəsinin 55-ci ayəsiylə birlikdə araşdırıldığında çox əhəmiyyətli bir həqiqətə işarə edir. Ali İmran surəsinin 55-ci ayəsində hz. İsa (ə.s)-ın Allah Qatına yüksəldildiyi ifadə edilir. Bu ayədə ölmə ya da öldürülmə

ilə əlaqədar bir məlumat verilmir. Ancaq Məryəm surəsinin 33-cü ayəsində hz. İsa (ə.s)-ın öləcəyi gündən bəhs edilir. Bu ikinci ölüm isə ancaq hz. İsa (ə.s)-ın ikinci dəfə dünyaya gəlişi və bir müddət yaşadıqdan sonra vəfat etməsiylə mümkün ola bilər.

# 7-ci dəlil

**"... beşikdə ikən də, yetkin (kəhlən) ikən də insanlarla danışırdın..."**

Hz. İsa (ə.s)-ın təkrar dünyaya gələcəyi ilə əlaqədar bir başqa dəlil isə Maidə surəsinin 110-cu ayəsində və Ali İmran surəsinin 46-cı ayəsində keçən "**kəhlən**" sözüdür. Ayələrdə bu şəkildə buyurulur:

**Allah deyəcəkdir: "Ey Məryəm oğlu İsa! Sənə və anana olan nemətimi xatırla! O zaman səni müqəddəs ruhla qüvvətləndirmişdim. Sən həm beşikdə ikən, həm də yetkin çağında insanlarla danışırdın"... (Maidə surəsi, 110)**

**O, həm beşikdə ikən, həm də yetkin çağında insanlarla danışacaqdır və salehlərdən olacaqdır". (Ali İmran surəsi, 46)**

Bu söz Quranda yalnız yuxarıdakı iki ayədə və yalnız hz. İsa (ə.s) üçün istifadə edilir. Hz. İsa (ə.s)-ın yetkin halını ifadə etmək üçün istifadə edilən "*kəhlən*" sözünün mənası *"otuz ilə əlli yaşları arasında, gənclik dövrünü bitirib qocalığa ayaq basan, yaşı kamala çatmış kimsə" şəklindədir.* Bu söz İslam alimləri arasında ittifaqla "**35 yaşdan sonrakı dövrə işarə edir**" şəklində çevrilir.

Hz. İsa (ə.s)-ın gənc yaş olan otuz yaşının əvvəlində Allah Qatına yüksəldiyini, yer üzünə endikdən sonra qırx il qalacağını ifadə edən və İbni Abbasdan rəvayət edilən hadisə əsaslanan İslam alimləri, hz. İsa (ə.s)-ın yaşlılıq dövrünün, təkrar dünyaya gəlişindən sonra olacağını, bu səbəbdən bu ayənin, hz. İsa (ə.s)-ın nüzuluna dair dəlil olduğunu söyləyirlər.[6]

İslam alimlərinin bu açıqlamasının məqsədəuyğun olduğu, bəhs olunan ayələr diqqətlə araşdırıldığında asanlıqla aydın olur. Quran ayələrinə baxıldığında bu ifadənin, yalnız hz. İsa (ə.s) üçün istifadə edildiyini görərik. Bütün peyğəmbərlər insanlarla danışıb, onları dinə dəvət etmişlər. Hamısı da yetkin yaşlarında təbliğ vəzifəsini yerinə yetirmişlər. Ancaq Quranda heç bir peyğəmbər üçün bu şəkildə bir ifadə istifadə edilməmişdir. Bu ifadə yalnız hz. İsa (ə.s) üçün və möcüzəvi bir vəziyyəti ifadə etmək məqsədiylə istifadə edilmişdir. Çünki ayələrdə bir-biri ardından gələn "beşikdə" və "yetkin ikən" sözləri iki böyük möcüzəvi zamana diqqət çəkir.

Necə ki, İmam Taberi, "*Taberi Təfsiri*" adlı əsərində bu ayələrdə keçən ifadələri aşağıdakı şəkildə açıqlayır:

*"Bu ifadələr (Maidə surəsi, 110), hz. İsa (ə.s)-ın ömürünü tamamlayıb yaşlılıq dövründə insanlarla danışa bilməsi üçün göydən enəcəyinə işarə edir. Çünki o, gənc yaşdaykən göyə qaldırılmışdı...*

*Bu ayədə (Ali İmran surəsi, 46), hz. İsa (ə.s)-ın həyatda olduğuna dəlil vardır və əhli sünnə də bu fikirdədir. Çünki ayədə, onun yaşlandığı zamanda da insanlarla danışacağı ifadə edilir. Yaşlanması da ancaq, səmadan yer üzünə enəcəyi zamanda olacaq."* [7]

"Kəhlən" sözünün izahı da, Quranda yer alan digər məlumatlar kimi, hz. İsa (ə.s)-ın təkrar yer üzünə gəlişinə işarə edir. Bütün bu izah edilənlər hz. İsa (ə.s)-ın Axırzaman adı verilən dövrdə yer üzünə təkrar gələcəyini və insanları haqq din olan İslama yönəldəcəyini ortaya qoyur. Şübhəsiz bu, Allahın iman edənlərə böyük müjdəsi, rəhməti və nemətidir. İman edənlərin məsuliyyəti isə, hz. İsa (ə.s)-ı ən gözəl şəkildə müdafiə edib dəstəkləmək və onun insanları çağırdığı Quran əxlaqını ən gözəl şəkildə yaşamaqdır.

## Hz. İsa (ə.s)-ı hər görən tanıyacaq

Hz. İsa (ə.s)-ın ikinci dəfə yer üzünə gəlişi ilə əlaqədar yazılan yazılarda vurğulanan bir başqa mövzu "*Hz. İsa (ə.s)-ın kim olduğunun necə aydın olacağı və onun hansı xüsusiyyətlərindən tanına biləcəyi"dir.* Elm, ağıl, fiziki quruluş,

əxlaq olaraq üstün bir insan olaraq hz. İsa (ə.s)-ın üzündə peyğəmbərlərə xas bir ifadə olacaq. Sahib olduğu güclü Allah qorxusunun və dərin imanının nuru üzünə əks olunacaq. Və peyğəmbərlərə xas olan nurlu ifadə o dərəcə açıq olacaq ki, onu görənlər digər insanlara müqayisədə çox üstün bir insanla qarşılaşdıqlarının fərqinə varacaqlar.

Allah, hz. İsa (ə.s)-ın həm dünyada, həm də axirətdə "... **seçkin, şərəfli, hörmətli və Allaha yaxın olanlardandır..." (Ali İmran surəsi, 45)** olduğunu bildirmişdir. Allahın ayəsinin bir təcəllisi olaraq bütün peyğəmbərlər kimi hz. İsa da ətrafındakı insanlar arasında möhtərəmliyiylə, seçkin və şərəfli olmasıyla tanınacaq. Görənlər onu baxar-baxmaz tanıyacaq, ürəklərində bu mövzuda heç bir şübhə yaranmayacaq. Bu müqəddəs insanın gəlişini inkar edən insanlar da etdiklərinin məntiqsizliyini dərhal qavrayacaqlar.

Hz. İsa Quranda keçən peyğəmbər xüsusiyyətləri ilə tanınacaq. Ancaq bunlardan başqa onu insanlara tanıdan başqa əlamətləri də olacaq. Şübhəsiz, bunlardan ən əhəmiyyətlilərindən biri hz. İsa (ə.s)-ın dünyada bir ailəsinin, heç bir qohumunun, keçmişdən tanışı olan tək bir adamın olmamasıdır.

Həqiqətən də, hz. İsa (ə.s) yenidən yer üzünə gəldiyində ətrafında özünü əvvəldən tanıyan heç kim olmayacaq. Dünya üzərində tək bir adam "mən onu əvvəldən tanıyıram, filan zaman görmüşdüm, onun ailəsi və yaxınları bu kəslərdir" kimi bir iddia etməyəcək. Çünki onu tanıyan bütün insanlar bundan təxmini olaraq 2000 il qədər əvvəl yaşamış və ölmüşlər. Anası hz. Məryəm, hz. Zəkəriya (ə.s), onunla illərini keçirmiş həvariləri, dövrün yəhudi öndərləri və şəxsən hz. İsa (ə.s)-dan təbliğ almış insanlar vəfat etmişlər. Bu səbəbdən ikinci dəfə yer üzünə gəlişində, onun doğumuna, uşaqlığına, gəncliyinə və yetkinliyinə şahid olmuş tək bir kimsə olmayacaq və onun haqqında heç kim heç bir şey bilməyəcək. Tək bir uşaqlıq rəsmi olmayacaq; heç bir insan onun keçmişinə dair bir xatirəyə sahib olmayacaqdır.

Şübhəsiz, bu vəziyyət arada ortaya çıxan "saxta Məsih" təhlükəsini də tamamilə ortadan qaldırır. Hz. İsa (ə.s)-ın yer üzünə yenidən gəlişində, onun hz. İsa (ə.s) olduğundan şübhə edilə biləcək bir vəziyyət yaranmayacaq. Heç kim "bu adam hz. İsa (ə.s) ola bilməz" deyəcək bir səbəb tapa bilməyəcək. Çünki hz. İsa (ə.s) Allah Qatına yüksəldiyi halıyla, o zamanki paltarıyla gələcək, heç bir insanın əsla təqlid edə bilməyəcəyi üstün xüsusiyyətlərə sahib olacaq.

# Quran ayələrində bənzər nümunələr

Quran ayələrində uzun müddət ölü qaldıqdan sonra yenidən dirilmə, yüzlərlə il yuxuda qalma kimi hz. İsa (ə.s)-ın vəziyyəti ilə bənzəyən bəzi nümunələr yer alır. Bunlardan bəziləri bu şəkildədir:

# Yüz il sonra dirildilən adam

Bu nümunələrdən biri, "yüz il ölü qaldığı" xəbər verilən bir kimsənin həyatıyla əlaqəlidir:

**Və ya damları uçulub xarabalığa çevrilmiş bir kəndin yanından keçən kimsənin hekayətini bilmirsənmi? O demişdi: "Allah bu kəndi ölümündən sonra necə dirildəcək?" Allah onu öldürüb yüz il saxladı, sonra da dirildib dedi: "Nə qədər qaldın?" O dedi: "Bir gün yaxud bir gündən də az qaldım!" Allah dedi: "Əksinə, sən yüz il qaldın. Öz yeməyinə və içdiyin suya bax, hələ də xarab olmayıb. Uzunqulağına da bax! Biz səni insanlar üçün bir dəlil etdik. Sümüklərə bax, gör Biz onları necə bir-birinə birləşdirir, sonra da onların üstünü ətlə örtürük". Ona həqiqət bəlli olduqda: "Mən artıq bilirəm ki, Allah hər şeyə qadirdir!" - dedi. (Bəqərə surəsi, 259)**

Əvvəlki səhifələrdə ifadə etdiyimiz kimi ayələrdə hz. İsa (ə.s)-ın ruhunun alındığından bəhs edilir. Yuxarıda verdiyimiz ayədə isə tam bir ölüm (mevt) əsas mövzusudur. Bu səbəbdən qəti olaraq ölən bir insanın da Allahın diləməsiylə bu dünyada təkrar dirildildiyi Quranda bildirilən bir həqiqətdir.

## Kəhf Əhlinin illər sonra oyandırılmaları

Mövzuya işarə edən digər bir nümunə isə Kəhf surəsindəki "Əshabü Kəhf" hekayəsindədir.

Allah Kəhf surəsində, yaşadıqları dövrün din əleyhinə hökmdarının zülmündən qorunmaq üçün mağaraya sığınan bir qrup gəncdən bəhs edir. Bu hekayədə onların uzun illər yatdıqdan sonra təkrar oyandırıldıqları izah edilir. Ayələr belədir:

**Bir zaman gənclər mağaraya sığınıb: "Ey Rəbbimiz! Bizə Öz tərəfindən mərhəmət bəxş et və işimizdə bizə düz yol göstər!" – demişdilər. Biz mağarada onların qulaqlarını illərlə qapalı saxladıq (onları yuxuya verdik). (Kəhf surəsi, 10-11)**

**Onlar yatmış ikən sən onları oyaq hesab edərdin. Biz onları sağa-sola çevirirdik. Onların iti isə girəcəkdə qabaq pəncələrini uzadıb yatmışdı. Əgər sən onları görsəydin, dönüb onlardan qaçardın və dəhşət səni bürüyərdi. Beləcə onları oyatdıq ki, nə baş verdiyini bir-birindən soruşub öyrənsinlər. Onlardan biri: "Burada nə qədər qaldınız?" – dedi. Bəziləri: "Bir gün yaxud günün bir hissəsi qədər qaldıq" – dedilər. Digərləri də dedilər: "Qaldığınız müddəti Rəbbiniz daha yaxşı bilir. Birinizi bu gümüş pulunuzla şəhərə göndərin. Qoy baxsın ən təmiz yemək hansıdırsa, ondan sizə azuqə gətirsin. Amma ehtiyatlı olsun və sizin barənizdə heç kəsi duyuq salmasın! (Kəhf surəsi, 18-19)**

Quranda gənclərin mağarada neçə il qaldıqları tam olaraq xəbər verilmir. Bunun üçün illərlə sözü istifadə edildiyinə görə, müddətin çox qısa olmadığı buradan aydın olur. Həm də qalma müddətiylə əlaqədar insanların təxmini də olduqca uzun müddətdir, 309 il:

**Onlar mağarada üç yüz il, üstəlik doqquz il də qaldılar. De: "Onların nə qədər qaldıqlarını Allah daha yaxşı bilir. Göylərin və yerin qeybi ancaq Ona**

**məxsusdur. O, necə gözəl görür, necə də yaxşı eşidir! Onların Ondan başqa heç bir himayədarı yoxdur. O, Öz mülkünə heç kəsi şərik etməz!" (Kəhf surəsi, 25-26)**

Əlbəttə burada əhəmiyyətli olan müddətin qısa və ya uzun olması deyil. Bizim üçün əsas olan mövzu Allah bəzi insanları dünyadakı bildiyimiz həyatdan, yatırtmaq və ya canlarını almaq surətiylə uzaqlaşdırdıqdan sonra təkrar canlandırır. Eynilə yuxudan oyanan insanlar kimi bu kəsləri də təkrar həyata döndərməsidir. Hz. İsa da bu insanlardan biridir və zamanı gəldiyində təkrar dünya üzərində yaşayacaq, Allahın ona bəxş etdiyi şərəfli məsuliyyətini yerinə yetirdikdən sonra, **"Dedi ki: "Orada (dünyada) yaşayacaq, orada öləcək və oradan çıxarılacaqsınız." (Əraf surəsi, 25)** ayətin hökmü olaraq hər insan kimi dünyada öləcək (doğrusunu Allah bilir).

# Hədislərdə hz. İsa (ə.s)-ın ikinci gəlişi

Hədisi şəriflərdə, hz. İsa (ə.s)-ın yer üzünə dönüşü, dönmədən əvvəl və döndükdən sonra reallaşacaq müxtəlif hadisələr haqqında Peyğəmbərimiz (s.ə.v) çox əhəmiyyətli məlumatlar vermişdir. Peyğəmbərimiz (s.ə.v)-ın gələcək haqqında verdiyi məlumatlar "qeyb" xəbərlərindəndir. Allah ayələrdə dilədiyi elçilərinə qeyb məlumatlarını verəcəyini bildirmişdir:

**O, qeybi Biləndir və Öz qeybini heç kəsə açmaz; razı qaldığı elçidən başqa. Həqiqətən, Allah onların önündə və arxasında gözətçilər qoyur ki, (Cin surəsi, 26-27)**

Rəbbimiz Fəth surəsində də Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-ə yuxular vasitəsi ilə məlumat verdiyini xəbər vermişdir:

**Allah Öz Elçisinin həqiqət kimi gördüyü yuxusunu gerçəyə çevirdi. Allah qoysa, siz əmin-amanlıqla, başlarınızı qırxdırmış, bəziləriniz də saçlarını qısaltmış halda və qorxmadan Məscidul-Hərama daxil olacaqsınız. Allah sizin bilmədiklərinizi bilir. O, bundan qabaq (Məkkəyə girməzdən əvvəl sizə) yaxın bir qələbə də bəxş edəcəkdir. (Fəth surəsi, 27)**

Ayədə görüldüyü kimi, Rəbbimiz, Peyğəmbərimiz (s.ə.v)-ə müxtəlif qeyb xəbərləri vermişdir. Bu xəbərlər, Peyğəmbərimiz (s.ə.v)-ə və onunla birlikdə olan saleh möminlərə Allahın böyük dəstəyidir, köməyidir.

Peyğəmbərimiz (s.ə.v), Allahın bildirməsiylə, qiyamət əlamətləri ilə əlaqədar bir çox xəbər vermişdir. Hz. İsa (ə.s)-ın Axırzamanda yer üzünə ikinci dəfə gəlişi Peyğəmbərimiz (s.ə.v)-in gələcəklə əlaqədar verdiyi xəbərlər arasında əhəmiyyətli bir yerə malikdir. *Axırzamanla əlaqədar rəvayətlər səhih hədis qaynağı olan Kutubu Sittənin hamısına və ardından İmam Malikin Muvattası, İbn Huzeymə ilə İbn Hibbanın Səhihləri, İbn Hənbəl və Tayalisinin Müsnədləri kimi ən mötəbər hədis qaynaqlarına girmişdir.* Bu qaynaqlardan öyrəndiyimizə görə Peyğəmbərimiz (s.ə.v), hz. İsa (ə.s) ilə əlaqədar çox xüsusi

şərhlər etmişdir. Hz. İsa (ə.s)-ın ikinci gəlişi mövzusu, *"təvatür" (qüvvətli xəbər)* dərəcəsində bilinən bir mövzu olaraq hədis elmi içində yerini almışdır.

Peyğəmbərimiz Hz. Məhəmməd (s.ə.v) hədislərində, Axırzamanda din əxlaqının bütün dünya üzərində hakim olacağını, yer üzünə barış, ədalət və rifahın hakim olacağını bildirməkdədir. Peyğəmbərimiz (s.ə.v) bu hakimiyyəti Xristian dünyası ilə İslam dünyasını birləşdirəcək olan Hz. İsanın reallaşdıracağını bizlərə müjdələməkdədir. İndiki vaxtda yer üzündə mövcud olan din əleyhinə fəlsəfələrin tətbiqləri nəticəsində cəmiyyətlərin içinə aparıldığı vəziyyət ortadadır. Əxlaqsızlıq, narkotika, terror, qıtlıq və digər bir çox problem Xristian və İslam dünyasının bunlarla fikri olaraq mübarizə üçün birləşməsini tələb etməkdədir. Dünyanın indiki ictimai quruluşu Xristian və İslam ittifaqını sanki zəruri hala gətirmişdir. Xristianlığın dünya üzərindəki inkişaf etmiş ölkələrdə, liderlər səviyyəsindəki təsiri də göz qarşısında saxlanılsa önümüzdəki illərdə meydana gələ biləcək islam-Xristian ittifaqının nə dərəcə təsirli ola biləcəyi açıqca görülməkdədir.

## Hz. İsa haqqındakı hədislər təvatür dərəcəsindədir

Daha əvvəl də ifadə etdiyimiz kimi hz. İsa (ə.s)-ın gəlişi mövzusunda nəql edilən hədislər təvatür dərəcəsindədir. Bir çox tədqiqatçı da alimlərimizin görüşlərinin bu istiqamətdə olduğunu izah edirlər. Təvatürün tərifi lüğətdə belə edilir:

*Təvatür: Qüvvətli xəbər, içində yalan ehtimalı olmayan və bir camaata əsaslanan doğru xəbər deməkdir.*[8]

Hz. İsa (ə.s)-ın gəlişinin təvatür dərəcəsində hədislərlə bildirildiyinə dair xüsusi olaraq bir əsər qələmə alan böyük hədis alimi Şeyx Məhəmməd Ənvər əl Kəşmiri "Ət Tasrih bimə təvatəra fi nuzulil Mesih" adlı əsərində 75 hadisə, 25 səhabəni görənlərə aid əsərə yer vermişdir.

Hz. İsa (ə.s)-ın təkrar gələcəyini nəql edən alimlərin başında məzhəb imamımız İmamı Əzəm Əbu Hənifə gəlir. Əbu Hənifə, "Fiqhi Əkbər" adlı əsərinin son hissəsində bunları bildirir:

*"Dəccalın, Yəcüc və Məcücün çıxması, Günəşin qərbdən doğulması, İsa (ə.s)-ın göydən enməsi və digər qiyamət əlamətləri, səhih xəbərlərdə varid olduğu vəch ilə, haqdır, olacaq."*[9]

Hz. İsa (ə.s)-ın yer üzünə təkrar gəlişi mövzusu qiyamətin on böyük əlamətindən biridir və bir çox İslam alimi əsərlərində bu mövzunu təfərrüatlı olaraq ələ almışlar. Bu mövzudakı izahlar toplu halda qiymətləndirildiyində hz. İsa (ə.s)-ın ikinci gəlişi haqqında İslam alimləri arasında bir söz birliyi olduğu açıq şəkildə görülür. Hədislərin təvatür olduğu mövzusunda edilən bəzi izahlar belədir:

*"Şövqəni də İsa (ə.s)-ın enəcəyinə dair hədislərin sayının 29-a çatdığını söyləyərək, bunları bir-bir nəql etmiş və sonunda: "Bizim nəql etdiyimiz hədislər görüldüyü kimi təvatür həddinə çatdı. Bu bəyanımızla bu nəticəyə gəlinir ki, gözlənilən Mehdi haqqındakı hədislər, dəccal haqqında hədislər və İsa (ə.s)-ın enməsinə dair hədislər mütəvatirdir." demişdir."*[10]

Tirmizi, Əbu Davud, Bezzaz, İbni Macə, Hakim, Təbərani və Əbu Yala Musuli bu mövzu haqqında müxtəlif səhabələrdən rəvayətlər nəql etmişlər; Əli, İbni Abbas, İbni Ömər, Talha, İbni Məsud Əbu Hureyrə, Ənəs, Əbu Səid Hudri, Ümmi Həbibə, Ümmi Sələmə, Sevban, Qurrə ibn İyas, Əli Hilali və Abdullah ibn Həris ibn Cüzə bəzi sənədlərlə isnad etmişlər. Məsələn, İbni Həcəri Haysemi "əs-Sevaik-ul Muhrika" kitabında, Şebleənci "Nur-ul Ebsar" kitabında, İbni Sabbağ "əl-Fusul-ul Muhimmeə", Məhəmməd əs-Sabban "İsaf-ür Rağibin", Gənci-i Şafi-i "əl-Bəyan" kitabında, Şeyx Mənsur Əli "Ğayət-ul Məmul" kitabında, Suveydi "Səbaikik Zəhəb" adlı kitabda hz. İsa (ə.s)-ın gəlişiylə əlaqədar hədislərin mütəvatir olduğunu yazmışlar.[12]

Bu hədisləri Əhli Sünnə mühəddis və alimləri öz kitablarında yazmışlar. Məsələn: Əbu Davud, Əhməd Tirmizi, İbni Macə, Hakim, Nəsai, Təbərani, Ravyani, Əbu Nuaymı İsfahani, Deyləmi, Beyhaki, Səhləbi, Haməvəyni, Menavi, İbni Meğazili, İbni Cevzi, Məhəmməd-us Sabban, Maverdi, Gənci-i Şafi-i,

Səmanı, Harezmi, Şarani, Darakutni, İbni Səbbağı Maliki, Şəblənci, Muhibbuddin Tabəri, İbni Həcəri Haysəmi, Şeyx Mənsur Əli Nasıf, Məhəmməd ibn Talha, Cəlaluddin Suyuti, Şeyx Süleymanı Hənəfi, Kurtubi, Bağavi və digər alimlər bu mövzuya əsərlərində yer vermişlər.

İbni Kəsr Təfsirində, Zuxruf surəsinin 61-ci ayəsində keçən "İsa (ə.s)-ın qiyamət əlaməti olması" həqiqətini açıqlayarkən, hz. İsa (ə.s)-ın qiyamət qopmadan əvvəl enəcəyini bildirən rəvayətlərin təvatür dərəcəsinə gəldiyini bildirir. Şeyx Abdülfəttah Əbu Quddə də, hz. İsa (ə.s)-ın yer üzünə enib dəccalı yox edəcəyinə dair rəvayətlərin təvatür dərəcəsini tapdığını ifadə edir.[13] Əllamə muhaddis Kittaninin də "Nazmül-Mütənasır" adlı əsərində[14] eyni fikirləri müdafiə etdiyi görülür.

Mövzu haqqında əsərləri olan yazarların nəql etmələrindən də aydın olur ki, hədis qaynaqları çox zəngindir. Bundan əlavə, hz. İsa (ə.s)-ın gəlişinin Axırzamanda reallaşacaq qiyamət əlamətlərindən olduğunu bildirən hədislər də Buxari, Müslim kimi əsas hədis qaynaqlarında yer alır. Bu hədislərdən bəziləri belədir:

*Sizlər on əlaməti görmədikcə heç bir zaman Qiyamət qopmaz...* ***Biri də İsa (ə.s)-ın enməsi... (Müslim, Kitabı-l Fiten:*** *39)*

*Vallah Məryəm oğlu (Hz. İsa əleyhissalam), Fəccur-Ravha nam mövqedə, həcc etmək və ya Umrə etmək yaxud da hər ikisini də etmək üçün razılıq edəcək. (Müslim, Həcc 216, 1252)*

*Qiyamət, on əlamət görülmədikcə qopmaz: Duman, dəccal, Dabbətül ərz, Günəşin qərbdən doğulması, İsanın yer üzünə enməsi... (Huzeyfə bin Esid əl-Gifari (r.ə.), Böyük Hədis Külliyyatı, Rudani, 5-ci cild, səh. 362)*

*Nəfsim qüdrət əlində olan Allaha and içərəm ki, Məryəm oğlu İsanın ədalət sahibi olaraq enməsi yaxındır... (Əbu Hureyrə (r.ə.),* ***Buxari, Büyu 102, Mezalim 31, Ənbiya 49;*** *Müslim, İman 242 (155); Əbu Davud, Məlahim 14 (4324);* ***Tirmizi, Fitən 54 (2234))***

*İsa enəcək; **əmrləri:** "Haydı gəl, bizə namaz qıldır!" deyəcək. Buna qarşılıq: "Kiminiz kiminizin əmridir. Bu, Allahın bu ümmətə bir lütfü kərəmidir." deyəcək. (Müslim, Böyük Hədis Külliyyatı, Rudani, 5-ci cild, səh. 380)*

***Vallah şübhəsiz, Məryəm oğlu İsa enəcək, ədalətli hakim, hökmdar olaraq enəcək...** (Səhihi Müslim bi şərhin-Nevevi, cild 2, səh. 192. Kitabul-İman, Babı Nuzuli İsa İbni Məryəm, Kenzul Ummal, 14/332)*

***"İmamınız özünüzdən olduğu halda, Məryəm oğlu sizin içinizə endiyi zaman sizlər necə olarsınız?" (Əbu Hureyrə (r.ə.), Buxari, Ənbiya 50, 3265, 3/1272;** Müslim, İman 71,155,1/136; Beyhaki, Əsmə və Sifət 3265, 2/166)*

(Qiyamət əlamətləri mövzusuyla əlaqədar geniş məlumat üçün baxın: *"Qiyamət əlamətləri", Harun Yəhya, "Kültür" nəşriyyat, 2001)*

# Peyğəmbərimiz (s.ə.v) insanları hz. İsa (ə.s)-ın gəlişiylə müjdələmişdir

*Mənliyimə hakim olan şəxsə and içərəm ki, Məryəmin oğlunun ədalətli hakim olaraq sizə enməsi çox yaxındır. O, xaçı qıracaq, donuzu öldürəcək (Xristianlığa sonradan əlavə edilmiş batil inancları qaldıracaq), cizyəni qaldıracaq; mal çoxalacaq ki, kimsə onu qəbul etməyəcək. (Sünəni Tirmizi, 4/93)*

*Onunla (İsa ilə) mənim aramda heç bir peyğəmbər yoxdur. O şübhəsiz enəcək. Onu gördüyünüz zaman tanıyın! O, orta boylu, ağa çalan qırmızı rəngdədir. Sarı boyalı iki paltar içində olacaq. Yağış yağmasa da saçından su damlayacaqdır. İnsanlarla İslam üçün mübarizə edəcək. Dəccalı yox edəcək, sonra yer üzündə tam qırx il qalacaq. Sonra öləcək və namazını müsəlmanlar qılacaqlar. (Buxari, Müslim, Əbu Davud və Tırmizi, Böyük Hədis Külliyyatı, Rudani, 5-ci cild, səh. 380)*

*Həyatım əlində olan Allaha and içərəm ki, Məryəm oğlu (İsa aleyhissəlamın) ədalətli hakim olaraq sizin içinizə enməsi şübhəsiz yaxındır. O, salibi (xaçı) qıracaq, donuzu öldürəcək (Xristianlığa sonradan əlavə edilmiş batil inancları qaldıracaq), cizyəni qaldıracaq, mal o qədər çoxalıb daşacaq ki, heç kim mal qəbul etməyəcək. (Səhihi Müslim, 6/532)*

*İsa bin Məryəm ədalətli hakim və ədalətli imam olaraq enmədikcə qiyamət qopmayacaq. O, xaçı qıracaq, donuzu öldürəcək (Xristianlığa sonradan əlavə edilmiş batil inancları qaldıracaq), cizyəni qaldıracaq. Mal da o qədər çoxalacaq ki, heç bir kimsə mal qəbul etməyəcək. (Sünəni İbni Macə, 10/340)*

*İsa ibn Məryəm (ə.s) mənim ümmətim içində;*

*1) Ədalətli hakim və ədalətli imam olacaq,*

*2) Xaçı qırıb əzəcək və donuzu öldürəcək (Xristianlığa sonradan əlavə edilmiş batil inancları qaldıracaq).*

*3) (Zimmilərdən) Cizyəni qaldıracaq,*

*4) Qab su ilə dolduğu kimi yer üzü barışla dolacaq.*

*5) Din birliyi də olacaq, artıq Allahdan başqasına tapınılmayacaq. (Süneni İbni Macə, 10/334)*

*Yer üzü sanki ayağının altına səriləcək... Gözü uzaqları da görəcək... Kafirlərin qalalarını və kəndlərini görəcək... (Qiyamət əlamətləri, səh. 244)*

*Dəccal, hz. İsa (ə.s)-ı gördüyündə su içində duzun əriməsi kimi əriyər və qaçıb gedər. Həzrəti İsa (Dəccalın arxasından):*

*Mənim sənə endirəcəyim bir zərbə var, sən bu zərbədən heç xilas ola bilməzsən, deyər ona (Fələstindəki Babı Lüdd deyilən mövqedə yəni) Babı Lüddün şərq tərəfindəki babı Remlə yanında dəccalı yox edər. (Ölüm-Qiyamət-Axirət, səh. 496)*

# Hz. İsa (ə.s) dövründə yer üzü barışla dolacaq

*Qab su ilə dolduğu kimi yer üzü barışla dolacaq. Heç bir kimsə arasında bir düşmənlik qalmayacaq. Və bütün düşmənliklər, boğuşmalar, həsədləşmələr şübhəsiz itib gedəcək. (Səhihi Müslim, 1/136)*

*Döyüş (ustalığı) də ağırlıqlarını (silah və vəsaitlərini) buraxacaq. (Sünəni İbni Macə, 10/334)*

*Hərb (ustalığı) ağırlıqlarını (yəni silah vəsaitlərini) buraxar. (Ölüm-qiyamət-axirət və axirzaman əlamətləri, səh. 496)*

*Düşmənlik, küsmək və qısqanclıq ortadan qalxacaq. (Əbu Hureyrə r.ə, Böyük Hədis Külliyyatı, Rudani, 5-ci cild, səh. 379)*

*İslamdan başqa (heç bir dini) qəbul etməyəcək... Din muttəhid olacaq... Allahdan başqa heç bir kimsəyə və heç bir şeyə ibadət edilməyəcək... Zəkat qəbul edəcək kimsə olmayacağından zəkat və sədəqəni tərk edəcək... Zamanında xəzinələr və dəfinələr meydana çıxacaq. Qiyamət yaxınlaşdığını bildiyi üçün, çox mal qazanmağa rəğbət etməyəcək... İnsanlar arasında səbəbləri ortadan qalxdığı üçün kin və hüsumətə yer verməyəcək...*

*Zəhərli həşərat və heyvanlardan zəhəri aradan qaldıracaq, uşaqlar ilan və əqrəblərlə oynaşacaq... Onların uşaqlara bir zərəri toxunmayacaq. Qurd qoyunla otlayacağı halda qoyuna bir zərəri toxunmayacaq... Yer üzü sülh və salamatlıqla dolacaq, mübarizə və döyüşmək, müharibə və hücumlar ortadan qalxacaq... Yer üzü nəbatatını eyni Adəm (ə.s) zamanında olduğu kimi yetişdirəcək. Bir salxım üzümlə bir qrup insan doyacaq. Atlar sərbəst buraxılacaq, öküzlər lazım olmayacaq... Çünki yer üzü öz-özünə əkiləcək... (Qiyamət əlamətləri, səh. 242-243)*

*İsa (ə.s) ümmətim içində, ədalətli hakim, tam ədalətli imam (hökmdar) olar. (Xristianların) xaçını qırar, donuzu öldürər (Xristianlığa sonradan əlavə edilmiş batil inancları qaldıracaq), cizyə vergisini qaldırar, sədəqəni tərk edər, nə qoyuna nə də dəvəyə qarşı etibar edilməz. Bütün düşmənliklər, boğuşmalar zail olar, aradan qalxar... Yer üzü gümüş qab kimi olar və hz. Adəm zamanındakı kimi (bol) bitkilərini bitirər... (Ölüm-qiyamət-axirət, səh. 496)*

# Hz. İsa (ə.s) dövründə çox bolluq olacaq

***...** Mal da o qədər çoxalacaq ki, heç kimsə mal qəbul etməyəcək. (Sünəni İbni Macə, 10/340)*

*Məryəm oğlu (İsa) enər və dəccalı yox edər. Ondan sonra qırx il bol nemət içində yaşayarsınız. (Kitab ul Burhan Fi Əlamət-il Mehdiyy il Axırzaman, səh. 90)*

*Hər tərəfdə yemək qazanları qaynayacaq, misli görülməmiş bolluq yaşanacaq, mala rəğbət olmayacaq. (əl-Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 66)*

*İsa (ə.s)-ın zəkatı tərk etməsi də, malın bolluğu və zəkata möhtac kasıbın qalmaması səbəbiylədir. (Sünəni İbni Macə, 10/339)*

*Sonra İsa, ümmətimin içində ədalətlə hökm edəcək; xaçı qıracaq, donuzu öldürəcək (Xristianlığa sonradan əlavə edilmiş batil inancları qaldıracaq), cizyəni qaldıracaq, zəkatı buraxacaq. Nə qoyuna və nə də dəvəyə zəkat məmuru göndərilməyəcək. İnsanlar arasındakı düşmənliklər və kin qalxacaq. Əqrəb və ilanların zəhərləri olmayacaq, hətta bir uşaq əli ilə ilanla oynayacağı halda ilan onu sancmayacaq. Qız uşağı aslanı qaçmağa məcbur edəcəyi halda aslan ona zərər vurmayacaq. Qurd, qoyunlar arasında sanki bir çoban iti imiş kimi yanlarında duracaq. Qabın su ilə dolduğu kimi yer üzü din birliyi ilə*

*dolacaq. Allahdan başqa kimsəyə tapınılmayacaq. Müharibə, döyüş adına heç bir şey qalmayacaq. Qureyş qəbiləsindən hökmdarlığı alınacaq. Yer üzü gümüş süfrəsi kimi olacaq. Bitkisini Adəmin zamanındakı kimi bitirəcək. Bir salxım üzümlə bir nəfər doyacaq. Bir qrup insan tək narla doyacaq. Bir öküzün qiyməti bu qədər olacaq, bir neçə dirhəmlə bir at satın alınacaq."*

*Deyildi ki:*

*"Ey Allahın Elçisi! Niyə at o qədər ucuz olacaq? "*

*"Hərb olmayacağı üçün ona çox ehtiyac olmayacaq."*

*"Niyə öküz o qədər bahalı olacaq? "*

*"Yer üzünün hamısı əkiləcəyi üçün o, çox lazımlı olacaq. (Ibn Macə bənzərini Əbu Ümamədən nəql etdi, Böyük Hədis Külliyyatı, Rudani, 5-ci cild, səh. 370-372)*

*Sonra qırx il ömür sürəcək. Onun zamanında kimsə ölməyəcək. Adam, qoyun və heyvanlarına (haydı gedin, otlayın) deyəcək; onlar gedəcəklər, əkinin ortasından keçdikləri halda bir buğda belə ağızlarına almayacaqlar. İlan və əqrəblər kimsəyə əza etməyəcəklər. Yırtıcı heyvanlar qapılarının qarşısında dayanacaq, kimsəyə zərərləri toxunmayacaq. Adam bir ölçək buğdanı alıb öküzsüz və sapansız əkəcək, qarşılığında yeddi yüz ölçək buğda götürəcək. (İmam Suyuti, Qiyamət əlamətləri, Ölüm və diriliş, səh. 184)*

*Artıq o gün (elə bolluq olar ki, on ilə qırx adam arasında) bir camaat bir tək nar meyvəsindən yeyib doyarlar və o nar qabığının çanağı ilə də kölgələnərlər. Südlərə də Allah tərəfindən o dərəcə bərəkət lütf edilər ki, bir tək sağmal dəvənin südü böyük bir insan qrupuna kifayət edər. Bir sağmal malın südü insanlardan bir qəbiləyə kifayət edər. Bir sağmal qoyunun südü qohumlardan yaranan bir soy birliyinə kifayət edər. (Ölüm-qiyamət-Axirət, səh. 493)*

# Hz. İsa (ə.s) yeni din gətirməyəcək

*Qırx (40) il Allahın kitabı və mənim sünnəmlə hökm edər, vəfat edər. (Kitab-ul Burhan Fi Əlamət-il Mehdiyy il Axırzaman, səh. 92)*

*Hz. İsa Ümməti Məhəmmədə peyğəmbər olaraq deyil; Muhammədiyyənin şəriətini tətbiq etmək üçün gələcəkdir, deyir. (əl-Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 68)*

*Hz. İsa (ə.s) enəcək və Rəsulullahımız (s.ə.v)-ın şəriətinə tabe olacaq. (Məktubatı Rəbbani, 2/1309)*

*Hz. Məhəmməd (s.ə.v)-ın şəriəti üzərinə hökm verəcək, özü peyğəmbər olduğu halda peyğəmbərə tabe olacaq və Məhəmməd (ə.s)-ın ümmətindən olacaq. Peyğəmbərin ümməti və səhabəsi olacaq... Elə isə o, səhabələrin ən üstünü olacaq... (Qiyamət Əlamətləri, səh. 243)*

*Onunla (İsa ilə) mənim aramda heç bir peyğəmbər yoxdur. O şübhəsiz enəcək. Onu gördüyünüz zaman tanıyın! O, orta boylu, ağa çalan qırmızı rəngdədir. Sarı rəngli iki paltar içində olacaq. Yağış yağmasa da saçından su damlayacaq. İnsanlarla İslam üçün döyüşəcək. Məsihud-dəccalı yox edəcək, sonra yer üzündə tam qırx il qalacaq. Sonra öləcək və namazını müsəlmanlar qılacaqlar. (Buxari, Müslim, Əbu Davud və Tırmizi, Böyük Hədis Külliyyatı, Rudani, 5-ci cild, səh. 380)*

# Hz. İsa (ə.s)-ın xüsusiyyətləri

*1) Uzuna yaxın orta boylu*

*2) Rəngi qırmızı ilə ağa yaxın*

*3) Üzərində boyanmış iki paltar vardır.*

*4) O dərəcə təmiz ki, özünə yaş dəymədiyi halda başı su damladar kimidir. (Ölüm-qiyamət-Axirət və Axirzaman əlamətləri, səh. 499)*

*O qırmızı, buruq saçlı və geniş sinəlidir. O, salibi (xaçı) qıracaq (Xristianlığa sonradan əlavə edilmiş batil inancları qaldıracaq), cizyə üsulunu qaldıracaq, İslamdan başqa heç bir dini qəbul etməyəcək... Allahdan başqa heç bir kimsəyə və heç bir şeyə ibadət edilməyəcək. Hz. Məhəmməd (s.ə.v)-in şəriəti üzrə hökm verəcək, özü peyğəmbər olduğu halda peyğəmbərə tabe olacaq və Məhəmməd (s.ə.v)-ın ümmətindən olacaq, peyğəmbərin ümməti və səhabəsi olacaq. Çünki o, onu mirac gecəsi görmüşdür. Elə isə səhabələrin ən fəzilətlisi olacaq. (İmam Suyuti, Qiyamət əlamətləri, Ölüm və diriliş, səh. 182)*

*Gecə gəzdirildiyim zaman Musa (ə.s)-a qovuşdum. (Peyğəmbər onu təsvir edərək: ) Bir də gördüm ki, O Şənüə qəbiləsinin kişilərindən biri kimi qarayanız, uzun boylu, balıq ətli, düz saçlı bir şəxsdir. İsaya da qovuşdum (Peyğəmbər onu da təsvir edərək: ) İsa, orta boylu, sanki hamamdan çıxmış kimi al çöhrəli idi. (Səhihi Müslim, 2/1053)*

*Mən bu gecə yuxumda özümü Kəbədə gördüm. Qəflətən əsmər bir adam gördüm. Sanki o əsmər insanlardan ən gözəli, saçı iki çiyni arasına sallanırdı, saçları sanki (yeni) daranmış və yuyulmuş kimi su damlayırdı. İki əlini iki adamın iki çiyninə qoyaraq Beyti təvaf edirdi. (Orada olanlara) bu kimdir? deyə soruşdum. Onlar: "Bu Məryəmin oğlu Məsihdir (İsadır)" dedilər. (Səhihi Buxari, 9/177)*

## Hz. İsa (ə.s), Peyğəmbərimiz (s.ə.v)-ın qəbri yanına dəfn ediləcək

*İsa (ə.s) yer üzünə enəcək, evlənəcək uşaq sahibi olub, qırx beş il yaşayacaq, sonra öləcək, mənimlə eyni qəbirə basdırılacaq, sonra mən və İsa eyni qəbirdən Əbu Bəkir ilə Ömər arasından qalxacağıq! (Qiyamət əlamətləri, səh. 246-247)*

*Hz. İsa, yer üzündə ikən evlənəcək və bir uşağı olacaq. Öldüyündə, müsəlmanlar onun namazını qıldıqdan sonra Ravzaı Mutahharəyə dəfn edəcəklər. (əl-Kavlu Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 65)*

*Şübhəsiz ki, Məryəm oğlu İsa yer üzünə endiyi zaman evlənəcək, uşağı olacaq, yer üzündə 45 il qalacaq. (Miskatü-l Meşabih, 3/47)*

*Həzrəti İsa yer üzündə qırx il yaşadıqdan sonra vəfat edəcək. Müsəlmanlar onun cənazə namazını qılaraq dəfn edəcəklər. (Ölüm-qiyamət-Axirət və Axırzaman əlamətləri, səh. 498-499)*

*İbni Cevzinin Abdullah bin Ömər (r.ə)-dan nəql etdiyi bir rəvayətdə belə buyurulur: "İsa (ə.s) yer üzünə enəcək, evlənəcək, uşaq sahibi olub qırx beş il yaşayacaq sonra öləcək, mənimlə eyni qəbirə basdırılacaq, sonra mən və İsa eyni qəbirdən Əbu Bəkr ilə Ömər arasından qalxacağıq." (İmam Suyuti, Qiyamət əlamətləri, Ölüm və diriliş, səh. 1699, səh. 185)*

# İncil və Tövratda hz. İsa (ə.s)-ın yer üzünə dönüşü

Daha əvvəlki hissələrdə hz. İsa (ə.s)-ın gəlişi mövzusunun xristianlıq üçün çox əhəmiyyətli olduğunu ifadə etmişdik. Bunun səbəbi Kitabı Müqəddəsi meydana gətirən Əhdi-Ətiq (Tövrat və yəhudilərin digər müqəddəs yazıları) və Əhdi-Cədid (dörd İncil və digər risalələr) Axırzaman ilə əlaqədar şərhlərin olmasıdır. Xüsusilə hz. İsa (ə.s)-ın gəlişi mövzusu İncil mətnlərində əhəmiyyətli yer tutur.

Tövrat və İncildə gələcəkdə olacaq hadisələrlə əlaqədar müxtəlif izahlar edilmişdir. Bilindiyi kimi, indiki Tövratda hz. İsa (ə.s)-ın adı keçmir, ancaq hz. Davud soyundan qurtarıcı bir Məsihin gələcəyi bildirilir. Ayrıca Tövratın bəzi hissələrində az da olsa son zamanlarda olacaq olan hadisələrdən bəhs edilməkdədir. İncildə isə hz. İsa (ə.s)-ın ikinci gəlişi, bu müqəddəs hadisənin işarələri və son zamanlar haqqında çoxlu sayda izaha rast gəlmək mümkündür.

Quran ayələrində bizlərə Tövrat və İncilin zaman ərzində təhrif edildikləri və bu səbəblə də müxtəlif səhv inanclar olduqları xəbər verilir. Yəni bu kitablarda haqq hissələr ola biləcəyi kimi insanlar tərəfindən əlavə olunmuş, səhv məlumatlar da var. Bu səbəblə də Tövrat və İncildə yer alan izahları Quran ayələriylə və Peyğəmbərimiz (s.ə.v)-in hədisləriylə uyğun olduqları ölçüdə qiymətləndirmək lazımdır. Ancaq aşağıdakı nümunələrdə də görüləcəyi kimi Axırzaman və hz. İsa (ə.s)-ın yer üzünə ikinci dəfə gəlişiylə əlaqədar xəbərlərin böyük bir qismi, İslami qaynaqlarla böyük paralellik göstərir.

Tövratda Hz. İsanın insanlara peyğəmbər olaraq göndərilməsinə dair işarələr olduğu kimi, Axırzamandakı ikinci dəfə gəlişinə dair ifadələr də mövcuddur. Ancaq Yəhudilərin böyük qisimi Hz. İsanı göndərilən Məsih olaraq qəbul etməmiş, ona digər peyğəmbərlərdən bəzilərinə etdikləri kimi böyük əziyyətlər vermişlər.

Allah Bəqərə surəsində bu şəkildə buyurmaqdadır:

**Biz Musaya Kitab verdik və ondan sonra bir-birinin ardınca elçilər göndərdik. Biz Məryəm oğlu İsaya da açıq-aydın dəlillər verdik və onu müqəddəs ruhla (Cəbrail ilə) qüvvətləndirdik. Məgər hər dəfə sizə göndərilən**

**elçi ürəyinizə yatmayan bir şey gətirəndə siz təkəbbür göstərmədinizmi? Onların bir qismini yalançı hesab edib, bir qismini də öldürmədinizmi? (Bəqərə surəsi, 87)**

Məsih olaraq Hz. İsanı qəbul etməyən Yəhudilər, gələcəyini ümid etdikləri "həqiqi Məsih"i hələ də gözləməkdədirlər.

Xristianlar həm Tövratı, həm də İncili özlərinə qaynaq müqəddəs kitab olaraq gördüklərindən son zamanlarla əlaqədar mövzuları bu iki kitabı birlikdə şərh edərək açıqlamaqdadırlar. İncil araşdırıldığında, hz. İsa (ə.s)-ın ikinci dəfə yer üzünə gəlişinin təməl mövzulardan biri olduğu görülür. Bu açıqlamalarda hz. İsa (ə.s)-ın gəlişindən əvvəl və sonra meydana çıxacaq təbiət hadisələri, ictimai hadisələr izah edilir. İndiki vaxtda Peyğəmbərimiz (s.ə.v)-in də hədislərində təfərrüatlı olaraq bildirdiyi bu əlamətlərin çoxunun əvvəlki zamanlara müqayisədə diqqət çəkici tərzdə ortaya çıxdığına şahid olunur. (Geniş məlumat üçün baxın: Qiyamət əlamətləri, Harun Yəhya, "Kültür" nəşriyyat, 2001) Maraqlı olan bəhs olunan işarələrin biri və ya ikisinin deyil, demək olar hamısının bir-biri dalınca indiki vaxtda ortaya çıxmasıdır. Beləcə içində yaşadığımız zamanın Axırzaman olduğunu, başda İslami qaynaqlara görə, həm də Tövrat və İncilə əsaslanaraq söyləmək mümkündür.

# Tövratda vəd edilən Məsih

Tövratda gələcəyi vəd edilən, gəlişi və edəcəkləri haqqında bir çox məlumat verilən "Məsih", Quranda da ifadə edildiyi kimi, Hz. İsadır. Gözlənilən adam üçün, "Məsih" sözü xaricində, Məlik, Rəbb (əfəndi-təlimçi), Menahem kimi fərqli sifətlər istifadə edilmişdir.

Tövratda Məsihin gəlişindən bəhs edilərkən onun dünyada quracağı hakimiyyətə tez-tez toxunular. Millətlərə hökm etməsi, Hz. Davudun soyundan olması və ona bənzəməsi (Hz. Davud da öz zamanında gedə bildiyi bütün bölgələrdə hakimiyyət qurmuşdu) Məsihin təməl xüsusiyyətlərindəndir. Lakin Hz. İsa ilk gəlişində müharibələr etməmiş, yalnız peyğəmbərliyini insanlara açıqlamış, möcüzələr göstərmiş və Allahın ona vəhy etdiyi mesajları təbliğ

etmişdir. Bu vəziyyətdə Tövrat izahlarının bir qisminin Məsih İsanın ikinci gəlişinə baxdığını söyləmək mümkündür.

Məsih ilə əlaqədar Əhdi-Ətiqdə (Tövrat və digər müqəddəs yazılar) çox sayda izah vardır. Hamısına burada yer verilməmiş, lakin fikir verməsi məqsədiylə bir neçə nümunə göstərilmişdir:

*... Rəbb dünyanın uclarına hökm edəcək; və kralına qüvvət verəcək, və Məsihinin qüvvətini yüksəldəcək. (I Samuel 2: 10)*

*Və kralların günlərində göylərin Allahı əbədi olaraq xarab olmayacaq bir krallıq quracaq və onun hakimiyyəti başqa bir qövmə buraxılamayacaq və bu krallıqların hamısını O parçalayacaq və bitirəcək, və Özü əbədi olaraq dayanacaq. (Daniel, 2: 44)*

*Budur, özünə dəstək olduğum qulum... Ruhumu onun üzərinə qoydum; millətlər üçün haqqı meydana çıxaracaq. Qışqırmayacaq və səsini yüksəltməyəcək və onu küçədə eşitdirməyəcək. Əzilmiş qamışı qırmayacaq, və tüstüləyən fitili söndürməyəcək, haqqı həqiqətə çatdıracaq. Və dünyada haqqı gücləndirənə qədər zəifləməyəcək və cəsarəti qırılmayacaq və adalar onun şəriətini gözləyəcəklər... Mən, Rəbb, səni düzgünlüklə çağırdım, və əlini tutacağam, və səni qoruyacağam, və kor gözləri açasın, dustaqları zindandan, və qaranlıqda oturanları həbsxanadan çıxarasan deyə səni qövmə əhd, millətlərə işıq olaraq verəcəyəm. (İşaya, 42: 1-7)*

Tövrat izahlarından, gələcək olan Məsihin, onunla mübarizə edəcək bütün rəhbərliklərə qarşı üstün gələcəyi aydın olmaqdadır. Bu mübarizəsinin nəticəsində əzilmiş, kor, qaranlıqlarda, zindanda olaraq təsvir edilmiş insanlıq aləminə həqiqətləri göstərərək onları işığa qovuşduracaq.

Digər xüsusiyyətləri də belə izah edilmişdir:

*Və onun zövqü Rəbb qorxusunda olacaq; Və gözlərinin gördüyünə görə hökm etməyəcək, və qulaqlarının eşitdiyinə görə qərar verməyəcək; lakin*

*kasıblara ədalətlə hökm edəcək, və məmləkətin alçaqları üçün düzgünlüklə qərar verəcək... (İşaya, 11: 3-4)*

Hz. İsanın ikinci gəlişindəki hakimiyyəti əsnasında necə hökm edəcəyinə bağlı bu Tövrat izahları Quranda tərifi edilən peyğəmbər xüsusiyyətləriylə də böyük uyğunlaşma göstərməkdədir: Hz. İsa ədalətli, doğru qərar verən, sözləri çox təsirli və hikmətli, Allaha sadiq rəhbər olacaq. Bu xüsusiyyətlərə sahib üstün bir hökmdarın əli ilə Allah yer üzündə hüzur və sülhün yaşanmasını nəsib edəcək.

Tövratda Allahın varlığı və birliyinə olan imanın hakim olacağına dair bunlar izah edilməkdədir:

*"Və o gün baş verəcək ki işıq olmayacaq, işıldayanlar qaralacaq; lakin Rəbbin bildiyi bir gün olacaq; gündüz də olmayacaq; gecə də ola bilməyəcək və baş verəcək ki, axşamlanın işıq olacaq və o gündə baş verəcək ki, Yerusəlimdən (Qüds) diri sular çıxacaq onların yarısı şərq dənizinə, yarısı qərb dənizinə axacaq; yayda da qışda da belə olacaq. Və bütün dünya üzərində Rəbb kral olacaq; o gün Rəbb bir, və adı bir olacaq." (Zəkəriyya, 14: 6-9)*

Dəccalın Hz. İsa tərəfindən öldürülməsindən sonra Allaha şirk qoşan fikir sistemləri də tamamilə sona çatacaq. Tövrat izahlarında da bu açıqca görülməkdədir. Tövhid inancı bütün dünyaya hakim olacaq.

Tövratda bu dövrün digər xüsusiyyətlərini izah edən bir çox bənzətmələr edilmişdir:

*"Və qurd quzu ilə birgə oturacaq, və qaplan oğlaqla birlikdə yatacaq; və buzov və gənc aslan və yaxşı bəslənmiş davar da bir yerdə olacaq; və onları kiçik bir uşaq qoruyacaq. Və inəklə ayı otlanılacaq; onların balaları birlikdə yatacaq; və aslan davar kimi saman yeyəcək. Və əmzikdəki uşaq qara ilanın yuvası üzərində oynayacaq və süddən kəsilmiş uşaq əlini gürzənin üzərinə qoyacaq. Bütün müqəddəs dağımda zərər verməyəcəklər və həlak etməyəcəklər; çünki sular dənizi necə örtürsə, dünya da Rəbb bilgisi ilə dolu olacaq." (İşaya, 11: 6-9)*

Bu təsvirlər Hz. İsanın ikinci gəlişindən sonra hədislərdə tərifi edilən Qızıl dövrün xüsusiyyətləri ilə də çox böyük bənzərlik göstərməkdədir. (Geniş məlumat üçün baxın: Qızıl dövr, Harun Yəhya, "Vural" nəşriyyat)

## Hz. İsa (ə.s)-ın yer üzünə ikinci gəlişi ilə əlaqədar İncil açıqlamaları

*Hz. İsa (ə.s)-ın dönüşünə bağlı İncilin 210 hissəsində 318 fərqli izah vardır. Aşağıda bəzilərinə yer verəcəyimiz bu izahlarda hz. İsa (ə.s)-ın Allah Qatına alınması və yer üzünə geri gələcəyinə dair çox açıq ifadələr var:*

*... Sizdən göyə alınan bu İsa, göyə çıxdığını necə gördünüzsə, eyni şəkildə geri gələcəkdir. (Elçilərin İşləri, 1: 11)*

*Bunun üçün sizə, " Budur Məsih çöldədir" desələr getməyin. "Baxın, içəri otaqda" desələr inanmayın. Çünki Insan oğlunun gəlişi, şərqdə çaxıb qərbə qədər hər tərəfdən görülən şimşək kimi olacaq. (Matta, 24: 26-27)*

*Bunun üçün siz də hazır olun! Çünki Insan oğlu, ümid etmədiyiniz bir saatda gələcəkdir. (Matta, 24: 44)*

*Mübarək və tək Hökmdar, kralların Kralı, Rəblərin Rəbbi, ölümsüzlüyün tək sahibi. ...heç bir insanın görmədiyi və görə bilməyəcəyi Allah, Məsihi təyin olunan zamanda ortaya çıxaracaq. Qürur və qüdrət sonsuza qədər Onun olsun. Amin. (1 Timoteyə, 6: 15-16)*

*Bundan belə, düzgünlük tacı mənim üçün hazırdır. Ədalətli hakim olan Rəbb, o gün bu tacı mənə və tək mənə deyil, Onun gəlişini həsrətlə gözləyənlərin hamısına verəcək. (2 Timoteyə, 4: 8)*

*Allahın bu müjdəsi bütün xalqlara bir şahidlik olmaq üzrə bütün dünyada eşitdiriləcək və o zaman gələcəkdir. (Matta, 24: 14)*

*"O zaman insan oğlunun əlaməti göydə görünəcək. Yer üzündəki bütün xalqlar ağlayacaq. İnsan oğlunun göydəki buludlar üzərində böyük güc və görkəmlə gəldiyini görəcəklər." (Matta, 24: 30)*

*"Mələklər "Ey Cəliləlilər, niyə göyə baxırsınız?" deyə soruşdular. Sizdən göyə alınan bu İsa, göyə getdiyini necə gördünüzsə, eyni şəkildə geri gələcəkdir." (Həvarilərin İşləri, 1: 11).*

*"Və oradan Qurtarıcı olan ... İsa Məsihi gözləyirik." (Filipililərə, 3: 20).*

*"Budur, buludlarla gəlir! Hər göz onu görəcək...." (Vəhy, 1: 7)*

*Qardaşlar, çoxbilmişliyə qapılmanızın qarşısını alacaq bu sirdən xəbərsiz qalmanızı istəmirəm: İsraillilərdən bir hissəsinin ürəyi, digər xalqlardan xilas olacaq olanların sayı tamamlanana qədər həssaslığını itirmişdir. Nəticədə bütün İsrail xilas olacaq. Yazıldığı kimi: "Qurtarıcı, Siyondan gələcək və Yaqubun soyundan tanrısızlığı uzaqlaşdıracaq." (Romalılara, 11: 25-26)*

*Əncir ağacından dərs alın! Budaqları cücərib, yarpaqları yaşıllaşanda, yay mövsümünün yaxın olduğunu anlayarsınız. Eyni şəkildə, bütün bunların reallaşdığını gördüyünüzdə bilin ki, İnsan oğlu (İsa) yaxındır, qapıdadır. (Matta, 24: 32-33)*

Daha əvvəl də vurğuladığımız kimi hz. İsa (ə.s)-ın ikinci gəlişiylə meydana gələcək İslam əxlaqının bu hakimiyyəti, ədalətin, zənginliyin, gözəl əxlaqın hakim olduğu bir dövr olacaq. Bu mövzuda İncilin müxtəlif hissələrində verilən məlumatlardan bəziləri bunlardır:

*Nə xoşbəxt həlim olanlara; çünki onlar yerə mirasçı olacaqlar. (Matta, 5: 5)*

*Bunun üçün siz belə dua edin: ...Hakimiyyətin gəlsin. (Matta, 6: 9-10)*

*İnsanlar şərqdən-qərbdən, şimaldan-cənubdan gələcək və Allahın Hakimiyyətində süfrəyə oturacaqlar. Və sonuncu olan bəziləri birinci olacaq, birinci olan bəziləri də sonuncu olacaq. (Luka, 13: 29-30)*

Hz. İsa (ə.s)-ın ikinci gəlişi və bu dövrdə yaranacaq din əxlaqının dünya hakimiyyəti ilə əlaqədar izahlarda İslam dini ilə xristianlıq və yəhudilik arasında böyük uyğunlaşma olduğu açıqdır. Bu uyğunlaşma, üç dinin mənsublarının da önəmli gözləmə içində olmalarına vəsilə olmuşdur. Məhz indiki dövr, bu möcüzənin reallaşmasının ən çox gözlənildiyi və bəlkə də ən yaxın olduğu dövrdür. Bu isə bütün inananları şövqləndirəcək böyük müjdədir.

# Bədiüzzaman Səid Nursi müsəlmanları hz. İsa (ə.s)-ın gəlişi ilə müjdələmişdir

Hicri 13-cü əsrin ən böyük İslam alimlərindən biri olan Bədiüzzaman Səid Nursi, 1960-cı ildə Haqqın rəhmətinə qovuşana qədər, bütün ömrünü insanları Allaha iman etməyə və Quran əxlaqını yaşamağa dəvət edərək keçirmişdir. Bu mübarizədə çox əziyyət görmüş, ancaq o, yaşadığı həyatdan həmişə razı olmuş və başına gələn hər çətinliyi böyük təvəkküllə, səbirlə, sevinclə qarşılamışdır. Quran təfsiri olan Risaləyi Nur Külliyyatı, Bədiüzzamanın Allaha olan coşğulu sevgisini, dərin imanını və Allahın dininə olan bağlılığını açıqca ortaya qoyan çox hikmətli öyüdlərlə doludur. Bu səbəblə bu dəyərli insanın etdiyi izahlar və verdiyi nümunələr, bütün müsəlmanlar üçün çox əhəmiyyətli rəhbər hökmündədir.

Bədiüzzaman əsərlərində, Axırzaman və hz. İsa (ə.s)-ın yer üzünə ikinci dəfə gəlişi mövzularına çox geniş yer ayırmışdır. Xüsusilə vurğuladığı mövzuların başında isə hz. İsa (ə.s)-ın yer üzünə gəldiyi sırada dünya üzərindəki dinsiz fikir sistemlərini təmsil edən dəccaliyyət ilə çox böyük mübarizə icra edib, onu məğlub edəcək. Hz. İsa (ə.s), hz. Mehdi (ə.s) ilə birlikdə dinsizliyi ortadan qaldıracaq, Allahın haqq dininin əxlaqını dünya üzərində hakim edəcək, bunu edərkən də müsəlmanlarla birlikdə hərəkət edəcək.

Kitabın bu hissəsində Bədiüzzaman Səid Nursinin əsərlərinin müxtəlif hissələrində yer alan hz. İsa (ə.s) ilə əlaqədar izahlar ələ alınacaq.

## Hz. İsa (ə.s)-ın Allah Qatına alınması

Bədiüzzaman, "Məktubat" adlı əsərinin girişində 3 həyat təbəqəsindən bəhs edir: Bunlardan birincisi, bütün insanların hal-hazırda yaşadığı həyat təbəqəsidir. İkincisi isə hz. Xızırın yaşadığı həyatdır. Bədiüzzaman bu həyatı "... eyni vaxtda bir çox yerlərdə ola bilərlər. Bizim kimi bəşəriyyət ləvazımat ilə daimi bağlı deyildirlər. Bəzən istədikləri vaxt bizim kimi yeyərlər, içərlər; lakin

bizim kimi məcbur deyildirlər..." şəklində açıqlayır. Üçüncüsü isə hz. İsa (ə.s)-ın olduğu həyat təbəqəsidir.

Ustad Bədiüzzaman bu həyatla əlaqədar bu əhəmiyyətli açıqlamaları etmişdir:

*1) Üçüncü təbəqə həyat: Həzrəti İdris və İsa (ə.s)-ın yaşadığı təbəqədə həyatdır ki, bəşəriyyət levazımatından (lazımlı olanlar) təcərrüd (ayrılma, təmizlənmə) ilə, mələk həyatı kimi bir həyata girərək nurani lətafət kəsb edər (gözəllik qazanar). Sanki bədəni kimi lətafətində və cəsədi nəcmi nuraniyətində olan cismi dünyəviləriylə səmavatda olarlar. (Məktubat, səh. 6)*

Bədiüzzaman bu sözündə hz. İsa (ə.s)-ın insanların həyatlarını davam etdirmək üçün ehtiyac duyduqları hər şeydən uzaqlaşdığını, mələklərə bənzər bir həyata qovuşub nurani bir gözəllik qazandığını ifadə edir. Hz. İsa (ə.s)-ın ulduz kimi parlayan və bənzərsiz gözəllikdə olan dünyadakı bədəniylə Allah Qatında olduğunu açıqlayır.

Bədiüzzaman Səid Nursinin diqqət çəkdiyi bir başqa əhəmiyyətli mövzu isə, hz. İsa (ə.s)-ın ikinci dəfə dünyaya gəlişi haqqında şübhə içində olan cəmiyyətlərdir. Bədiüzzaman açıqlamalarında bütün kainatı yoxdan var edən, hər şeyə qadir olan Rəbbimizin hz. İsa (ə.s)-ı ikinci dəfə dünyaya gətirməyə müqtədir olduğunu xatırladır.

*2) Bəli hər zaman səmavatdan məlaikələri yerə göndərən və bəzi vaxtda insan surətinə vəz edən (Həzrəti Cəbrayılın "Dıhyə" surətinə girməsi kimi) və ruhaniləri aləmi ərvahdan (ruhlar aləmindən) göndərib bəşər surətinə təməssül etdirən (bənzədən), hətta ölmüş övliyaların çoxlarının ərvahlarını (ruhlarını) cəsədi misalıyla dünyaya göndərən bir Hakimi Zülcəlal, Həzrəti İsa əleyhissalamı, İsa dininə aid ən mühüm bir hüsnü xəttiməsi (gözəl nəticə) üçün, səması dünyada cəsədiylə olan və həyatda olan Həzrəti İsa, bəlkə aləmi axirətin ən uzaq nöqtəsinə getsəydi və həqiqətən ölsəydi, yenə belə bir nəticə-i əzmə üçün ona yenidən cəsəd geydirib dünyaya göndərmək, o Hakimin hikmətindən uzaq deyil... bəlkə onun hikməti elə iktiza etdiyi üçün (lazım olduğu üçün) vəd etmiş və vəd etdiyi üçün əlbəttə göndərəcək. (Məktubat, 15-ci məktub, səh. 56-57)*

Bədiüzzaman bu sözündə mələkləri insan surətində yer üzünə göndərən, kainatdakı bildiyimiz və bilmədiyimiz bütün aləmlərin tək sahibi olan, aləmlərin Rəbbi olan Allahın hz. İsa (ə.s)-ı da istədiyi surətdə yenidən dünyaya geri gətirə biləcəyini söyləyir. Hz. İsa (ə.s)-ın belə əhəmiyyətli bir dövrdə və belə şərəfli bir vəzifə üçün yenidən dünyaya gələcəyini vəd edən Rəbbimiz, mütləq vədini yerinə yetirəcək.

## Hz. İsa (ə.s) gəldiyində imanın nuru ilə tanınar

Kitabın əvvəlki hissələrində də vurğuladığımız kimi, hz. İsa (ə.s)-ın dünyaya ikinci dəfə gəldiyində necə tanınacağı həmişə maraq mövzusu olmuşdur. Bədiüzzaman əsərlərində bu mövzunu da açıqlayır, hz. İsa (ə.s)-ın imanın nuru ilə tanınacağını söyləyir. Ustadın üzərində durduğu bir başqa mövzu isə, hz. İsa (ə.s)-ı hər kəsin tanıya bilməyəcəyi, yalnız ona yaxın olan kəslərin və imanda dərinləşmiş olanlar onu tanıya biləcəklər.

*1) Həzrəti İsa əleyhissalam gəldiyi vaxt, hər kəs onun həqiqi İsa olduğunu bilməsi lazım deyil. Onun mukarrəb (yaxınları) və havassı (dindarlar və mənəvi dərəcəsində üstün olanlar), iman nuruyla onu tanıyar. Yoxsa bədahət (aşkarlıq) dərəcəsində hər kəs onu tanımayacaq. (Məktubat, 15-ci məktub, səh. 56-57)*

Bədiüzzaman bir başqa açıqlamasında hz. İsa (ə.s)-ı tanıyanların sayca çox az olacaqlarından, dünya üzərindəki dinsiz güclərin daha güclü olacağından bəhs edir:

*2) Rəvayətdə var ki: (İsa əleyhissalam dəccalı öldürdüyü münasibətiylə) "Dəccalın fövqəladə böyük və minarədən daha yüksək bir əzəməti heykəldə və Həzrəti İsa əleyhissalam ona nisbətən çox kiçik olduğunu" göstərir. Bunun bir izahı bu olmalıdır ki: İsa əleyhissalamı iman nuruyla tanıyan və tabe olan camaatı ruhaniyə-i mücahidinin kəmiyyəti (miqdarı), dəccalın məktəb və əsgər*

*cəhətdən, elmi və maddi ordularına nisbətən çox az və kiçik olmasına işarə və kinayədir. (Şüalar, səh. 588-589)*

Bədiüzzaman bu sözləriylə hz. İsa (ə.s)-a tabe olacaq camaatın ilk başlarda sayca az olacağına diqqət çəkir.

**"...Dəccalın məktəb və əsgər cəhətdən, elmi və maddi ordularına..."**: Bədiüzzaman bu ifadəylə hz. İsa (ə.s)-ın qarşısında olacaq dinsiz güclərin həm təhsil heyətləri, həm əsgəri güc, həm də maddi baxımdan çox güclü olacaqlarını ifadə edir. **"...camaatı ruhaniyəii mücahidinin..."**: Bu ifadəylə hz. İsa (ə.s)-a tabe olan birliyi təsvir edir. "Camaat" ifadəsiylə bu kəslərin bir yerdə olduqlarına, birlikdə hərəkət etdiklərinə işarə edilir. Bu "camaat" dinsiz güclərin hakim olduğu yerlərdə din əxlaqını hakim etmək üçün böyük səy göstərəcək, ixlasla Allah yolunda çalışacaq, böyük fikri mübarizə icra edəcək. "Ruhani" ifadəsi isə bu camaatdakıların səmimi iman etmiş, hadisələrin görünən istiqamətləriylə bərabər gizli istiqamətlərini də yaşayan bir birlik olduğuna diqqət çəkir. "Mücahidin" sözü isə bu camaatın Allah yolunda səy göstərən, Allahın dinini yaymaq üçün dünya səviyyəsində böyük təbliğ fəaliyyəti icra edən bir birlik olduğuna işarədir.

## Hz. İsa (ə.s) İslam dini ilə hökm edəcək, Qurana tabe olacaq

Bədiüzzaman Səid Nursi, dinsiz ideologiyaların hakim olduğu belə bir dövrdə hz. İsa (ə.s)-ın yenidən dünyaya dönəcəyini müjdələyir. Ustadın aşağıdakı sözlərində xəbər verdiyi kimi, hz. İsa (ə.s) yer üzünə ikinci dəfə gəlişində Quranla hökm edəcək, Qurana tabe olacaq. Xristianlıq ilə müsəlmanlar birləşərək dinsizlik axınına qarşı Quran əxlaqını yaşayaraq üstün gələcəklərdir. Risaləi Nurda bu mövzuyla əlaqədar izah edilənlər belədir:

*1) Axırzamanda Həzrəti İsa (ə.s) gələcək, Şəriəti Məhəmmədiyə (ASM) ilə əməl edəcək tərcüməsindəki hədisin sirri budur ki: Axırzamanda fəlsəfəi-tabiiyənin (təbiət fəlsəfəsi) verdiyi cərəyanı küfrüyə (inkarçı hərəkət) və inkarcı ülumiyyətə (Allahı inkar) qarşı İsəvilik dini tasaffi edərək (təmizlənərək) və*

*xurafatdan təcərrüd edib (xurafatlardan təmizlənib) İslamiyyətə inqilab edəcəyi bir vaxtda, necə ki, İsəvilik şəxsi mənəvisi, vəhyi səmavi qılıncı ilə dinsizliyin şəxsi mənəvisini öldürər; elə də hz. İsa (ə.s), İsəvilik şəxsi mənəvisini təmsil edərək, dinsizliyin şəxsi mənəvisini təmsil edən dəccalı öldürər (mənən yox edər)... yəni inkarı üluhiyyət fikrini öldürəcək. (Məktubat, səh. 6)*

**"...fəlsəfəi-tabiiyənin verdiyi cərəyanı küfrüyə və inkarı üluhiyyətə (Allahı inkar) qarşı...":** Bədiüzzaman hz. İsa (ə.s)-ın darvinizmin meydana gətirdiyi inkarçı hərəkətə və Allahın varlığını inkar edənlərə qarşı böyük bir mübarizə icra edəcəyini ifadə edir.

**"...İsəvilik dini tasaffi edərək (təmizlənərək) və xurafatdan təcərrüd edib (çəkinərək) İslamiyyətə inqilab edəcəyi..."** Bədiüzzaman bu hikmətli şərhində hz. İsa (ə.s)-ın Axırzamanda təkrar dünyaya gəldiyində İslam dininin hökmlərinə görə hərəkət edəcəyi istiqamətindəki hədisi təfsir edir. Hz. İsa (ə.s)-ın mübarizəsi müxtəlif xurafatlar və ənənələrlə əslindən uzaqlaşan xristianlığın əsl halına dönməsi ilə başlayacaq. Hz. İsa (ə.s) xristianlığı bütün batil xurafatlardan təmizləyəcək və daha sonra da İslamiyyətə dönəcək.

Beləcə xristianlar və müsəlmanlar birlik olub, dünya üzərində böyük güc yaradacaqlar. Hz. İsa (ə.s) bu dinsiz sistemin hamısını ifadə edən dəccalı fikirlə yox edəcək, inkarçı sistemləri tamamilə yer üzündən ləğv edəcək.

*2) Məhz belə bir sırada, o cərəyan çox qüvvətli göründüyü bir zamanda, hz. İsa (ə.s)-ın şəxsiyyəti mənəviyəsindən ibarət olan həqiqi İsəvilik dini zühur edəcək, yəni rəhməti ilahiyyənin səmasından nüzul edəcək; xristianlıq dini o həqiqətə qarşı tasaffi (saflaşacaq) edəcək, xurafatdan və təhrifdən sıyrılacaq, hakaiki-İslamiyə ilə birləşəcək; mənən xristianlıq bir cür İslamiyyətə inqilab edəcək... (Məktubat, səh. 53)*

Bədiüzzaman yuxarıdakı sözündə dinsizliyi təmsil edən dəccalın ətrafda çox qüvvətli olduğuna diqqət çəkir. Məhz bu dövrdə hz. İsa (ə.s) Allahın rəhməti sayəsində təkrar yer üzünə gələcək və beləcə gerçək xristianlıq ortaya çıxacaq. Daha əvvəl də vurğuladığımız kimi, hz. İsa (ə.s)-ın ilk edəcəyi şey, vəhy edilməsindən sonra müxtəlif təhrifə uğrayan xristianlıq dinini əslinə çevirmək, bütün batil tətbiqləri, azğın inancları, əsli olmayan tətbiqləri, gərəksiz ənənə və qaydaları ortadan qaldırmaq olacaq. İki min ildən bu yana

öz əslindən uzaqlaşmış xristianlığı öz gerçək halına çevirə biləcək tək adam hz. İsa (ə.s)-dır. Belə bir dəyişiklik də bu günə qədər reallaşmamışdır.

**"...hakaiki-İslamiyə ilə birləşəcək; mənən xristianlıq bir cür İslamiyyətə inqilab edəcək...":** Xristianlığın saf halına dönərək vəhy edildiyi özünə geri döndükdən sonra, Allahın son haqq dini və Allah Qatında tək etibarlı din olan İslamın həqiqətləriylə birləşəcək və İslama çevrilməyə başlayacaq.

*3) Və Qurana iktida (uyğun gəlmək, tabe olmaq) edərək, o İsəvilik şəxsi mənəviyə tabe və İslamiyyət, mətbu (tabe olunan) mövqeyində qalacaq. Haqq dini, bu iltihak nəticəsində əzmli qüvvət qazanacaq. Dinsizlik cərəyanına qarşı ayrı-ayrı məğlub olan İsəvilik və İslamiyyət birlik nəticəsində, dinsizlik cərəyanına qələbə çalıb onu məhv etmə istedadında ikən; aləmi səmavatda cismi bəşərisiylə olan şəxsi İsa (ə.s), o haqq dini cərəyanının başına keçəcəyini, bir Müxbiri Sadiq (Hz. Məhəmməd (s.ə.v)), bir Qadiri-Küllü Şey vəd edərək xəbər vermişdir. Madam xəbər vermiş, haqdır; madam Qadiri-Küllü Şey vəd etmiş, əlbəttə edəcək. (Məktubat, səh. 54)*

**"...Qurana iktida (uyğun gəlmək, tabe olmaq) edərək, o İsəvilik şəxsi mənəvisi tabe; və İslamiyyət, mətbu mövqeyində qalacaq..":** Xristianlığın hz. İsa (ə.s) ilə başlayacaq bu çevrilməsi, son kitab olan və hər kəsin inanmaqla mükəlləf olduğu Qurana tabe olmaqla nəticələnəcək. Hz. İsa (ə.s)-ın şəxsi və ona tabe olan xristianlıq İslama tabe olacaq.

**"...Dinsizlik cərəyanına qarşı ayrı-ayrı məğlub olan İsəvilik və İslamiyyət birlik nəticəsində, dinsizlik cərəyanına qələbə çalıb onu məhv edəcək...":** Hz. İsa (ə.s) liderliyindəki xristianlıq Qurana tabe olduğunda çox böyük güc meydana gələcək. Çünki indiki vaxtda dünyanın ən böyük iki dini olan xristianlıq və müsəlmanlıq həm siyasi, həm iqtisadi, həm də mənəvi istiqamətdən çox böyük iki qüvvətdirlər. Bu səbəblə də dinsiz ideologiyalar qarşısında birləşdiklərində çox böyük bir güc qazanaraq dinsizlik axınlarını fikirlə yox edib, məhv edəcəklər. İnsanları həyatlarının gerçək məqsədindən uzaqlaşdıran, eqoist, sevgisiz, qarşıdurmaçı bir həyata itələyən materialist fəlsəfə və dinsizliyin dünya üzərindəki təsirləri iki dinin birləşməsiylə ortadan qalxacaq.

**"...cismi bəşərisiylə olan şəxsi İsa (ə.s), o dini haqq cərəyanının başına keçəcəyini...":** İki dinin ittifaqı və xristianların Qurana tabe olması ilə dünyada

əhalinin əksəriyyətinə sahib olacaq iki din, tək bir səs və tək bir bədən kimi hərəkət edəcək. Bədiüzzaman bu sözündə hz. İsa (ə.s)-ın yer üzünə gəlib, dinsizliyi fikirlə yerlə bir edəcəyini Peyğəmbərimiz (s.ə.v)-ın hədislərində xəbər verdiyini xatırlatmış və bu səbəblə də bu xəbərin mütləq reallaşacaq haqq məlumat olduğunu söyləmişdir.

## Hz. İsa (ə.s)-ın dinsiz axınlara qarşı mübarizəsi

Bədiüzzaman Səid Nursi Axırzamanla əlaqədar olan açıqlamalarında, iki fəlsəfi axının yer üzündə təxribatçılıq çıxaracağını və bu axınların dinsizliyi hakim etmək üçün səy göstərəcəklərini vurğulayır. Bu axınlardan birincisi İslam əxlaqını daxildən degenerasiyaya uğratmağa çalışacaq. İkincisi isə Allahı açıq şəkildə inkar edən, maddənin əzəldən bəri var olduğunu, sonsuza qədər də var olacağını qarşıya qoyan və canlıların cansızdan təsadüfən ortaya çıxdığını müdafiə edən materialist və təbiətçi fikir, yəni materializm və darvinizmdir.

Bu təyin etmə əlbəttə Allahın varlığını inkar edən bütün fikir axınlarına da təməl təşkil etmişdir. Materialistlər tarixin ən qədim çağlarından bəri bütün haqq dinlərə qarşı cəbhə almışlar, bu yolda qarşılarına çıxanlarla mübarizə etmiş, xalqlara zülm etmiş, döyüşlər çıxarmış, hər cür degenerasiyanın ən ön mərhələlərində iştirak etmişlər. Hz. İsa (ə.s) da yer üzünə təkrar döndüyündə bu materialist və darvinist fikirlə mübarizə edəcək və Allahın icazəsiylə onlara qarşı qalib gələcəkdir.

Bədiüzzaman, külliyyatında bu materialist axına belə diqqət çəkir:

*1) Tabiiyyun, maddiyyun fəlsəfəsindən doğan bir cərəyanı Nəmrudanə, getdikcə Axırzamanda fəlsəfəi-maddiyə vasitəsiylə intişar edərək qüvvət tapıb, üluhiyyəti inkar edəcək bir dərəcəyə gəlir... Allahı inkar edən o cərəyan əfradları, kiçik bir Nəmrud hökmündə nəfslərinə bir ağalıq (İlahlıq) verər. Və onların başına keçən ən böyükləri, ispirtizma (ölülərlə xəbərləşmənin mümkün olduğuna inanan görüş) və maqnetizmin (bəzi hərəkətlərlə başqasına təsir etmə-hipnoz) hadisə növündən müdhiş möcüzələrə məzhər olan dəccal isə;*

*daha irəli gedib, cəbbaranə suru (xarici görünüşə aid) hökumətini bir cür ağalıq təsəvvür edib üluhiyyətini elan edər. (Məktubat, 15-ci məktub, 56)*

Bədiüzzaman bu sözündə tabiiyyun və maddiyyun fəlsəfələrinin cəmiyyət üzərindəki dağıdıcı təsirləri üzərində dayanır. Ustadın "təbiətçilik, yəni təbiətə tapınma və materializm, yəni yalnız maddənin varlığını qəbul etmə xəstəliyi" olaraq təyin edə biləcəyimiz bu ifadəsi, dinsizliyin təməlini meydana gətirən materializm və darvinizmə diqqət çəkir. Axırzamanda bu iki fəlsəfə materialist fəlsəfə vasitəsiylə bütün dünyada yayılacaq, Allahın varlığını açıqca inkar edər bir vəziyyət alacaq. Bu axınların mənsubları Allahın sonsuz güc və qüdrətini öz zəif ağıllarına görə inkar edib, özlərinin müstəqil güclərə sahib olduqları yanılmasına qapılarlar.

Bədiüzzaman dəccal və meydana gətirdiyi dinsiz qüvvət ilə əlaqədar bu tərifi edir:

*2) Həm aləmi insaniyyətdə inkarı üluhiyyət niyyətiylə mədəniyyət və müqəddəsatı bəşəriyəyi zirü zəbər (qarmaqarışıq) edən dəccal komitəsini, hz. İsa (ə.s)-ın dini həqiqisini İslamiyyətin həqiqətiylə birləşdirməyə çalışan hamiyətkar və fədakar bir İsəvi camaatı adı altında və "Müsəlman İsəviləri" ünvanına layiq bir cəmiyyət, o dəccal komitəsini, hz. İsa (ə.s)-ın riyasəti altında öldürəcək və məhv edəcək; bəşəri, inkarı üluhiyyətdən qurtaracaq. (Məktubat səh. 441)*

*"...* **inkarı üluhiyyət niyyətiylə mədəniyyət və müqəddəsatı bəşəriyəyi zirü zəbər...":** Bədiüzzaman, dəccal və onun təmsil etdiyi dinsiz axınları "Allahın varlığını inkar məqsədiylə mədəniyyəti və insanların müqəddəratlarını qarışdıran" bir birlik olaraq təyin edir.

"... **Həzrəti İsa əleyhissalamın dini həqiqisini İslamiyyətin həqiqətiylə birləşdirməyə çalışan hamiyətkar və fədakar bir İsəvi camaatı adı altında və "Müsəlman İsəviləri" ünvanına layiq bir cəmiyyət...":** Bütün təhriflərdən təmizlənilən gerçək xristianlığın İslam dini ilə birləşməsi üçün səmimiyyətlə, fədakarcasına səy göstərən hz. İsa (ə.s) və səmimi İsəviləri Bədiüzzaman "Müsəlman İsəvilər" olaraq təyin edir. Hz. İsa (ə.s) öndərliyindəki bu müsəlman İsəvilər camaatı, dəccaliyyətin dinsiz fikir sistemlərini ortadan qaldıracaq.

*3) "O qədər qüvvətlidir və davam edərki, tək hz. İsa (ə.s) onu öldürər, başqa çarə olmaz." rəvayət edilmiş. Yəni, onun peşəsini və hiyləgər rejimini pozacaq, öldürəcək; ancaq səmavi və ülvi, xalis bir din İsəvilərdə zühur edəcək və həqiqəti Quraniyəyə iqtida və ittihad edən bu İsəvi dinidir ki, hz. İsa (ə.s)-ın nüzulu ilə o dinsiz peşə məhv olar və ölər. Yoxsa onun şəxsi, bir mikrob, bir soyuqdəymə ilə öldürülə bilər. (Şüalar, səh. 581)*

Bədiüzzaman bu hikmətli sözündə dəccalı ancaq hz. İsa (ə.s)-ın yox edə biləcəyinə işarə edən hədislərə diqqət çəkmişdir. Dəccalın məskun nizamını, təcavüzkar rejimini ortadan qaldıracaq olan, dinsizliyi insanlar arasında yaymaq və müqəddəsatı pozaraq təsvir edilən peşəsini pozacaq olan hz. İsa (ə.s), ona tabe olan səmimi İsəvilər və xurafatlardan sıyrılıb Qurana təslim olan xristianlardır. Hz. İsa (ə.s)-ın yer üzünə ikinci dəfə gəlişi ilə dəccalın dinsiz peşəsi yox olacaq.

**"O dinsiz peşə məhv olar, ölər. Yoxsa onun şəxsi, bir mikrob, bir soyuqdəymə ilə öldürülə bilər":** Bədiüzzaman burada çox əhəmiyyətli bir mövzuya diqqət çəkir. Əhəmiyyətli olan dinsizliyi insanlar arasında yaymaq üçün səy göstərən insanları tək-tək fikirlə təsirsiz hala gətirmək deyil, dinsiz axınların yaşamasına imkan verən, onlara sözdə dayaq təmin edən bütün fikri sistemlərin ortadan qaldırılmasıdır. Yoxsa kəslərin tək-tək fikirlə təsirsiz hala gətirilməsi çox asandır.

*4) Sehr və maqnetizm və ispirtizma (ruh çağırma) kimi istidraci (inkarçıların inkarlarını artıran hadisə) möcüzələriylə özünü mühafizə edən və hər kəsi tabeliyinə alan o dəhşətli dəccalı öldürə biləcək (mənən yox edəcək), peşəsini dəyişdirəcək; ancaq gözəl, möcüzəli və kütlənin məqbulu bir şəxs ola bilər ki: O şəxs, ən çox əlaqədar və əksər insanların peyğəmbəri olan hz. İsa (ə.s)-dır. (Şüalar, səh. 587)*

Bədiüzzaman bu sözündə də müxtəlif aldatıcılarla insanların inkarlarını daha da artırmaq üçün səy göstərən dinsiz axınları ortadan qaldıra biləcək, özünə peşə olaraq aldığı bu səyindən dəccalı çevirə biləcək tək adamın hz. İsa (ə.s) olduğunu ifadə edir.

*5) Böyük dəccal, şeytanın azdırması və hökmü ilə şəriəti İsəviyənin ehkamını qaldırıb xristianların həyatı ictimaiyələrini (ictimai həyat) idarə edən rabitələri pozaraq, anarxistliyə və Yəcüc və Məcücə zəmin hazırlayar. (Şüalar, səh. 593)*

Bədiüzzaman dünya üzərindəki dinsiz fikir sistemlərinin hamısını birdən təyin etmək üçün istifadə etdiyi dəccalın, İsəviliyin bütün dini hökmlərini ortadan qaldırmağı, ictimai həyatı təşkil edən bütün mənəvi bağlarını pozaraq bu kəsləri təxribatçılığa, üsyankarlığa və anarxizmə təşviq edən bir axın olduğunu ifadə edir.

Bədiüzzaman, hz. İsa (ə.s) və onunla birlikdə olan İsəvilərin dinsiz axınları məhv etməsini isə bu şəkildə təyin edir:

*6) Şəxsi İsa (ə.s)-ın qılıncı və öldürülən dəccalın, təşkil etdiyi dəhşətli maddiyunluq və dinsizlik əzəmətli heykəli və şəxsi mənəvisini məhv edəcək ancaq İsəvi ruhaniləridir ki; o ruhanilər, dini İsəvinin həqiqətini, həqiqəti İslamiyə ilə qarışdıraraq qüvvətlə onu dağıdacaq, mənən öldürəcək... (Şüalar, səh. 493)*

**"dəhşətli maddiyunluq və dinsizlik əzəmətli heykəli**: Bədiüzzaman bu sözləriylə dünyanın dörd bir tərəfini təsiri altına almış materialist axınları böyük bir heykələ bənzədir. Bu heykəl bəhs edilən axınların məskun və qüvvətli olduqlarına bir işarə ola bilər. Böyük bir heykəli yıxmaq, yerindən sökmək olduqca çətindir. Ancaq bu heykəlin yıxılmasıyla maddiyunluq və dinsizlik həm maddi, həm də mənəvi olaraq ortadan qalxacaq.

**"dini İsəvinin həqiqətini, həqiqəti İslamiyə ilə qarışdıraraq"**: Hz. İsa (ə.s) ikinci dəfə dünyaya gəldiyində Allahın son kitabı olan Qurana tabe olacaq, pozulmuş xristianlığı gerçək halına çevirib gerçək İslamla birləşdirəcək.

**"qüvvətlə onu dağıdacaq, mənən öldürəcək"**: Allahın iki haqq dini birləşdiyində geniş mənada çox böyük bir güc qazanacaq. Dünyanın dörd bir tərəfində hakim ideologiya olan materializmi fikirlə məğlub edəcəklər və insanlar üzərindəki bütün təsirini yox edəcəklər.

Bədiüzzaman Səid Nursi, hz. İsa (ə.s)-ın yer üzünə ikinci dəfə dönüşünü izah etdiyi bütün şərhlərində onun o dövrdəki bütün inkarçı sistemləri ortadan

qaldıracağına və bunu edərkən də müsəlmanlarla birlikdə hərəkət edəcəyinə işarə edir. Hz. İsa (ə.s), hz. Mehdi (ə.s) və camaatı ilə birlik olacaq, hz. Mehdi (ə.s)-ın arxasında namaz qılaraq onun liderliyinə tabe olacaq və inkarçı sistemin zülmünü tam mənasıyla ortadan qaldıracaq.

# Hz. İsa (ə.s)-ı ən gözəl şəkildə qarşılamaq

Kitabın bura qədər olan hissələrində hz. İsa (ə.s)-ın yer üzünə ikinci dəfə gəlişini həm Quran ayələri və Peyğəmbərimiz (s.ə.v)-ın hədisi şərifləri, həm də İncildən müxtəlif izahlarla təfərrüatlı olaraq açıqladıq. Quran ayələrində hz. İsa (ə.s)-ın Allah Qatına alınması xəbər verilir və yer üzünə ikinci dəfə gəlişi müxtəlif əlamətlərlə bizlərə bildirilir. Peyğəmbərimiz (s.ə.v)-in də **"...Vallah şübhəsiz Məryəm oğlu İsa enəcək, həm ədalətli bir hakim, ədalətli bir hökmdar olaraq enəcək..."**[15] kimi bir çox hədisində hz. İsa (ə.s)-ın gəldiyində edəcəkləri və o dövrün xüsusiyyətləri müxtəlif nümunələrlə izah edilir. Bu izahlar heç bir şübhəyə yer verməyəcək qədər açıq, təfərrüatlı və hal-hazırda yaşadığımız dövrdə yaşanan inkişaflarla uyğundur. Necə ki, əsrlər boyu İslam alimləri də əsərlərində hz. İsa (ə.s)-ın yer üzünə ikinci dəfə gəlişi ilə əlaqədar çox əhəmiyyətli açıqlamalar etmiş, Axırzamanda necə bir mühit meydana gələcəyini insanlara bildirmişlər. İncildə də hz. İsa (ə.s)-ın yer üzünə gəlişinə dair çox açıq izahlar var. Məsələn, "... **Sizdən göyə alınan bu İsa, göyə getdiyini necə gördünüzsə, eyni şəkildə geri gələcəkdir." (Həvarilərin İşləri, 1: 11)** şəklində xəbər verilir.

Allahın iman edənlərə hidayət rəhbəri olaraq göndərdiyi bu üç İlahi kitabın Hz. İsanın yer üzünə ikinci dəfə gəlişi mövzusunda bu qədər uyğun olmaları çox diqqət çəkicidir. (Tövrat və İncil vəhy edilmələrinin ardından təhrif edilmiş olmaqla birlikdə, içlərində Quran ayələri ilə uyğun bir çox izah var. Bu izahların ilk vəhy edildikləri dövrdən qalma izahlar olmaları olabiləcəkdir (doğrusunu Allah bilər).

Kitab boyunca təfərrüatlı olaraq araşdırdığımız bütün bu dəlillər və dünya üzərindəki yaşanan inkişaflar diqqətlə bir yerə gətirildikdə hz. İsa (ə.s)-ın gəlişinə ən çox 15-20 il qaldığı, bəlkə də hz. İsa (ə.s)-ın gəlmiş ola biləcəyi ortaya çıxır. Bu yer üzündəki bütün insanlar üçün çox böyük müjdədir, sevinc və şövq qaynağıdır.

# Hz. İsa (ə.s) üçün şövqlə, həyəcanla və coşğuyla hazırlıq etmənin əhəmiyyəti

Hz. İsa (ə.s), Allahın, doğumundan etibarən möcüzəvi bir həyatla nemət verildiyi və peyğəmbərlik mövqeyi ilə şərəfləndirdiyi müqəddəs elçisidir. Allah bu mübarək peyğəmbərin, **"dünyada və axirətdə "seçkin, şərəfli, hörmətlidir" və (Allaha) yaxın olanlardan" (Ali İmran surəsi, 45)** olduğunu bildirərək onu cənnətlə müjdələmişdir . Məhz bu səbəblə də yer üzünə ikinci dəfə gələcək olan bu mübarək peyğəmbəri, bütün insanların ən gözəl şəkildə qarşılaması lazımdır. İmkanları məhdud olan bir adam belə, evinə qonaq gələcəyi zaman, bir neçə gün əvvəldən hazırlıq edər, bu qonağı ən təmiz və ən gözəl şəkildə qarşılamağa, ikramda qüsur etməməyə diqqət göstərər. Halbuki hz. İsa (ə.s) bütün dünya insanları üçün, heç bir qonaqla müqayisə edilməyəcək qədər üstün xüsusiyyətlərə sahib, çox dəyərli qonaqdır. O səbəblə də bütün insanların yaxın zamanda yer üzünü şərəfləndirəcək olan bu Ulul Əzm peyğəmbəri ən gözəl şəkildə qarşılaması lazımdır.

Hz. İsa (ə.s)-ın gəlişi bütün insanlar üçün çox böyük bir nemət, Allahdan çox böyük bir lütfdür. Bu dəyərli peyğəmbərlə qarşılaşmaq Rəbbimizdən çox böyük nemətdir. Hz. İsa (ə.s) gəldiyində günahsız, tərtəmiz və nurlu üzü ilə, hikmətli, ağıllı və məqsədəuyğun danışıqlarıyla dərhal diqqəti çəkəcək, dünya üzərindəki bütün insanlar həyatlarında ilk dəfə ən yüksək insani xüsusiyyətlərə sahib mübarək bir peyğəmbər görəcəklər. Onun doğumu, həyatı, Allah Qatına alınması və yer üzünə ikinci dəfə gəlişi kimi, bu gəlişdən sonrakı həyatı da Allahın icazəsiylə möcüzələrlə dolu olacaq. Bütün insanlar onun üstün əxlaqına və bənzərsiz ağlına heyran olacaqlar. Onun söylədiyi hər söz, hər hərəkət hikmətli, aldığı hər qərar məqsədəuyğun və Allahın ilhamı ilə olacaq.

Bütün insanların, xüsusilə də İncilə iman edən İsəvilərin və Quran ayələrinə iman edən müsəlmanların hz. İsa (ə.s)-ın gəlişi üçün həyəcanla, şövqlə və çox böyük bir coşğuyla hazırlıq etmələri lazımdır. Bu kəslərin içində, Allahın cənnətlə müjdələdiyi bu dəyərli peyğəmbərin gəlişi üçün hazırlıq etməyənlər isə, çox böyük yanlış içindədirlər. Çünki gəlişi İlahi kitablarla və elçilərin sözləriylə xəbər verilmiş bu cür əhəmiyyətli bir qonağı qarşılama mövzusunda ediləcək zəiflik və tənbəllik çox böyük vicdansızlıqdır. Allahın ayələrinə iman edən, dünya üzərindəki hadisələri və Axırzamanın işarələrini

ağlı və vicdanıyla qiymətləndirən heç bir insan bu mübarək qonağı hazırlıq etmədən gözləyə bilməz. Ya da "Hz. İsa (ə.s)-ın yer üzünə ikinci dəfə gələcəyinə iman edirəm" dedikdən sonra, "amma indi hazırlıq etməyim, daha sonra bu zərəri aradan qaldıraram." şəklində bir düşüncəyə də qapılmazlar. Hansı vicdan sahibi, səmimi xristian o müjdəli dövr gəldiyində "Biz hz. İsa (ə.s)-ı gözləyirdik, amma bunun üçün hazırlıq etməyi lazımlı görmədik" şəklində bir açıqlama verə biləcək? Əgər bu kəslər hələ bir hazırlıq etməmələrini, 15-20 ili uzun bir zaman kimi görmələriylə açıqlayırlarsa bu çox səhv düşüncədir. Çünki onlar da 15-20 ilin, 15-20 gün kimi sürətlə keçib gedəcəyini görəcək, hz. İsa (ə.s)-ın gəlişinə laqeyd qaldıqları üçün çox böyük peşmanlıq yaşayacaqlar. Heç kimsə unutmamalıdır ki, 1970-ci illərdə yaşayan insanlar da 1980-cı, 90-cı illəri çox uzaq görürdülər. Amma zaman sürətlə axıb keçdi və 2000-ci illər bir anda gəldi. Eyni bu şəkildə, hz. İsa (ə.s) ilə qarşılaşacağımız gün də Allahın icazəsiylə çox sürətlə gələcəkdir.

## Saxta məsihlərin ortaya çıxışı hz. İsa (ə.s)-ın gəlişinin xəbərçisidir

Allahın şərəfli elçisinin gəlişi üçün hazırlıq etmək istəyən iman sahiblərini zəifliyə sürümək istəyənlər ola bilər. Bu insanlar müxtəlif bəhanələrlə hz. İsa (ə.s) üçün hazırlıq etməyi gərəksiz göstərməyə çalışa bilərlər. Bunun üçün istifadə edəcəkləri bəhanələrdən biri də, saxta məsihlərin ortaya çıxmasıdır. Arada bir ağıl sağlamlığı yerində olmayan və ya müxtəlif mənfəətlər arxasında olan bəzi insanlar hz. İsa (ə.s) olduqlarını iddia etmişlər. Bəzi cəmiyyət isə bu cəhalət içində olan insanların etdiklərini öz mənfəətləri üçün istifadə etməyə çalışmış, "Hz. İsa (ə.s) gələcək şəklindəki açıqlamalar edir, saxta məsihlərin ortaya çıxmasına səbəb olur" şəklində şərhlər etmişlər. Bu izahlarla hz. İsa (ə.s)-ın yer üzünə yenidən gəlişi üçün ediləcək hazırlıqları yavaşlatmaq və hətta dayandırmaq istəmişlər. Ancaq Allahın vəd etdiyi bu müqəddəs dövrün gəlişini kimsə gecikdirə bilməyəcək. Çünki onlar çox əhəmiyyətli bir həqiqəti fərq edə bilmirlər: "Saxta məsihlərin ortaya çıxışı hz. İsa (ə.s)-ın gəlişinin bir əlamətidir, müjdəsidir". İncildə bu mövzuyla əlaqədar bir çox izah var:

*İsa Zeytunluq dağında oturarkən, şagirdləri gəlib, bir kənarda ona soruşdular: "Söylə bizə, bu hadisələr nə vaxt olacaq və sənin gəlişinin və dünyanın sonunun əlaməti nə olacaq?" İsa onlara bu cavabı verdi: "Əsla, sizi kimsə yanıltmasın. Çünki bir çoxları mənim adımla gəlib: Məsih mənəm, deyəcəklər və bir çox insanları yanıldacaqlar..." (Matta, 24: 3-5)*

*Əgər o sırada sizə biri: "Budur Məsih burada desə, ona inanmayın. Çünki yalançı Məsihlər və yalançı peyğəmbərlər ortaya çıxacaq və mümkün olsa, seçilmiş olanları da yanıldacaq möcüzələr və fövqəladə şeylər edəcəklər. Sizə əvvəldən söyləyim. (Matta, 24: 15-23)*

Hz. İsa (ə.s)-ı həqiqi iman sahibləri əlamətlərindən dərhal tanıyacaqlar. Etdiyi hər hərəkət hikmətli və bənzərsiz olacaq, bu əlamətlərlə digər insanlardan ayrılacaq və heç bir isbata ehtiyac duymadan dərhal tanınacaq. Saxta məsihlərin özlərini isbat etməyə çalışmaları isə onların saxtalıqlarının ən açıq dəlilidir.

Hz. İsa (ə.s)-ın dəlilləri etdiyi işlər olacaq. O, dinsiz axınları, inkarın və əxlaqsızlığın insanlar arasında yayılması üçün səy göstərənlərin sistemləri çox böyük məğlubiyyətə uğradacaq. Allahın vəhyi ilə hərəkət etdiyi üçün inkar edənlərin tələlərini pozması, Allahın dinini insanlar arasında yayması, küfrün səylərini təsirsiz hala gətirməsi onun üçün çox asan olacaq. Möcüzələriylə Allahın dininin haqq olduğunu və iman edənlərin mütləq üstün gələcəklərini isbat edəcək. Rəbbimiz inananları Quranda belə müjdələyir:

**Onlar Allahın nurunu öz ağızlarından çıxanlarla söndürmək istəyirlər. Halbuki kafirlərin xoşuna gəlməsə də, Allah Öz nurunu tamamlayacaqdır. Müşriklərin xoşuna gəlməsə də, İslam dinini bütün dinlərdən üstün etmək məqsədilə Öz Elçisini hidayət və haqq dinlə göndərən Odur. (Saff surəsi, 8-9)**

# Hz. İsa (ə.s), yer üzündə heç bir qohumu və tanıyanı olmamasıyla tanınacaq

Hz. İsa (ə.s)-ı saxta məsihlərdən ayıran ən əhəmiyyətli fərqlərdən biri isə, dünya üzərində anası, atası, hər hansı qohumu, yoldaşı, tanıyanı olmamasıdır.

Kitabın əvvəlki hissələrində də açıqladığımız kimi hz. İsa (ə.s) Allahın “Ol” əmriylə atasız olaraq dünyaya gəlmişdir. Allah, hz. İsa (ə.s)-ın bu vəziyyətini Quranda hz. Adəm (ə.s)-ın yaradılışına bənzədir və belə buyurur:

**Həqiqətən, Allah yanında İsanın məsəli Adəmin məsəli kimidir. Allah onu torpaqdan yaratdı, sonra isə ona “Ol!” - dedi, o da oldu. (Ali İmran surəsi, 59)**

Ayədə də ifadə edildiyi kimi Allah hz. Adəm (ə.s)-a “Ol” demişdir və hz. Adəm (ə.s) yaradılmışdır. Məhz hz. İsa (ə.s)-ın ilk yaradılışı da Allahın “Ol” deməsiylə reallaşmışdır. Hz. Adəm (ə.s)-ın ana və atası yoxdur, hz. İsa (ə.s)-ın ilk dünyaya gəlişində isə yalnız anası hz. Məryəm vardır; lakin yer üzünə yenidən gələcəyi ikinci səfərdə onun anası da həyatda olmayacaq. Aradan əsrlər keçdikdən sonra bilinən heç bir qohumu olmadan yer üzündə olacaq. Şübhəsiz bu sayədə hz. İsa (ə.s)-ın yer üzünə yenidən gəlişində, onun hz. İsa (ə.s) olduğundan şübhə ediləcək bir vəziyyət meydana gəlməyəcək. Saxta məsihlik iddiasında olan kəslərin isə yalanları asanlıqla aydın olacaq. Çünki bütün uşaqlığı insanlar arasında keçmiş, çoxlu uşaqlıq şəkilinə sahib, özünü kiçikliyindən etibarən tanıyan saysız adama sahib bir insanın hz. İsa (ə.s) olduğunu iddia etməsi son dərəcə məntiqsizdir.

# Bütün dünya hz. İsa (ə.s)-ın ətrafında birləşəcək

Hz. İsa (ə.s) gəlmədən əvvəl edilməsi lazım olan hazırlığın necə olması lazım olduğunu həm Quran ayələrindən, həm Peyğəmbərimiz (s.ə.v)-in hədislərindən, həm də Bədiüzzaman Səid Nursi kimi böyük İslam alimlərinin hikmətli açıqlamalarından anlayırıq. Bu hazırlığın ən əhəmiyyətli mərhələsi isə yer üzündəki din əleyhinə sistemlərlə ediləcək fikri mübarizədir. Bədiüzzamanın da diqqət çəkdiyi kimi bütün iman sahibləri darvinizm və materializm kimi insanları din əxlaqından uzaqlaşdıran ateist ideologiyalarla fikri mübarizədə ittifaq etməli; bu kimi axınların dünya üzərindən silinmələrində birlik olmalıdırlar. Bunun üçün bütün imkanlarıyla hz. İsa (ə.s)-ın dinsizliklə edəcəyi mübarizədən əvvəl dünya səviyyəsində böyük hazırlıq etməlidirlər. Necə ki, hədislərdə bildirildiyi kimi hz. İsa (ə.s) gəldiyində bəhs olunan dinsiz axınlarla mübarizə edəcək. Bədiüzzaman Səid Nursinin də bir sözündə ifadə etdiyi kimi əlində "səmavi qılınc" ilə, yəni Allahın vəhyi ilə hərəkət edəcək, bu sayədə hər qərarı məqsədəuyğun olacaq və bütün dinsiz sistemləri ortadan qaldıracaq. (Məktubat, səh. 6)

İsəvilərlə müsəlmanlar arasındakı bu birliyi indidən qurmağa başlamaq, hz. İsa (ə.s) gəlmədən əvvəl ediləcək çox gözəl hazırlıqdır. Ancaq əvvəlcə xristianların öz aralarındakı ayrılıqları ortadan qaldırmaları, hz. İsa (ə.s)-ın sözündə birləşmələri və **"birləşmiş bir bina" (Saff surəsi, 4)** halını almaları lazımdır. Müsəlmanlar da aralarındakı bütün ayrı-seçkilikləri aradan qaldırıb, birlik və birliyin təmin edilməsi üçün səy göstərməlidirlər. Bütün müsəlmanlar Allaha daha çox yaxınlaşmaq, Allahın dininə daha çox xidmət etmək üçün əlbirlik etməli, hz. İsa (ə.s)-ın gəlişindən əvvəl İslam birliyini qurmalıdırlar. Bu iki birliyin təmin edilməsinin ardından meydana gələcək isəvi-müsəlman ittifaqının dünya üzərində çox böyük güc meydana gətirəcəyi və Allahı inkar edən bütün şər axınlarının qarşısında keçilməz bir maneə halına gələcəyi açıqdır. Məhz bu hazırlıq hz. İsa (ə.s) gəldiyində onsuz da meydana gələcək olan ittifaqın da təməli olacaq.

Ancaq hal-hazırda istər xristian dünyasında, istərsə də müsəlman birliklərin böyük bir hissəsində hz. İsa (ə.s)-ın gəlişiylə əlaqədar ətraflı hazırlıq görülmür, insanlar bu dəyərli qonağa qarşı laqeydlik edirlər. Halbuki indi bu mübarək peyğəmbərin gəlişi üçün hazırlıq etməyənlər, laqeyd olub zəiflik göstərənlər, bu böyük müjdəyə lazım olan əhəmiyyəti göstərməyənlər hz. İsa

(ə.s) gəldiyində çox utanacaq, ancaq etdiklərini düzəltmək üçün çox gec qaldıqlarını anlayacaqlar.

Xristian aləmi üçün bir başqa təhlükə isə, hz. İsa (ə.s)-ın gəlişindən narahat olan cəmiyyətin təsiri altında qalmalarıdır. Qürurlarından, imani zəifliklərindən, cahilliklərindən, lazımlı qavrayış gücünə sahib olmadıqlarından ötəri hz. İsa (ə.s)-ın gəlişi üçün hazırlıq etməyən bəzi cəmiyyətlər, vicdan sahibi xristianlar üzərində mənfi təsir yaratmaq istəyərlər. Amma bilinməlidir ki, hz. İsa (ə.s)-ı sevən və İncilə iman edən xristianların bu böyük həqiqəti görməzlikdən gəlmələri qəti olaraq açıqlana biləcək bir vəziyyət deyil. Bu utancı yaşamamaq üçün dünya üzərindəki bütün xristianların gözəl əxlaqda, hz. İsa (ə.s)-ın yolunu izləməkdə qərarlı olmalarının zamanı gəlmişdir. Bütün xristianlar, İncildə təsvir edilən Allaha könüldən bağlı, tolerant, sülhsevər, sevgi dolu, fədakar və Allahın dinini yayma mövzusunda səmimi kəslər olduqlarını ortaya qoymalıdırlar. İncildəki hz. İsa (ə.s)-ın gəlişiylə əlaqədar açıq izahların bütün xristianların vicdanlarını həmən hərəkətə keçirməlidir. Əksinə bir rəftar, yəni lazım olan hazırlıqların edilməməsi, xristian aləmi içində olan bu cəmiyyətlər baxımından son dərəcə utanc verici bir vəziyyət meydana gətirər. Hz. İsa (ə.s), bütün xristian cəmiyyətləri ikinci dəfə gəlişiylə müjdələmiş, İncildə yer alan bir çox sözündə açıq şəkildə “Mən mütləq gələcəyəm” demişdir.

Eyni vəziyyət müsəlmanlar üçün də keçərlidir. Müsəlmanlar da Allahın Quran ayələrində bildirdiyi və Peyğəmbərimiz (s.ə.v)-in də hədisləriylə xəbər verdiyi gözəl əxlaqa tabe olmalı və hz. İsa (ə.s)-ın gəlişi üçün şövqlə, həyəcanla və böyük sevinclə çalışmalıdırlar. Əks halda Allahın ayələri ilə bildirdiyi bu qəti gerçəyə iman etməmiş olarlar.

Unutmamaq lazımdır ki, hz. İsa (ə.s)-ın gəlişi dünyanın yalnız müəyyən bölgələrinə təsir edəcək bir hadisə deyil. Onun gəlişi bütün dünyaya təsir edəcək gücdə, möcüzəvi və metafizik bir hadisədir. Bu müqəddəs peyğəmbərin gəlişiylə dünya səviyyəsində ictimai və siyasi sahələrdə əsaslı dəyişiklər olacaq, bütün dünya hz. İsa (ə.s)-ın ətrafında toplanıb birləşəcək. Məhz bu səbəblə bütün xristianların və müsəlmanların həmən hərəkətə keçmələri və birlik içində hz. İsa (ə.s)-ı ən gözəl şəkildə qarşılamaq üçün əllərindəki bütün imkanları səfərbər etməlidirlər. Tək bir Allaha iman edən, Onun rizasını qazanmağa çalışan, Ona tam bir təslimiyyətlə təslim olmuş, Ona ürəkdən bağlı, Onu ucaldan, təməldə eyni dəyərləri müdafiə edən xristian və müsəlmanların ortaq hərəkət etmələri ən doğrusudur. Həm xristianların, həm də müsəlmanların bir-

birlərinə tolerantlıqla, sevgiylə, anlayışla, barışla yaxınlaşmaları lazım olduğu açıqdır. Əsrlərdir davam edən çəkişmələrə, ön mühakimələrə, səhv mənalara artıq bir son verilməlidir. Çünki itiriləcək zaman yoxdur.

Bu kitabda Quran ayələrində yer alan çox əhəmiyyətli xəbərlərlə, Peyğəmbərimiz (s.ə.v)-ın mübarək hədisləriylə, Bədiüzzaman Səid Nursinin hikmətli açıqlamaları ilə və İncil və Tövratda yer alan açıq izahlarla hz. İsa (ə.s)-ın yer üzünə ikinci dəfə gələcəyi müjdəsini bütün insanlarla paylaşdıq və insanlara lazım olan hazırlıqları etmələri üçün çox əhəmiyyətli çağırışlar etdik. Məqsədimiz isə, hz. İsa (ə.s) yer üzünə ikinci dəfə gəldiyində insanların "bilsəydik, hazırlıq edərdik" deyə bilməmələri və önə sürəcəkləri heç bir bəhanələrinin qalmamasıdır. Kitab boyu üzərində durduğumuz bəzi əlamətlər bütün açıq şəkildə ortaya çıxmışdır, əsrlərdir bəzi cəmiyyətin ortaya atdıqları bütün şübhə buludları ortadan qalxmışdır. Hz. İsa (ə.s)-ın gəlişi çox yaxındır. Rəbbimiz bizləri Nur surəsində bu şəkildə müjdələmişdir:

**Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün varisləri edəcək, möminlər üçün onların Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar. Bundan sonra küfr edənlər – məhz onlar fasiqlərdir. (Nur surəsi, 55)**

# İncil və Tövratın Quran ilə uyğun yönləri

## Allah birdir

Sizin İlahınız tək bir İlahdır; Ondan başqa İlah yoxdur... (Bəqərə surəsi, 163)

... O Allah, birdir. (İxlas surəsi, 1)

İncil

*...Allahımız olan Rəb tək Rəbdir. Allahın olan Rəbbi bütün ürəyinlə, bütün canınla, bütün ağlınla və bütün gücünlə sev... "Allah təkdir və Ondan başqası yoxdur" deməklə doğru olanı söylədin. (Mark, 12: 29-32)*

Tövrat

*Ya Rəb, bir bənzərin yoxdur, Səndən başqa İlah da yoxdur!.. (1 Salnamələr, 17: 20)*

*Rəb, özü Allahdır, Ondan başqası yoxdur biləsən deyə sənə bu göstərildi. (Qanunun Təkrarı, 4: 35)*

# Allah hər şeyin rəbbidir

Həqiqətən, sizin məbudunuz Təkdir! O, həm göylərin, yerin və onların arasındakıların Rəbbi, həm də məşriqlərin Rəbbidir. (Saffat surəsi, 4-5)

İncil

*... Ey Əfəndimiz! Yeri göyü, dənizi və onların içindəkilərinin hamısını yaradan Sənsən. (Həvarilərin İşləri, 4: 24)*

# Yalnız Allaha qulluq etmək

De: "Ey Kitab əhli! Bizim və sizin aranızda olan eyni bir kəlməyə gəlin ki, Allahdan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq və Allahı qoyub bir-birimizi ilahiləşdirməyək"... (Ali İmran surəsi, 64)

İncil

**...** *"Allahın olan Rəbbə tapın, tək Ona qulluq et!" deyə yazılmışdır. (Matta, 4: 10)*

Tövrat

*Amma siz yollarımdan sapar, qaydalarımı, buyruqlarımı buraxar, gedib başqa ilahlara qulluq edər, tapınsanız, sizə verdiyim ölkədən sizi söküb atacağam... (2 Salnamələr, 7: 19-20)*

# Allahı ucaltmaq

... Yenilməz izzət (qüvvət) bütövlükdə yalnız Allaha məxsusdur... (Yunus surəsi, 65)

Ərşin sahibidir; Məcid (çox uca)dir. (Buruc surəsi, 15)

Ən uca olan Rəbbinin adını pak (müqəddəs) tutub şəninə təriflər de! (Əla surəsi, 1)

İncil

*Qürur və ucalıq sonsuza qədər bütün çağların Kralı olan ölümsüz, görünməz tək Allahın olsun... (1 Timoteyə, 1: 17)*

Tövrat

*Ya Rəbb, böyüklük, güc, ucalıq, zəfər və şöhrət Sənindir. Göydə və yerdə olan hər şey Sənindir. Hakimlik Sənindir, ya Rəbb! Sən hər şeydən ucasan. Zənginlik və qürur Səndən gəlir. Hər şeyə hakimsən. Güc və səlahiyyət Sənin əlindədir. Birini yüksəltmək və gücləndirmək Sənin əlindədir. İndi, ey Allahımız, Sənə şükür edirik, uca adını tərifləyirik. (1 Salnamələr, 29: 11-13)*

*Ey bütün xalqlar, Rəbbi öyün, Rəbbin gücünü, ucalığını öyün. (1 Salnamələr, 16: 28)*

# Allaha şükür etmək

Göylərdə və yerdə nə varsa, hamısının sahibi olan Allaha həmd olsun! Axirətdə də həmd Ona məxsusdur... (Səba surəsi, 1)

Tövrat

*Qapılarına təşəkkürlə, həyətlərinə həmd ilə girin; Ona şükür edin, adını təqdis edin. (Zəbur, 100: 4)*

*Rəbbə adına həmd edin... (Zəbur, 113: 1)*

*... Mən Sənə şükür edirəm və həmd edirəm... (Daniel, 2: 23)*

*Sənə şükür edirik, ey Allah; şükür edirik... (Zəbur, 75: 1)*

# Allahın adları

O, Özündən başqa heç bir məbud olmayan, qeybi və aşkarı Bilən Allahdır. O Mərhəmətlidir, Rəhmlidir. O, Özündən başqa heç bir məbud olmayan, Hökmran, Müqəddəs, Pak, haqqı təsdiq edən, hər şeyi müşahidə edən, Qüdrətli, Qadir, Məğrur Allahdır. Allah onların Ona şərik qoşduqlarından ucadır. O, Xaliq, yoxdan Yaradan, Surətverən Allahdır. Ən gözəl adlar yalnız Ona məxsusdur. Göylərdə və yerdə olanların hamısı Onun şəninə təriflər deyir. O, Qüdrətlidir, Müdrikdir. (Həşr surəsi, 22-24)

Göylərin və yerin hökmranlığı Ona məxsusdur. O həm dirildir, həm də öldürür. O, hər şeyə qadirdir. Əvvəl də, Axır da, Zahir də, Batin də Odur. O, hər şeyi bilir. Göyləri və yeri altı gündə yaradan, sonra da Ərşə ucalan Odur. O, yerə girəni də, oradan çıxanı da, göydən enəni də, oraya qalxanı da bilir. Siz harada olsanız belə, O sizinlədir. Allah sizin nə etdiklərinizi görür. Göylərin və yerin hökmranlığı Ona məxsusdur. Bütün işlər ancaq Allaha qaytarılacaqdır. O, gecəni gündüzə qatır, gündüzü də gecəyə qatır. O, köksləndə olanları bilir. (Hədid surəsi, 2-6)

Tövrat

*O Allah ki, göyləri və yeri, dənizi və içindəkiləri hər şeyi yaradandır... (Zəbur, 146: 6)*

*Rəbb böyükdür və çox həmdə layiqdir; Və Onun böyüklüyünü ağıl almaz. (Zəbur, 145: 3)*

*Rəbb Raufdur və Rəhmdir; Çox səbirlidir və inayəti böyükdür. Rəbb hər kəsə yaxşıdır... (Zəbur, 145: 8-9)*

*Rəbb bütün yollarında ədalətlidir, Və bütün işlərində inayətlidir. (Zəbur, 145: 17)*

*Rəbb Özünü sevənlərin hamısını qoruyar; Və bütün pisləri həlak edər. (Zəbur, 145: 20)*

*Rəbb Rəhmdir və Raufdur. Çox səbirlidir və inayəti çoxdur. (Zəbur, 103: 8)*

*... Allahın adı əzəldən əbədiyyətə qədər mübarək olsun; çünki hikmət Onundur. Və vaxtları və zamanları dəyişdirən Odur; krallar məhv edər, və*

*krallar yaradar: hikmətlilərə hikmət, və anlayışlılara bilgi verər; dərin və gizli şeyləri O açar; qaranlığın içində nə vardırsa bilər və işıq Onun yanındadır." (Daniel, 2: 20-22)*

*Bilin ki, Rəbb, O Allahdır; Bizi yaradan Odur, biz Ona aidik; Onun qövmüyük ... (Zəbur, 100: 3)*

# Allah vədindən dönməz

**... Allahdan daha çox əhdə vəfa edən kimdir?... (Tövbə surəsi, 111)**

**Tövrat**

***... Bütün varlığınızla və ürəyinizlə bilirsiniz ki, Tanrınız Rəbbin sizə verdiyi sözlərdən heç biri boş çıxmadı; hamısı reallaşdı...** (Yeşua, 23: 14)*

# Allah hər yeri əhatə edəndir

**...Bilin ki, O, hər şeyi ehtiva edəndir! (Fussilət surəsi, 54)**

**Şərq də Allahındır, qərb də. Hər hara dönsəniz Allahın üzü (qibləsi) orasıdır. Şübhəsiz ki Allah, əhatə edəndir, biləndir. (Bəqərə surəsi, 115)**

Tövrat

*Əgər göylərə çıxsam, Sən oradasan... Səhərin qanadlarını alsam, dənizin dibinə qoyulsam; orada da Sənin əlin mənə yol göstərər... (Zəbur, 139: 8-10)*

# Allah gizlinin gizlisini bilər

Göylərdə, yerdə, onların arasında və torpağın altında nə varsa, Ona məxsusdur. Sən ucadan danışsan da, danışmasan da, fərqi yoxdur. Çünki Allah sirri də, bundan daha gizli olanı da bilir. (Taha surəsi, 6-7)

Sən hansı bir işdə olsan, Qurandan nə oxusan, siz nə iş görsəniz, başınız ona qarışarkən Biz sizə şahid olarıq. Nə yerdə, nə də göydə zərrə qədər bir şey Rəbbindən gizli qalmaz. Bundan daha kiçiyi və daha böyüyü yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın. (Yunis surəsi, 61)

Tövrat

*Oturmamı və durmamı Sən bilirsən; Düşüncəmi anlayırsan, yolumu və yatdığım yeri ayırd edirsən, Və bütün yollarımı yaxşı bilirsən. Çünki dilimə gətirdiyim söz yox ikən, məhz ya Rəbb, Sən onu tamamilə bilirsən. (Zəbur, 139: 2-4)*

# Allahı tərk edib bütləri tanrı qəbul edənlər

İbrahim dedi: "Siz aranızda ancaq dünya həyatına bəslədiyiniz vurğunluğa görə Allahı qoyub bütlərə pərəstiş etdiniz. Sonra isə Qiyamət günü bir-birinizi kafir adlandırıb lənətləyəcəksiniz. Sığınacağınız Od olacaqdır. Sizə yardım edə bilən kəslər də tapa bilməyəcəksiniz". (Ənkəbut surəsi, 25)

Rəbbin istədiyini yaradır və istədiyini də peyğəmbər seçir. Onların isə seçməyə haqqı yoxdur. Allah pakdır, müqəddəsdir və onların qoşduqları şəriklərdən ucadır. (Qəsas surəsi, 68)

Allahdan savayı çağırdıqlarınız da sizin kimi qullardır. Əgər doğru deyirsinizsə, çağırın onları, sizə cavab versinlər. (Əraf surəsi, 194)

İncil

*Onlar Allah ilə əlaqədar həqiqətin yerinə yalanı qoydular. Yaradanın yerinə varlığa tapınıb qulluq etdilər. Halbuki Allah sonsuza qədər təriflənməyə layiqdir... (Romalılara, 1: 25)*

Tövrat

*Siz isə Məni qoyub və başqa ilahlara qulluq etdiniz... Gedin və seçdiyiniz ilahlara fəryad edin; çətinliyə düşdüyünüzdə onlar sizi qurtarsınlar. (Hakimlər, 10: 13-14)*

*İsraillilər Rəbbin gözündə pis olanı etdilər, Baallara tapındılar. Özlərini Misirdən çıxaran atalarının Allahı, Rəbbi tərk etdilər... Çünki Rəbbi tərk edib Baala və Aştoretlərə tapındılar. (Hakimlər, 2: 11-13)*

## İnsanlarin deyil, Allahın məmnuniyyətini istəmək

Sizi razı salmaq üçün yanınızda Allaha and içirlər. Əgər mömindirlərsə, bilsinlər ki, Allahı və Onun Elçisini razı salmaları daha yaxşıdır. (Tövbə surəsi, 62)

İncil

*Tərsinə, Allah tərəfindən müjdəni əmanət almağa layiq görüldüyümüz üçün, biz insanları deyil, ürəklərimizi sınayan Allahı məmnun edəcək şəkildə danışırıq. (1 Saloniklilərə, 2: 4)*

## Allahın endirdiyi sözə təslim olmaq

Əzab sizə fərqinə varmadığınız bir halda qəflətən gəlməmişdən əvvəl Rəbbinizdən sizə nazil edilən ən gözəl Sözə tabe olun! (Zumər surəsi, 55)

Rəbbindən sənə vəhy olunana tabe ol! Həqiqətən, Allah nə etdiklərinizdən xəbərdardır. (Əhzab surəsi, 2)

İncil

*Bunun üçün hər cür murdarlığı və hər tərəfə yayılmış pisliyi üstünüzdən sıyırıb ataraq, içinizə əkilmiş və canlarınızı qurtaracaq gücdə olan sözü təvazökarlıqla qəbul edin. (Yaqub, 1: 21)*

Tövrat

*Və ümidlərini Allaha bağlasınlar və Allahın işlərini unutmasınlar, Ancaq Onun əmrlərini tutsunlar. (Zəbur, 78: 7)*

*Allahın əhdini tutmadılar və Onun şəriətində yaşamaq istəmədilər. (Zəbur, 78: 10)*

*Kim Mənim qanunlarıma əməl edər və haqq olanı etmək üçün hökmlərimə tabe olar; saleh olan odur... (Yezekel, 18: 9)*

# Allaha yönəlmək

**Rəbbinin adını zikr et və özünü tamamilə Ona həsr et! (Müzzəmmil surəsi, 8)**

**O kəslər ki, Rəbbinin Üzünü diləyərək səbir edir... (Rad surəsi, 22)**

Tövrat

*"Rəbbə və Onun gücünə baxın, dayanmadan Onun razılığını axtarın!" (1 Salnamələr, 16: 11)*

# Eşidib-tətbiq etmək

O kəslər ki, sözə qulaq asıb onun ən yaxşısına tabe olurlar, onlar Allahın doğru yola yönəltdiyi şəxslərdir. Ağıl sahibləri də məhz onlardır. (Zumər surəsi, 18)

Aralarında hökm vermək üçün Allahın və Onun Elçisinin yanına çağırıldıqda möminlərin sözü ancaq: "Eşidirik və itaət edirik!" – deməlıridir. Nicat tapanlar da məhz onlardır. (Nur surəsi, 51)

İncil

*Çünki Allah Qatında təmizlənənlər Onun qanunu eşidənlər deyil, Qanunu yerinə yetirənlərdir. (Romalılara, 2: 13)*

Tövrat

*Və ümidlərini Allaha bağlasınlar. Allahın işlərini unutmasınlar, Ancaq Onun əmrlərinə tabe olsunlar. (Zəbur, 78: 7)*

# Allah hər şeyi bir qədər ilə yaratmışdır

Biz, həqiqətən də, hər şeyi qədərincə yaratdıq. Biz bircə dəfə əmr edirik, o da bir göz qırpımında yerinə yetir. (Qamər surəsi, 49-50)

Məgər onlar özlüyündə fikirləşmirlər ki, Allah göyləri, yeri və onların arasındakıları ancaq bir gerçəklik kimi və müəyyən müddətə qədər yaratmışdır? Lakin, insanların çoxu Rəbbi ilə qarşılaşacağını inkar edir. (Rum surəsi, 8)

Tövrat

*Hər şeyin zamanı və göylər altında hər işin vaxtı var... (Vaiz, 3: 1)*

*Bilirəm ki, Allahın etdiyi hər şey əbədi olacaq; ona bir şey əlavə olmaz və ondan bir şey azaldılmaz... (Vaiz, 3: 14)*

# Hər şey bir kitabda yazılıdır

Sən hansı bir işdə olsan, Qurandan nə oxusan, siz nə iş görsəniz, başınız ona qarışarkən Biz sizə şahid olarıq. Nə yerdə, nə də göydə zərrə qədər bir şey Rəbbindən gizli qalmaz. Bundan daha kiçiyi və daha böyüyü yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın. (Yunis surəsi, 61)

Tövrat

*Gözlərin məni döl ikən gördü; Və hələ onlardan heç biri yox ikən, mənim üçün təyin olunan günlərin hamısı Sənin kitabında yazılmışdılar. (Zəbur, 139: 16)*

# Haqsız yerə insan öldürməmək

**... Allahın haram etdiyi cana haqsız yerə qıymaz və zina etməzlər. Bunu edən kimsə cəzalandırılar. (Furqan surəsi, 68)**

İncil

***...*** *Adam öldürmə, zina etmə, oğurluq etmə, yalan yerə şahidlik etmə, kimsənin haqqını yemə, ana-atana hörmət göstər. (Mark, 10: 19)*

Tövrat

*Qətl etməyin! (Çıxış, 20: 13)*

*... Vaxtı gəlsin deyə öz içində qan tökən şəhər və özünü murdar etmək üçün öz əleyhinə bütlər düzəldən şəhər! Sən tökdüyün qanınla günahkar oldun... (Yezekel, 22: 3)*

*... Məmləkətdə həqiqət, yaxşılıq və Allah bilgisi yoxdur. Lənət, yalan, adam öldürmək, oğurluq və zinadan başqa bir şey yoxdur; zorbalıq edirlər və qan üzərinə qan tökürlər. Bundan ötəri məmləkət yas tutacaq. (Huşə, 4: 1-3)*

# Zina etməmək

Zinaya yaxınlaşmayın. Çünki bu, iyrənc bir əməl və murdar bir yoldur! (İsra surəsi, 32)

Tövrat

*Zina etməyin! (Çıxış, 20: 14)*

İncil

*İsa belə davam etdi: "İnsanı kirlədən, insanın içindən çıxandır. Çünki pis düşüncələr, cinsi əxlaqsızlıq, oğurluq, cinayət, zina, acgözlük, pislik, hiylə, pozğunluq, qısqanclıq, böhtan, qürur və ağılsızlıq daxildən, insanın ürəyindən qaynaqlanar. Bu pisliklərin hamısı daxildən qaynaqlanar və insanı kirlədər." (Mark, 7: 20-23)*

# Oğurluq etməmək

Ey Peyğəmbər! Mömin qadınlar Allaha heç bir şərik qoşmayacaqlarına, oğurluq və zina etməyəcəklərinə, uşaqlarını öldürməyəcəklərinə, əlləri ilə ayaqları arasından olanı yalanla ört-basdır etməyəcəklərinə (ərlərindən olmayan uşaqlarını onlara isnad etməyəcəklərinə) və heç bir yaxşı işdə sənə qarşı çıxmayacaqlarına dair sənə beyət etmək üçün yanına gəldikləri zaman onların beyətini qəbul et və Allahdan onlar üçün bağışlanma dilə. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir. (Mumtəhənə surəsi, 12)

Tövrat

*... Oğurlamayın və hiylə ilə davranmayın!... (Levililər, 19: 11)*

# Yalan yerə şahidlik etməmək

Onlar yalandan şahidlik etməz, lağlağı məclisinə rast gəldikdə oradan ləyaqətlə ötüb keçərlər. (Furqan surəsi, 72)

Ey iman gətirənlər! Şahidliyiniz özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri olub ədaləti qoruyun... (Nisa surəsi, 135)

Tövrat

*Yalan xəbər aparma! Haqsız şahid olmaq üçün pisə əl vermə! Pislik üçün çoxluğun arxasında olma! Bir iddiada ədaləti pozmaq üçün çoxluğun ardınca saparaq söyləmə... (Çıxış, 23: 1-3)*

*Pisi günahsız çıxaran və salehi pisləyən... (Süleymanın Məsəlləri, 17: 15)*

*Onun üçün Rəbdən qorxun, diqqətlə mühakimə edin. Çünki Allahımız Rəbb kimsənin haqsızlıq etməsinə, kimsəni Qoruyaraq müvəffəqiyyətini təmin etməsinə, rüşvət almasına göz yummaz. (2 Salnamələr, 19: 7)*

# Kimsənin haqqını yeməmək

Qohum-əqrəbaya, yoxsula və müsafirə onlara çatacaq haqqını ver! Allahın Üzünü diləyənlər üçün bu daha xeyirlidir. Uğur qazananlar da elə məhz onlardır. (Rum surəsi, 38)

Qohuma haqqını ver, yoxsula və yolda qalmışa da... (İsra surəsi, 26)

Tövrat

*"Kara lənət etməyin, korun önünə əngəl qoymayın və Allahından qorxun!; Mən Rəbbəm. Hökmdə haqsızlıq etməyin; kasıbın xətrini saymayın, qüdrətlinin xətrini etibar etməyin və qonşuya ədalətlə hökm edin" (Levililər, 19: 14-15)*

*Kimsəyə haqsızlıq etməz, ancaq borclunun qoyduğu girovunu geri verər və soyğunçuluq etməz, ac olana çörəyini verər, çılpaq olana paltar geydirər; faizlə pul verməz... əlini pislikdən çəkər, iki adam arasında həqiqətə görə ədalətli davranar. (Yezekel, 18: 7-8)*

# Ana-ataya hörmət

Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına dolarsa, onlara: "Uf!" belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə! Onların hər ikisinə rəhm edərək təvazökarlıq qanadının altına al və: "Ey Rəbbim! Onlar məni körpəliyimdən tərbiyə edib böyütdükləri kimi, Sən də onlara rəhm et!" - de. (İsra surəsi, 23-24)

Tövrat

*Ana-atana hörmət et... (Çıxış, 20: 12)*

# Möhtacların qorunması

... "Verəcəyiniz hər bir xeyir valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara və müsafirlərə aiddir. Siz nə yaxşılıq edirsinizsə, şübhəsiz ki, Allah onu bilir". (Bəqərə surəsi, 215)

Sizə nə olub ki, Allah yolunda və: "Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən çıxart, bizə Öz tərəfindən bir himayəçi təyin et, bizə Öz tərəfindən bir yardımçı təyin et!" - deyən zəif kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz? (Nisa surəsi, 75)

Tövrat

*Qərib olana haqsızlıq etməyin və ona qəddarlıq etməyin; çünki siz Misir diyarında qərib idiniz, heç bir dul qadını və yetimi incitməyin. Əgər onları incitsəniz və Mənə fəryad etsələr, onların fəryadını mütləq eşidəcəyəm... (Çıxış, 22: 21-23)*

*Zəifin və yetimin iddiasını görün; sıxıntıda olana və yoxsula ədalətli olun. Zəifi və kasıbı kömək edib xilas edin; onları pislər əlindən azad edin. (Zəbur, 82: 3-4)*

*Çünki öz qardaşından səbəbsiz girov aldın, çılpaqların belə libasını soydun. Yorğuna su içirmədin, ac olandan çörəyi əsirgədin. Qüvvətli adama*

*gəldikdə, torpaq onun oldu və orada etibarlı adam oturdu. Dul qadınları əli boş göndərdin və yetimlərin qolları qırıldı... (Əyyub, 22,6-9)*

# İnfaq etmək

Sevdiyiniz şeylərdən Allah yolunda xərcləməyincə xeyrə nail olmayacaqsınız. Sizin nə xərclədiyinizi, şübhəsiz ki, Allah bilir. (Ali İmran surəsi, 92)

Sədəqə Allah yolunda cihad edən və yer üzündə hərəkət edə bilməyən yoxsullar üçündür. Bu adamlar həya edib dilənmədiklərinə görə tanımayan adam onları varlı hesab edir. Sən onları üzlərindən tanıyırsan. Onlar insanlardan israrla bir şey istəməzlər. Şübhəsiz ki, Allah malınızdan nə sərf etdiyinizi bilir. (Bəqərə surəsi, 273)

... Səndən Allah yolunda nə xərcləyəcəklərini soruşurlar. De: "Ehtiyacınızdan artıq qalanını!" ... (Bəqərə surəsi, 219)

İncil

*... İki köynəyi, birini heç köynəyi olmayana versin; yeməyi olan da bunu heç yeməyi olmayanla paylaşsın... (Luka, 3: 11)*

*Ehtiyac içində olan müqəddəslərə kömək edin. Qonaqpərvər olun. (Romalılara, 12: 13)*

*Aralarında yoxsul olan yox idi. Çünki torpaq ya da ev sahibi olanlar bunları satar, satdıqlarının əvəzini gətirib elçilərin buyruğuna verərdilər. Hər kəsə ehtiyacına görə paylanardı. (Elçilərin İşləri, 4: 34-35)*

# Göstəriş üçün infaq etməkdən çəkinmək

Və onlar, mallarını insanlara göstəriş olsun deyə infaq edərlər... (Nisa surəsi, 38)

Ey iman gətirənlər! Sədəqələrinizi, özünü camaata göstərmək məqsədilə xərcləyən, Allaha və Axirət gününə inanmayan şəxs kimi minnət qoymaqla və əziyyət verməklə puç etməyin... (Bəqərə surəsi, 264)

Sədəqələri aşkarda verirsinizsə, bu çox gözəl. Əgər onu yoxsullara gizlində versəniz, bu sizin üçün daha yaxşı olar... (Bəqərə surəsi, 271)

İncil

*Diqqət edin! Edəcəyiniz doğru işləri nümayiş üçün insanların gözü qarşısında etməyin... (Matta, 6: 1)*

*Bu səbəblə, birinə sədəqə verəcəyiniz zaman bunu elan etmək üçün önünüzdə şeypur çalmayın. İkiüzlü kəslər, insanların tərifini qazanmaq üçün sinaqoqlarda və küçələrdə belə edərlər. Sizə doğrusunu söyləyim, onlar mükafatlarını almışlar! Siz sədəqə verdiyiniz zaman, sol əliniz sağ əlinizin nə etdiyini bilməsin. Belə ki, verdiyiniz sədəqə gizli qalsın... (Matta, 6: 2-4)*

## Yaxşılıq edənlərin alacağı qarşılıq

Namaz qılın, zəkat verin! Qabaqcadan özünüz üçün nə xeyir hazırlasanız onun əvəzini Allahın yanında tapacaqsanız. Şübhəsiz ki, Allah nə etdiklərinizi görür. (Bəqərə surəsi, 110)

İncil

*Onlara, yaxşılıq etmələrini, yaxşılıqdan yana zəngin olmalarını, comərd və paylaşmağa istəkli olmalarını buyur. Beləliklə gerçək həyata qovuşmaq üzrə gələcək üçün özlərinə möhkəm təməl olacaq bir xəzinə yığmış olarlar. (1 Timoteyə, 6: 18-19)*

## Ruzini verən Allahdır

Yer üzündə elə bir canlı yoxdur ki, onun ruzisini Allah verməsin. Allah onların qərar tutduqları yeri də, qorunub saxlanıldıqları yeri də bilir. Bunların hamısı açıq-aydın Yazıdadır (Lövhi-məhfuzdadır). (Hud surəsi, 6)

Allah istədiyinin ruzisini bol edər, istədiyininkini də azaldar. Onlar dünya həyatı ilə sevinirlər. Halbuki dünya həyatı axirətlə müqayisədə keçici bir zövqdür. (Rad surəsi, 26)

İncil

*Bu səbəblə sizə bunu söyləyirəm: "Nə yeyib içəcəyik?" deyə canınız üçün, ya da "Nə geyəcəyik?" deyə bədəniniz üçün narahat olmayın. Can yeməkdən, bədən də geyimdən daha əhəmiyyətli deyilmi? Göydə uçan quşlara baxın! Nə*

*əkər, nə biçər, nə də anbarlarda yemək yığarlar... Siz onlardan daha qiymətli deyilsinizmi? Hansı biriniz narahat olmaqla ömrünü bir anlıq uzada bilər?.. Elə isə, "Nə yeyək, nə içəcəyik"' ya da "Nə geyəcəyik?" deyərək narahat olmayın. Xalqlar həmişə bu şeylərin arxasından gedərlər... Siz əvvəl Onun hakimiyyətinin və Ondakı doğruluğun ardından gedin, o zaman sizə bütün bunlar da veriləcək. (Matta, 6: 25-27, 31-33)*

Tövrat

*Hamısının gözləri Səni gözləyər. Zamanında yeməklərini onlara verən Sənsən. Əlini açaraq hər yaşayanı diləyinə görə doyuransan. Rəbb bütün yollarında ədalətlidir və bütün işlərində inayətlidir. (Zəbur, 145: 15-17)*

# İbadətdə göstərişdən çəkinmək

**Vay halına namaz qılanların – o şəxslərin ki, onlar namazlarında səhlənkardırlar. Onlar riyakardırlar (Maun surəsi, 4-6)**

İncil

*Dua etdiyiniz zaman ikiüzlülər kimi olmayın. Onlar, hər kəs özlərini görsün deyə sinaqoqlarda və küçələrin başlarında dikilib dua etməkdən zövq alarlar. Sizə doğrusunu söyləyim, onlar mükafatlarını almışlar. Siz isə, dua edəcəyiniz zaman otağınıza girib qapını örtün... dua edin... (Matta 6: 5-6 )*

*İsa təlim öyrədərək dedi: "İlahiyyatçılardan özünüzü qoruyun. Onlar uzun paltarlarda gəzməyi, bazar meydanlarında salam almağı, sinaqoqlarda baş kürsüləri, ziyafətlərdə yuxarı başı tutmağı xoşlayarlar. Onlar dul qadınların*

*evlərini yeyib-dağıdar və özlərini göstərmək üçün uzun-uzadı dua edərlər. Bu adamların cəzası daha ağır olacaq". (Mark, 12: 38-40)*

Tövrat

*... Dillərində Sən yaxınsan, lakin könüllərindən uzaqsan. (Yeremya, 12: 2)*

# Səmimi dua

Rəbbinizə acizanə, həm də gizlicə dua edin! Şübhəsiz ki, O, həddi aşanları sevmir. (Əraf surəsi, 55)

Səhər-axşam ürəyində yalvararaq və qorxaraq, səsini qaldırmadan Rəbbini yad et və qafillərdən olma. (Əraf surəsi, 205)

O, əbədi Yaşayandır, Ondan başqa məbud yoxdur. Allaha, dini yalnız Ona məxsus edərək, dua edin. Aləmlərin Rəbbi olan Allaha həmd olsun! (Mümin surəsi, 65)

Ey iman gətirənlər! Səbir etmək və namaz qılmaqla Allahdan kömək diləyin. Həqiqətən, Allah səbir edənlərlədir! (Bəqərə surəsi, 153)

... "Ey Rəbbimiz, unutsaq və ya xəta etsək bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkilərə yüklədiyin kimi, bizə də ağır yük yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi daşımağa bizi vadar etmə! Bizi əfv et, bizi bağışla və bizə rəhm et! Sən bizim Himayədarımızsan! Kafirləri məğlub etməkdə bizə yardım et!" (Bəqərə surəsi, 286)

## İncil

*Hər cür dua və yalvarışla, hər zaman Ruhun rəhbərliyində dua edin... (Efeslilərə, 6: 18)*

*Özünüzü duaya verin. Duada ayıq-sayıq olun və şükür edin. (Kolosselilərə 4: 2)*

*Biz isə özümüzü duaya və Allah sözünü yaymağa həsr edək. (Elçilərin İşləri, 6: 4)*

*Dua etdiyinizdə, bütpərəstlər kimi boş sözlər təkrarlamayın. Onlar, söz çoxluğuyla səslərini eşitdirə biləcəklərini sanarlar. Siz onlara bənzəməyin!.. Bunun üçün siz belə dua edin: "... Adın müqəddəs olsun. Hakimiyyətin gəlsin. Göydə olduğu kimi, yer üzündə də Sənin istədiyin olsun. Bu gün bizə gündəlik çörəyimizi ver. Bizə qarşı günah törədənləri bağışladığımız kimi, Sən də bizim günahlarımızı bağışla. Yoldan çıxmamıza icazə vermə. Pis olandan bizi qurtar. Çünki hökm, güc və ucalıq sonsuza qədər Sənindir." (Matta, 6: 7-13 )*

## Tövrat

*Ya Rəbb, duamı eşit; yalvarışlarıma qulaq as. Sədaqətinlə, ədalətinlə mənə cavab ver. (Zəbur, 143: 1)*

*Əllərimi Sənə açıram; Canım quraq yer kimi, Sənə susamış. Mənə tez cavab ver... Səhər inayətini mənə eşitdir; Çünki mən Sənə güvənirəm; Gedəcəyim yolu mənə bildir; Çünki canımı Sənə yüksəldirəm. Düşmənlərimdən məni azad et, ya Rəbb; Sənə sığınıram. Razı olacağın işləri mənə öyrət; Çünki Sən mənim Allahımsan... Düzgünlük diyarında mənə yol göstər... Ədalətinlə*

*canımı sıxıntıdan qurtar. Və inayətinlə düşmənlərimi həlak et... (Zəbur, 143: 6-12)*

## Allah dua edənlərin duasına cavab verər

**Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən onlara yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm. Qoy onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər ki, doğru yola yönələ bilsinlər. (Bəqərə surəsi, 186)**

**Darda qalan kimsə yalvardığı zaman ona cavab verən, şəri sovuşduran və sizi yer üzünün varisləri edən kimdir? Heç Allahla yanaşı başqa bir məbudmu var? Siz necə də az düşünürsünüz? (Nəml surəsi, 62)**

**İncil**

*Diləyin, sizə veriləcək. Axtarın, tapacaqsınız. Qapını döyün, sizə açılacaq. Çünki hər diləyən alar, axtaran tapar, qapını döyənə qapı açılar. (Matta, 7: 7-8)*

*Bunun üçün sizə deyirəm ki, dua ilə dilədiyiniz hər şeyi indidən almış olduğunuza inanın, diləyiniz yerinə yetəcəkdir. (Mark, 11: 24)*

**Tövrat**

Çətinlikdə çağırdın və səni qurtardım; Göy gurultdaması örtüsündə sənə cavab verdim... (Zəbur, 81: 7)

# Allah qorxusu

Onlar Allahın risalətini təbliğ edir, Ondan qorxur və Allahdan başqa heç kəsdən qorxmurdular. Allah Özü haqq-hesab çəkməyə kifayətdir. (Əhzab surəsi, 39)

O kəslər ki, Allahın qovuşdurulmasını əmr etdiyi şeyləri qovuşdurur (qohumluq və qardaşlıq əlaqələrini möhkəmlədir), Rəbbindən qorxur və pis haqq-hesabdan çəkinirlər. (Rad surəsi, 21)

Onlar gecə namazını qılmaq üçün böyürlərini yataqdan qaldırır, qorxu və ümid içində öz Rəbbinə yalvarır və onlara verdiyimiz ruzilərdən Allah yolunda xərcləyirlər. (Səcdə surəsi, 16)

Tövrat

*Adı Əyyub idi; ... kamil və doğru idi, Allahdan qorxar və pislikdən çəkinərdi. (Əyyub, 1: 1)*

*Rəbb qorxusu təmizdir, əbədidir, Rəbbin hökmləri haqdır, hamısı doğrudur. Çox saf qızıldan da çox etina edilir; Baldan və süzmə pətək balından şirindir. (Zəbur, 19: 9-10)*

*Rəbbə qorxuyla xidmət edin. Titrəyərək sevinin. (Zəbur, 2: 11)*

*Nə xoşbəxt Rəbdən qorxana, Onun yolunda gedənə! (Zəbur, 128: 1-2)*

# Allah ondan qorxana anlayiş verər

Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla nahaqqı ayırd etmə bacarığı verər, günahlarınızdan keçər və sizi bağışlayar. Allah böyük lütf sahibidir. (Ənfal surəsi, 29)

Tövrat

*Hikmətin başlanğıcı Rəbb qorxusudur. Əmrlərini yerinə yetirən hər adamın yaxşı anlayış sahibidir. Onun həmdi əbədidir. (Zəbur, 111: 10)*

# Mal yığıb saxlamaq

... Qızıl-gümüş yığıb onları Allah yolunda sərf etməyənləri ağrılı-acılı bir əzabla müjdələ. O gün bu yığdıqları sərvətlər Cəhənnəm odunda qızdırılacaq və bununla onların alınlarına, böyürlərinə və kürəklərinə damğa vurulacaq və onlara: "Budur özünüz üçün yığdıqlarınız. Elə isə dadın yığdıqlarınızı!" - deyiləcəkdir. (Tövbə surəsi, 34-35)

O şəxs ki, mal-dövlət toplayıb onu təkrar-təkrar sayır və elə güman edir ki, var-dövləti onu əbədi saxlayacaqdır. Xeyr! O, mütləq Hutəməyə atılacaqdır. Sən haradan biləsən ki, Hutəmə nədir? Bu, Allahın qaladığı Oddur. O Od ki, qalxıb ürəklərə çatacaq. Həqiqətən, o Od onların üzərində qapanacaqdır. Özləri də orada yüksək dirəklərə bağlanmış olacaqlar. (Hüməzə surəsi, 2-9)

Allah istədiyinin ruzisini bol edər, istədiyininkini də azaldar. Onlar dünya həyatı ilə sevinirlər. Halbuki dünya həyatı axirətlə müqayisədə keçici bir zövqdür. (Rad surəsi, 26)

Allahın Öz lütfündən bəxş etdiyini xərcləməyə xəsislik edənlər elə güman etməsinlər ki, bu, onların xeyrinədir. Əksinə, bu, onlar üçün pisdir. Onların xəsislik etdikləri şey qiyamət günü boyunlarına dolanacaqdır. Göylərin və yerin mirası Allaha məxsusdur. Allah nə etdiklərinizdən xəbərdardır. (Ali İmran surəsi, 180)

## İncil

*(Ey zənginlər) Qızıllarınız, gümüşləriniz paslanmışdır. Bunların pası sizə qarşı şahidlik edəcək, ətinizi atəş kimi yeyəcəkdir. Son günlərdə sərvətinizə sərvət qatdınız. (Yaqub, 5: 3)*

*Yer üzündə özünüzə xəzinələr yığmayın. Burada güvə və pas onları yeyib bitirər, oğrular da girib oğurlayarlar. Bunun yerinə özünüzə göydə xəzinələr yığın. Orada nə güvə, nə pas onları yeyib bitirər, nə də oğrular girib oğurlayar. Xəzinəniz də, ürəyiniz də orada olacaq. (Matta, 6: 19-21)*

*İndiki çağda zəngin olanlara qürurlanmamalarını, gəlib keçici zənginliyə ümid bağlamamalarını buyur. Zövq almamız üçün bizə hər şeyi bol-bol verən Allaha ümid bağlasınlar. (1 Timoteyə, 6: 17)*

## Tövrat

*Gümüşü sevən gümüşə və bolluğu sevən məhsula doymaz; bu da boş şeydir. Mal çoxalınca onu yeyənlər də çoxalar və gözlər ilə onları görməkdən başqa sahibi üçün nə fayda var? (Vaiz, 5: 10-11)*

*Rəbbin qəzəb günündə onları nə gümüşləri, nə qızılları qurtarmayacaq..." (Sefanya, 1: 18)*

*Doğruların kamalı özlərinə yol göstərər. Lakin xainlərin pozğunluğu özlərini həlak edər. Qəzəb günündə mal işə yaramaz. Lakin yaxşılıq ölümdən qurtarar. (Süleymanın Məsəlləri, 11: 3-4)*

*Rəbb belə deyir: "Hikmətli adam hikməti ilə, igid öz gücü ilə, zəngin adam zənginliyi ilə öyünməsin, ancaq öyünən bununla öyünsün; anlayışlı olmaqla və dünyada inayət, ədalət, yaxşılıq edən Rəbbi bilməklə öyünsün. Çünki Mən bunları bəyənirəm." (Yeremya, 9: 23-24)*

# Mal sevgisini Allaha şirk qoşmamaq

**Allah bir-biri ilə çəkişən bir neçə şərikli ağası olan kişi ilə tək bir ağası olan kişini məsəl çəkir. Onlar məsəlcə eyni ola bilərmi? Həmd Allaha məxsusdur, lakin onların əksəriyyəti bunu bilmir. (Zumər surəsi, 29)**

**Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar, dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah yanındadır. (Ali İmran surəsi, 14)**

İncil

*Heç kimsə iki ağaya qulluq edə bilməz. Ya birindən nifrət edib o birisini sevər, ya da birinə bağlanıb o birisini xor görər. Siz həm Allaha, həm də pula qulluq edə bilməzsiniz. (Matta, 6: 24)*

*Çünki hər cür pisliyin kökü pul sevgisidir. Bəziləri zəngin olmaq həvəsiylə imandan sapdılar və öz-özlərinə çox acı çəkdirdilər. Amma sən, ey Allah adamı, bu şeylərdən qaç. Doğruluğun, Allah yolunun, imanın, sevginin, səbrin və itaətliliyin ardından qaç. (1 Timoteyə, 6: 10-11)*

# Təvazökar olmaq

**Ey iman gətirənlər! Sizlərdən hər kim dinindən dönsə, Allah onun əvəzinə Özünün sevdiyi və Onu sevən, möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan, Allah yolunda cihad edən və tənə edənin tənəsindən qorxmayan bir camaat gətirər. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah hər şeyi Əhatə edəndir, Biləndir. (Maidə surəsi, 54)**

**... Sizin məbudunuz Tək olan İlahdır. Yalnız Ona itaət edin. Sən müti olanlara müjdə ver; (Həcc surəsi, 34)**

**İncil**

*Həmişə təvazökar, yumşaq xasiyyətli və səbirli olun. Bir-birinizə sevgiylə, tolerantlıqla davranın. (Efeslilərə, 4: 2)*

*Yenə də bizə daha çox lütf edər. Bu səbəblə Yazı belə deyir: "Allah qürurlulara qarşıdır, amma təvazökarlara lütf edər." (Yaqub, 4: 6)*

**Tövrat**

*Dinləyin və qulaq asın, qürurlu olmayın! Çünki Rəbb söylədi. (Yeremya, 13: 15)*

*...Rəbbin hökmlərini yerinə yetirmiş dünyanın bütün təvazökarları, Rəbbi axtarın, yaxşılıq axtarın, təvazökarlığı axtarın... (Sefanya, 2: 3)*

# Dünyada qürurlananların Allah qatında alçaldılacağı

Allah dedi: "Buradan aşağı en! Burada təkəbbürlük göstərmək sənə yaramaz. Çıx get, çünki sən alçaldılmışlardansan". (Əraf surəsi, 13)

Yer üzündə təkəbbürlə gəzmə. Çünki sən nə yeri yara bilər, nə də yüksələrək dağlara çata bilərsən. (İsra surəsi, 37)

İnsanlardan təkəbbürlə üz çevirmə, yer üzündə özünü darta-darta gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, özünü öyəni sevmir. (Loğman surəsi, 18)

İncil

*Aranızda ən üstün olan, digərlərinin xidmətçisi olsun. Özünü ucaldan alçaldılacaq, özünü alçaldan ucaldılacaq. (Matta, 23: 11-12)*

Tövrat

*Öyünən adamlara dedim: "Öyünməyin!" Və pislərə: "Başınızı yuxarı qaldırmayın. Dik başla söyləməyin. Çünki nə Günəşin doğulduğu yerdən, nə batdığı yerdən, nə də dağlar çölündən yüksəlmə gəlir. Ancaq hakim olan Allahdır. Birini alçaldar və birini yüksəldər. (Zəbur, 75: 4-7)*

*Qövmünün arasında çəkişdirməcilik edərək gəzmə!... (Levililər, 19: 16)*

# Boş danışıqlardan üz çevirmək

Onlar lağlağı eşitdikləri zaman ondan üz çevirib: “Bizim əməllərimiz bizə, sizin əməlləriniz də sizə aiddir. Sizə salam olsun! Biz cahillərə qoşulmaq istəmirik!” – deyirlər. (Qəsas surəsi, 55)

Göylərin və yerin səltənəti Ona məxsusdur. O, Özünə oğul götürməmişdir və səltənətində də şəriki olan yoxdur. O, bütün şeyləri xəlq etmiş və onlara münasib bir biçim vermişdir. (Furqan surəsi, 2)

İncil

*Bu buyruğun məqsədi, pak ürəkdən, təmiz vicdandan və dərin imandan doğan sevgini oyandırmaqdır. Bəzi kəslər bunlardan sapmış və boş danışıqlara dalmışlardır. (1 Timoteyə, 1: 5-6)*

*Ağılsızca mübahisələr və soy ağacı didişmələrindən, Müqəddəs Qanun ilə əlaqədar çəkişmə və döyüşlərdən çəkin. Bunlar faydasız və boş şeylərdir. (Titə, 3: 9)*

*Bayağı və boş sözlərdən çəkin. Çünki bunlara dalanlar Allahsızlıqda daha da irəli gedəcəklər. (2 Timoteyə, 2: 16)*

Tövrat

*Hikmətli adamın sözləri lətifdir, lakin ağılsızın dodaqları özünü udar. Sözlərinin başlanğıcı ağılsızlıqdır və sözünün sonu pis dəlilikdir. Və ağılsız adam sözü çoxaldar, lakin nə olacağını kimsə bilməz... (Vaiz, 10: 12-14)*

# Mübahisədən qaçmaq

**Ayələrimizi lağlağıya qoyanları gördüyün zaman, onlar başqa söhbətə keçənə qədər onlardan üz çevir... (Ənam surəsi, 68)**

**... İnsan isə ən çox mübahisə edəndir. (Kəhf surəsi, 54)**

**Onlar dedilər: "Bizim məbudlarımız yaxşıdır, yoxsa o?" Onlar bunu sənə yalnız höcət etmək üçün dedilər. Doğrusu, onlar höcətləşən adamlardır. (Zuxruf surəsi, 58)**

**İncil**

*Axmaq və cahilcə mübahisələrə girməyi rədd et. Bunların savaş doğurduğunu bilirsən. (2 Timoteyə, 2: 23)*

*Ağılsızca mübahisələr və soy ağacı didişmələrindən, Müqəddəs Qanun ilə əlaqədar çəkişmə və döyüşlərdən çəkin. Bunlar faydasız və boş şeylərdir. (Titə, 3: 9)*

*Rəbbin qulu davaçı olmamalıdır. Tərsinə, hər kəsə qarşı mehriban və öyrətməyə qabiliyyətli olmalı, haqsızlıqlara səbirlə dözməlidir. Özünə qarşı olanları yumşaq xasiyyətlə yola gətirməlidir. Gerçəyi anlamaları üçün Allah bəlkə də onlara bir tövbə yolu açar. (2 Timoteyə, 2: 24-25)*

# İnsanları ən gözəl şəkildə səbirlə xəbərdar etmək, yumşaq davranmaq

İnsanları Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et. Şübhəsiz ki, Rəbbin azğınlığa düşənləri də, doğru yolda olanları da yaxşı tanıyır. (Nəhl surəsi, 125)

Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər sən kobud və daş qəlbli olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar. Sən onların günahından keç, Allahdan onların bağışlanmalarını dilə və görəcəyin işlər barədə onlarla məsləhətləş. Qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən, Allah təvəkkül edənləri sevir. (Ali İmran surəsi, 159)

Onlara nəsihət ver! Sən yalnız nəsihətçisən. Sən onların üstündə hökmdar deyilsən. (Ğaşiyə surəsi, 21-22)

İncil

*... Allah sözünü eşitdir. Zaman uyğun olub olmasa da, bu vəzifəni davam etdir. İnsanları səbirlə öyrədərək razı sal, xəbərdar et, istəkləndir. (2 Timoteyə, 4: 1-2)*

*Yaşlı adamı danlama, atanmış kimi öyüd ver. Gənc kişilərə qardaşlarınmış kimi, yaşlı qadınlara ananmış kimi, gənc qadınlara da tam bir ürək təmizliyiylə bacılarınmış kimi öyüd ver. (1 Timoteyə, 5: 1-2)*

*İmanlılara xatırlat ki, başçılar və hakimlərə tabe olub itaət etsinlər. Hər cür xeyirli iş görməyə hazır olsunlar. Heç kimə şər atmasınlar, davakar deyil, mülayim olsunlar və bütün insanlarla həlim davransınlar. (Titə, 3: 1-2)*

*Qardaşlar, əgər biri cinayət törədərkən tutulsa... belə birini yumşaq ruhla yola gətirin. Siz də haqq yoldan azmamaq üçün özünüzü qoruyun. (Qalatiyalılara, 6: 1)*

*Ağzınızdan heç pis söz çıxmasın. Eşidənlər faydalansın deyə, ehtiyaca görə, başqalarının irəliləyişinə yarayacaq olanı söyləyin. (Efeslilərə 4: 29)*

# Pisliyi yaxşılıqla uzaqlaşdırmaq

**Yaxşılıqla pislik eyni ola bilməz. Sən pisliyi yaxşılıqla dəf et! O zaman səninlə ədavət aparan kimsə sanki yaxın bir dost olar. (Fussilət surəsi, 34)**

**O kəslər ki, Rəbbinin Üzünü diləyərək səbir edir, namaz qılır, onlara verdiyimiz ruzidən gizli və aşkar xərcləyir və pisliyi yaxşılıqla dəf edirlər. Onlar üçün Axirət yurdu - (Rad surəsi, 22)**

İncil

*Pisliyə pisliklə, söyüşə söyüşlə deyil, tərsinə xeyir-duayla cavab verin. Çünki xeyir-duanı miras almaq üzrə çağırıldınız. (1 Peter, 3: 9)*

*... Boş gəzənləri xəbərdar edin, ürəksizləri cəsarətləndirin, gücsüzlərə dəstək olun, hər kəsə qarşı səbirli olun. Əsla kimsə pisliyə pisliklə cavab verməsin. Bir-biriniz və bütün insanlar üçün hər vaxt yaxşılığı məqsəd qoyun. (1 Saloniklilərə, 5: 14-15)*

# Bağışlamaq, xoşxasiyyətli olmaq

Qoy aranızda olan fəzilət və sərvət sahibləri qohumlara, miskinlərə və Allah yolunda hicrət edənlərə heç bir şey verməyəcəklərinə and içməsinlər. Qoy əfv edib bağışlasınlar. Məgər siz Allahın sizi bağışlamasını istəmirsinizmi? Allah Bağışlayandır, Rəhmlidir. (Nur surəsi, 22)

O müttəqilər ki, bolluq zamanı da, qıtlıq zamanı da mallarından Allah yolunda xərcləyir, qəzəblərini boğur və insanları bağışlayırlar. Allah yaxşı iş görənləri sevir. (Ali İmran surəsi, 134)

Qullarıma de ki, ən gözəl sözləri danışsınlar. Çünki şeytan onların arasına ədavət sala bilər. Həqiqətən, şeytan insanın açıq-aydın düşmənidir. (İsra surəsi, 53)

İncil

*Beləcə Allahın müqəddəs və sevimli seçilmişləri olaraq mehribanlığı, yaxşılığı, təvazökarlığı, səbir və yumşaqlığı geyinin. Bir-birinizə yumşaq davranın. Əgər birinizin o birindən bir şikayəti varsa, Rəbbin sizi bağışladığı kimi, siz də bir-birinizi bağışlayın. (Kolosselilərə, 3: 12-13)*

Tövrat

*Səfehin hirsi dərhal müəyyən olar. Lakin bəsirətli adam utancı örtər. (Süleymanın Məsəlləri, 12: 16)*

*Tez hirslənən ağılsızlıq edər... (Süleymanın Məsəlləri, 14: 17)*

*Gec hirslənən adamın anlayışı çoxdur, lakin zəif ruha sahib adam pozğunluğu üstün tutar. (Süleymanın Məsəlləri, 14: 29)*

## Yaxşılığı əmr edərkən özünü unutmamaq

**Siz Kitab oxuyub insanlara xeyirxahlığı əmr etdiyiniz halda, özünüzü unudursunuz? Məgər anlamırsınız? (Bəqərə surəsi, 44)**

İncil

*Sən niyə qardaşının gözündəki çöpü görürsən, amma öz gözündəki tiri fərq etmirsən? Sənin gözündə tir varkən necə olur ki qardaşına: "İcazə ver gözündəki çöpü çıxarım" deyirsən? Səni ikiüzlü! Əvvəl öz gözündəki tiri çıxar, o zaman qardaşının gözündəki çöpü çıxarmaq üçün daha yaxşı görərsən. (Matta, 7: 3-5)*

*Bu kimi şeyləri edənləri mühakimə edən, amma eynisini edən ey adam, Tanrının mühakiməsindən qaça biləcəyinimi sanırsan? (Romalılara, 2: 3)*

## "Allah diləsə edəcəyəm" demək

**Heç bir şey barəsində: "Mən onu sabah edəcəyəm!" - demə! Ancaq: "Əgər Allah istəsə!" ("inşallah" - de!) Unutduğun zaman Rəbbini yada salıb: "Ola bilsin ki, Rəbbim məni haqqa bundan daha yaxın olan bir yola yönəltsin" - de. (Kəhf surəsi, 23-24)**

İncil

*Dinləyin indi! "Bu gün ya da sabah filan şəhərə gedəcəyik, orada bir il qalıb ticarət edəcəyik və pul qazanacağıq" deyən sizlər, sabah nə olacağını bilmirsiniz. Həyatınız nədir ki? Qısa bir müddət görünən və sonra itən bir buxar kimisiniz. Bunun yerinə: "Rəbb diləsə yaşayacağıq, onu-bunu edəcəyik" deməlisiniz. (Yaqub, 4: 13-15)*

# Salam vermək

**... Evlərə daxil olduğunuz zaman özünüzü Allah tərəfindən mübarək və çox xoş bir salamla salamlayın.... (Nur surəsi, 61)**

İncil

*Onun evinə girərkən, evdəkilərə rifah diləyin. (Matta, 10: 12)*

# Qorxmamaq və qəmlənməmək

**Onlar Allahın risalətini təbliğ edir, Ondan qorxur və Allahdan başqa heç kəsdən qorxmurdular. Allah Özü haqq-hesab çəkməyə kifayətdir. (Əhzab surəsi, 39)**

**Onlar dedilər: "Ey Rəbbimiz! Biz, onun bizə şiddətli cəza verməsindən və ya həddini aşmasından qorxuruq". Allah buyurdu: "Qorxmayın, çünki Mən sizinləyəm, eşidirəm və görürəm! (Taha surəsi, 45-46)**

Bəzi adamlar onlara: “Camaat sizə qarşı ordu toplayıbdır, onlardan qorxun!” – dedilər. Bu, onların imanını daha da artırdı və onlar: “Allah bizə yetər. O nə gözəl Qoruyandır!” – dedilər. Onlar özlərinə heç bir pislik toxunmadan, Allahın neməti və mərhəməti sayəsində geri döndülər və Allahın razılığına tabe oldular. Allah böyük lütf sahibidir. O şeytan sadəcə sizi öz dostları ilə qorxudur. Möminsinizsə, onlardan qorxmayın, Məndən qorxun! (Ali İmran surəsi, 173-175)

İncil

*Haqq üçün əzab çəksəniz də, sizə nə xoşbəxt! İnsanların qorxduqlarından qorxmayın və təlaşlanmayın. (1 Peter, 3: 14)*

Tövrat

*Qüvvətli və ürəkli olun, qorxmayın və onların üzlərindən qorxmayın, çünki səninlə birlikdə gedən Allahın Rəbdir, səni boşa çıxarmaz və səni buraxmaz. (Qanunun Təkrarı, 31: 6)*

*Və sənin qarşında gedən Rəbdir. O səninlə olacaq, səni boşa çıxarmaz və səni buraxmaz, qorxma və ruhdan düşmə. (Qanunun Təkrarı, 31: 8)*

*Güclü və ürəkli olun! Aşur Kralından və yanındakı böyük ordudan qorxmayın, ruhdan düşməyin. Çünki bizimlə olan onunla olandan daha üstündür. (2 Salnamələr, 32: 7)*

# Allah qorxusunun, gözəl əxlaqın əhəmiyyəti

Ey Adəm oğulları! Sizə ayıb yerlərinizi örtəcək libas və bəzək-düzək nazil etdik. Təqva libası isə daha xeyirlidir. Bu, Allahın dəlillərindəndir. Bəlkə düşünüb onlardan ibrət alasınız. (Əraf surəsi, 26)

İncil

*(Ey qadınlar) Bəzəyiniz, hörgülü saçlar, qızıl zinətlər və gözəl geyimlər kimi, xaricdən olmasın. Gizli olan iç varlığınız, sakit və yumşaq bir ruhun solmayan gözəlliyiylə bəzəyiniz olsun. Bu, Allahın Qatında çox qiymətlidir. (1 Peter, 3: 3-4).*

Tövrat

*... Allahdan qorx və Onun əmrlərini tut, çünki insanın bütün vəzifəsi budur. Çünki yaxşı olsun pis olsun, hər gizli şeylə birlikdə hər işə Allah hökm verəcək. (Vaiz, 12: 13-14)*

# Yalandan qaçmaq

... Elə isə murdar bütlərdən uzaq olun, yalan sözlərdən də çəkinin; (Həcc surəsi, 30)

İncil

*Bunun üçün yalanı üzərinizdən sıyırıb atın... (Efeslilərə, 4: 25)*

Tövrat

*Oğurlamayın, hiylə ilə davranmayın və bir-birinizə yalan danışmayın. (Levililər, 19: 11)*

*Yalan xəbər daşımayın. Haqsız şahid olmaq üçün pisə əl verməyin. Pislik üçün çoxluğun arxasında olmayın və bir iddiada ədaləti pozmaq üçün çoxluğun ardınca saparaq yalan söyləməyin. (Çıxış, 23: 1-2)*

# Göndərilən peyğəmbəri qısqanmaları

Məgər içimizdən təkcə onamı Zikr vəhy edilmişdir?" Xeyr, onlar Mənim Zikrimə şəkk gətirirlər. Xeyr, onlar Mənim əzabımı hələ dadmayıblar. (Sad surəsi, 8)

Peyğəmbərləri onlara dedi: "Allah Talutu sizə hökmdar təyin etdi!" Onlar dedilər: "O necə bizə hökmdar ola bilər ki, biz hökmdarlığa ondan daha çox layiqik və ona heç böyük var-dövlət də verilməmişdir". O dedi: "Allah sizin üzərinizə onu hökmdar seçdi, elm və bədəncə onun gücünü artırdı. Allah Öz mülkünü istədiyi kəsə verir. Allah hər şeyi Əhataedəndir, Biləndir". (Bəqərə surəsi, 247)

Onlar dedilər: "Nə üçün bu Quran iki şəhərdən (Məkkədən və ya Taifdən) olan böyük bir adama nazil edilmədi?" (Zuxruf surəsi, 31)

İncil

*Sept günü olunca İsa sinaqoqda dərs verməyə başladı. Söylədiklərini eşidən bir çox adam çaşıb qaldı. "Bu adam bunları haradan öyrəndi?" deyə soruşurdular. "Özünə verilən bu müdriklik nədir? Necə belə möcüzələr edə bilir? Məryəmin oğlu, Yaqub, Yose, Yahuda və Simunun qardaşı olan dülgər deyilmi bu? Bacıları burada, aramızda yaşamırmı?" Və inciyib onu rədd etdilər. (Mark, 6: 2-3)*

# İman etmək üçün möcüzə istəmələri

**Kafir olanlar deyirlər: "Niyə ona Rəbbindən bir möcüzə endirilməyib?" Sən ancaq xəbərdar edənsən. Hər qövmün bir yolgöstərəni vardır. (Rad surəsi, 7)**

**Onlar dedilər: "Bizə yerdən bir bulaq çıxarmayınca sənə iman gətirməyəcəyik; və ya ortasından şırıl-şırıl çaylar axıdacağın xurma və üzüm bağın olmayınca; yaxud, iddia etdiyin kimi, göyü parça-parça üstümüzə yağdırmayınca; və ya Allahı və mələkləri qarşımıza gətirməyincə; yaxud qızıldan bir evin olmayınca; və ya göyə qalxmayınca biz sənə inanmayacağıq. Əgər bizə oxuyacağımız bir kitab endirməsən, göyə qalxmağına da inanmayacağıq". De: "Rəbbim pak və müqəddəsdir! Mən isə yalnız elçi göndərilmiş bir insanam". (İsra surəsi, 90-93)**

İncil

*O zaman İsa adama: "Sizlər, əlamət və möcüzələr görmədikcə iman etməyəcəksiniz" dedi (Yuhanna, 4: 48).*

*Bunun üzərinə: "Görüb sənə iman etməmiz üçün necə bir möcüzə gətirəcəksən? Nə edəcəksən?" dedilər. (Yuhanna, 6: 30)*

# Peyğəmbərlərə atılan cadugərlik böhtanı

Beləcə, onlardan əvvəlkilərə də elə bir elçi gəlmədi ki, onun barəsində: "Sehrbazdır, ya da dəlidir!" - deməsinlər. Onlar bunu bir-birinə vəsiyyətmi etmişlər? Xeyr, onlar həddi aşan adamlardır. (Zəriyət surəsi, 52-53)

İncil

*Yaxınları bunu eşidincə: "Ağlını itirmiş" deyərək onu almağa gəldilər. Qüdsdən gələn din alimləri isə: "Beelzebub onun içinə girmiş və cinləri, cinlərin rəisinin gücüylə qovur" deyirdilər. (Mark, 3: 21-22)*

# Peyğəmbərlər boş danışmazlar

Sizin yoldaşınız nə haqdan azmış, nə də yoldan çıxmışdır. O, öz istəyi ilə danışmır. Bu, ona təlqin edilən bir vəhydir. Bunu ona çox qüvvətli olan öyrətdi - (Nəcm surəsi, 2-5)

"... Mən bunları öz-özümdən etmədim..." (Kəhf surəsi, 82)

İncil

*Mən öz-özümdən heç bir şey edə bilmərəm. Eşitdiyim kimi mühakimə edərəm və mənim mühakiməm ədalətlidir. Çünki məqsədim öz istədiyimi deyil, məni göndərənin istədiyini etməkdir. (Yuhanna, 5: 30)*

*Beləcə peyğəmbərlərin sözləri bizim üçün daha da böyük qətilik qazandı. Gün ağarıb səhər ulduzu ürəklərinizdə doğulana qədər, qaranlıq yerdə işıq saçan çırağa bənzəyən bu sözlərə qulaq assanız, yaxşı edərsiniz. Əvvəlcə bunu bilin ki, Müqəddəs Yazılarda olan heç bir peyğəmbərlik sözü kimsənin xüsusi şərhi deyil. Çünki heç bir peyğəmbərlik sözü insanın istəyindən qaynaqlanmadı... (2 Peter, 1: 19-21)*

Tövrat

*... Onlar üçün qardaşları arasından sənin kimi bir peyğəmbər çıxaracağam və sözlərimi ona dedirdəcəyəm və ona əmr edəcəyim hər şeyi onlara söyləyəcək. (Qanunun Təkrarı, 18: 18)*

# Dünya həyatının keçiciliyi

**Bu dünya həyatı əyləncə və oyundan başqa bir şey deyildir. Axirət yurdu isə əsl həyatdır. Kaş ki, biləydilər! (Ənkəbut surəsi, 64)**

Tövrat

*Sənin qarşında qəribik, yadıq atalarımız kimi. Yer üzündəki günlərimiz bir kölgə kimidir, qalıcı deyil. (1 Salnamələr, 29: 15)*

# İnkar edənlərin qiyamət günü kor olaraq həşr edilməsi

Bu dünyada kor olan kəs axirətdə də kor olacaq və üstəlik haqq yoldan daha çox azacaqdır. (İsra surəsi, 72)

... onun güzəranı sıxıntılı olacaq və Biz Qiyamət günü onu kor kimi hüzurumuza gətirdəcəyik”. (Taha surəsi, 124)

Tövrat

*... Və insanlara çətinlik verəcəyəm və korlar kimi gedəcəklər, çünki Rəbbə qarşı günah törətdilər... (Sefanya, 1: 17)*

# Hesab vermə

Həmin Saat gələcəkdir, ona heç bir şəkk-şübhə yoxdur və Allah qəbirlərdə olanları dirildəcəkdir. (Həcc surəsi, 7)

Yer dümdüz ediləcəyi, içindəkiləri kənara atıb boşalacağı və Rəbbini dinləyib boyun əyməyə hazır olacağı zaman; Ey insan! Sən, həqiqətən də, səy göstərib Rəbbinə tərəf can atırsan. Sən Onunla qarşılaşacaqsan! Kimin kitabı sağ əlinə veriləcəksə, o, yüngül sorğu-suala tutulacaq və sevincək öz ailəsinə qayıdacaqdır! Kimin kitabı arxa tərəfindən veriləcəksə, o özünə ölüm diləyəcək və alovlu oda atılacaqdır! (İnşiqaq surəsi, 3-12)

Sur üfürüləcək və Allahın istədiyi kimsələrdən başqa göylərdə və yerdə kim varsa, hamısı öləcəkdir. Sonra bir daha ona üfürülən kimi onlar qalxıb baxacaqlar. Yer öz Rəbbinin nuru ilə işıqlanacaq, əməllər yazılmış kitab hər kəsin qarşısına qoyulacaq, peyğəmbərlər və şahidlər gətiriləcəkdir. Onların arasında ədalətlə hökm veriləcək və onlara haqsızlıq edilməyəcəkdir. Hər kəsə öz əməlinin əvəzi tam veriləcəkdir. Allah onların nə etdiklərini yaxşı bilir. (Zumər surəsi, 68-70)

İncil

*Və onlar məzarlarından çıxacaqlar. Yaxşılıq etmiş olanlar yaşamaq, pislik etmiş olanlar mühakimə olunmaq üzrə diriləcəklər. (Yuhanna, 5: 29)*

Tövrat

*Çünki bütün millətlər üçün Rəbbin günü yaxındır. ... Sən necə etdinsə, sənə elə ediləcək; işlədiyinin qarşılığı öz başına gələcək. (Avdiya, 1: 15)*

## İnsan tək başına hesab verəcək

Hüzurumuza ilk dəfə sizi xəlq etdiyimiz kimi tək-tənha, həm də sizə verdiyimiz nemətləri arxanızda qoyub gəldiniz. Öz aranızda Allaha şərik saydığınız şəfaətçilərinizi də yanınızda görmürük. Artıq aranızda əlaqə qırılmış, iddia etdiyiniz məbudlar isə sizdən uzaqlaşmışdır. (Ənam surəsi, 94)

İncil

*Beləcə hər birimiz öz adına Allaha hesab verəcək. (Romalılara, 14: 12)*

# Allah hər kəsə etdiyinin qarşılığını verəcək

Sən həmin gün bütün millətləri diz çökmüş görəcəksən. Hər millət öz əməl kitabına tərəf çağırılacaqdır. "Bu gün sizə etdiyiniz əməllərin əvəzi veriləcəkdir! (Casiyə surəsi, 28)

Allahın hüzuruna qaytarılacağınız gündən qorxun! Sonra hər kəsə qazandığının əvəzi büsbütün veriləcək və onlara zülm olunmayacaqdır. (Bəqərə surəsi, 281)

İncil

*Allah hər kəsə, etdiklərinin qarşılığını verəcək. Dayanmadan yaxşılıq edərək ucalığı, ləyaqətliliyi və ölümsüzlüyü axtaranlara sonsuz həyatı verəcək. Amma eqoist olanların, həqiqətə uymayıb haqsızlığın arxasından gedənlərin üzərinə qəzəb və hiddət yağdıracaq. (Romalılara, 2: 6-8)*

Tövrat

*Çünki bütün millətlər üçün Rəbbin günü yaxındır... sən necə etdinsə, sənə elə ediləcək. İşlədiyinin qarşılığı öz başına gələcək. (Avdiya, 1: 15)*

## Dünyəvi zənginlik axirətdə insana bir fayda verməyəcək

Kafir olanların nə malları, nə də övladları onlara Allahın hüzurunda heç bir şeylə fayda verə bilməz. Onlar Cəhənnəmin yanacağıdırlar. (Ali İmran surəsi, 10)

Tövrat

*Rəbbinin qəzəb günündə onları gümüşləri də, qızılları da qurtara bilməyəcək... (Sefanya, 1: 18)*

## Allahın insanlara möhlət verməsi, müəyyən bir vaxta qədər təxirə salması

Əgər Allah insanları hər etdikləri zülmə görə cəzalandırsaydı, yer üzündə heç bir canlını sağ qoymazdı. Lakin Allah onlara müəyyən vaxta qədər möhlət verir. Onların əcəlinin çatdığı an bircə saat belə nə yubanar, nə də tezləşə bilər. (Nəhl surəsi, 61)

Rəbbin Bağışlayandır, mərhəmət sahibidir. Əgər Allah onları qazandıqları günahlara görə cəzalandırsaydı, onların əzabını tezləşdirərdi. Lakin onların öz vaxtı vardır. Əzab gələcəyi vaxt onlar heç bir sığınacaq tapa bilməyəcəklər. (Kəhf surəsi, 58)

İncil

*Bəzilərinin gecikmiş hesab elədiyi kimi Rəbb, vədini yerinə yetirməkdə gecikməz, amma sizə qarşı səbir edir. Çünki heç kimin məhv olmasını istəmir, hər kəsin tövbə etməsini istəyir. (2 Peter, 3: 9)*

## Göndərilən elçilərə və inananlara zülm edilməsi

Biz səndən öncə də əvvəlki millətlərə elçilər göndərmişdik. Onlara elə bir elçi gəlməzdi ki, ona istehza etməsinlər. (Hicr surəsi, 10-11)

Əgər onu yalançı hesab etsəniz, bilin ki, sizdən əvvəlki xalqlar da öz peyğəmbərlərini yalançı saymışdılar. Peyğəmbərin vəzifəsi isə sadəcə olaraq dini anlaşıqlı tərzdə təbliğ etməkdir. (Ənkəbut surəsi, 18)

Bir zaman kafirlər səni həbs etmək, öldürmək və ya yurdundan qovmaq üçün sənə qarşı hiylə qururdular. Onlar hiylə işlətdilər, Allah da hiylə işlətdi. Allah hiylə işlədənlərin ən yaxşısıdır. (Ənfal surəsi, 30)

Möminlər müttəfiqləri gördükdə: "Bu, Allahın və Onun Elçisinin bizə olan vədidir. Allah və Onun Elçisi doğru söyləmişlər!" - dedilər. Bu onların yalnız imanını və itaətini artırdı. (Əhzab surəsi, 22)

İncil

*Nə xoşbəxt düzgünlük üçün zülm görənlərə! Allahın rəhməti onlarındır. Mənə olan bağlılığınızdan ötəri insanlar sizə söyüb zülmetdikləri, yalan yerə sizə qarşı hər cür pis söz söylədikləri zaman nə xoşbəxt sizə! Sevinin, sevinclə*

*coşun! Çünki göylərdəki mükafatınız böyükdür. Sizdən əvvəl yaşamış peyğəmbərlərə də belə zülm edirdilər. (Matta, 5: 10-12)*

*İnsanlardan çəkinin. Sizi məhkəmələrə verəcəklər, sinaqoqlarında qamçılayacaqlar. Hətta Məndən ötəri qubernatorların və kralların önünə çıxarılacaqsınız. Beləcə onlara və xalqlara şahidlik edəcəksiniz. (Matta, 10: 17-18)*

*Elçiləri içəri çağırdıb qamçılatdılar və İsanın adını çəkməmələrini buyurduqdan sonra buraxdılar. Elçilər, İsanın adı üçün təhqirə layiq görüldükləri üçün, Ali məhkəmənin hüzurundan sevinc içində ayrıldılar. Hər gün məbəddə və evlərdə dərs verməkdən və Məsih İsayla əlaqədar müjdəni yaymaqdan geri qalmadılar. (Elçilərin İşləri, 5: 40-42)*

Tövrat

*Səndən nifrət edənlər utanacaq. Və pislərin çadırı yox olacaq. (Əyyub, 8: 22)*

# Allah yolunda hicrət edib zülm görənlərin mükafatı

**Zülmə uğradıldıqdan sonra Allah yolunda hicrət edənləri dünyada gözəl bir məskəndə sakin edəcəyik. Axirət mükafatı isə daha böyükdür. Kaş biləydilər! (Nəhl surəsi, 41)**

**İman gətirən, hicrət edən və Allah yolunda cihad edənlər və sığınacaq verib köməklik göstərənlər - məhz onlar həqiqi möminlərdir. Onlar üçün bağışlanma və bolluca ruzi vardır. (Ənfal surəsi, 74)**

Rəbbi onlara belə cavab verdi: “Mən, sizlərdən yaxşı işlər görən – istər kişi, istərsə də qadın olsun, – heç bir kəsin əməyini puç etmərəm. Siz bir-birinizdənsiniz. Hicrət edənlərin, öz yurdlarından çıxarılanların, Mənim yolumda əziyyətə düçar olanların, vuruşanların və öldürülənlərin, əlbəttə, təqsirlərindən keçəcək və onları ağacları altından çaylar axan Cənnət bağlarına daxil edəcəyəm. Bu, Allah tərəfindən bir mükafatdır. Gözəl mükafat məhz Allah yanındadır”. (Ali İmran surəsi, 195)

İncil

*İsa: “Sizə doğrunu söyləyim. Mənim və müjdənin uğuruna evini, qardaşlarını, ana ya da atasını, uşaqlarını ya da torpaqlarını buraxıb indi, bu çağda çəkəcəyi zülmlərlə birlikdə yüz qat daha çox evə, qardaşa, anaya, uşağa, torpağa və gələcəkdə sonsuz həyata qovuşmayacaq heç kim yoxdur. (Mark, 10: 29-30)*

*Bütün bunlar, Allahın ədalətli mühakiməsinin bir əlamətidir. Nəticə olaraq, uğrunda acı çəkdiyiniz Allahın hakimiyyətinə layiq sayılacaqsınız. Allah adil olanı edəcək, sizə çətinlik verənlərə çətinlik ilə cavab verəcək, çətinlik çəkən sizləri isə bizimlə birlikdə rahatlaşdıracaq... (2 Saloniklilərə, 1: 5-8)*

## İman edənlərin sayının az olması

Sən nə qədər çox istəsən də, insanların əksəriyyəti iman gətirən deyildir. (Yusif surəsi, 103)

Əlif. Ləm. Mim. Ra. Bunlar Kitabın ayələridir. Rəbbindən sənə nazil edilən həqiqətdir, lakin insanların çoxu buna inanmır. (Rad surəsi, 1)

Əgər sən yer üzündə olanların əksəriyyətinə itaət etsən, onlar səni Allah yolundan azdırarlar. Onlar ancaq zənnə qapılır və ancaq yalan uydururlar. (Ənam surəsi, 116)

İncil

*Dar qapıdan girin. Çünki adamı müsibətə aparan qapı və yol enlidir. Bu qapıdan girənlər çoxdur. Həyata aparan qapı isə dar, yol da çətindir. Bu yolu tapanlar azdır. (Matta, 7: 13-14)*

## Allahın iman edənləri xüsusi olaraq seçməsi

De: "Həmd olsun Allaha, salam olsun Onun seçdiyi qullarına! Allah yaxşıdır, yoxsa Ona şərik qoşduqlarınız? (Nəml surəsi, 59)

İncil

*Amma biz, ey Rəbbin sevdiyi qardaşlar, sizlər üçün hər zaman Allaha təşəkkür borcluyuq. Çünki Allah sizi... müqəddəs edib həqiqətə inanaraq xilas olmanız üçün əvvəldən seçdi. (2 Saloniklilərə, 2: 13)*

Tövrat

*... Allahın Rəbb, onları Özünə xidmət etmək üçün və Rəbbin adı ilə mübarək etmək üçün onları seçdi... (Qanunun Təkrarı, 21: 5)*

# Allahın iman edənlərə lütfü

**.... "Sən mömin deyilsən!" deməyin! Halbuki çox qənimətlər Allah yanındadır. Siz özünüz də bundan əvvəl onlar kimi idiniz, lakin Allah sizə mərhəmət etdi... (Nisa surəsi, 94)**

**İncil**

*İman yoluyla, lütflə xilas oldunuz. Bu sizin müvəffəqiyyətiniz deyil, Allahın hədiyyəsidir. Kimsənin öyünməməsi üçün yaxşı işlərin mükafatı deyil. (Efeslilərə, 2: 8-9)*

**Tövrat**

*Sən çətinlikdə ikən və bütün bu şeylər başına gəldiyi zaman, son günlərdə Allahın Rəbbə dönəcəksən və Onun sözünü dinləyəcəksən, çünki Allahın Rəbb çox mərhəmətli Allahdır. Səni buraxmaz, həlak etməz və atalarına and içdiyi onlarla olan əhdini unutmaz. (Qanunun Təkrarı, 4: 30-31)*

## Dünyəvi heç bir iş inananların Allahın razılığını axtarmalarına maneə törətməz

O kişilər ki, nə ticarət, nə də alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmır. Onlar qəlblərin və gözlərin çevriləcəyi bir gündən qorxurlar. (Nur surəsi, 37)

İncil

*... Allahın sözünü yayma işini buraxıb maddi işlərlə məşğul olmağımız doğru olmaz. (Elçilərin İşləri, 6: 2)*

## İman edənlərlə birlikdə olmaq

Səhər və axşam çağı Rəbbinin Üzünü diləyərək Ona dua edənlərlə birlikdə özünü səbirli apar. Dünyanın bərbəzəyini istəyərək nəzərlərini yoxsullardan çevirmə. Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz, nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan bir kimsəyə itaət etmə! (Kəhf surəsi, 28)

İncil

*... Təmiz ürəklə Rəbbə yalvaranlarla birlikdə doğruluğun, imanın, sevginin və rifahın ardınca qaç. (2 Timoteyə, 2: 22)*

# İman edənlərin qardaşlığı

Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın! Allahın sizə olan nemətini xatırlayın ki, siz bir-birinizə düşmən idiniz, O, sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz odlu bir uçurumun lap kənarında idiniz. O, sizi ondan xilas etdi. Allah Öz ayələrini sizə beləcə bəyan edir ki, bəlkə doğru yola gələsiniz. (Ali İmran surəsi, 103)

Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır. Onlar insanlara yaxşı işlər görməyi buyurur, pis əməllərə qadağa qoyur, namaz qılır, zəkat verir, Allaha və Onun Elçisinə itaət edirlər... (Tövbə surəsi, 71)

İncil

*Bir-birinizi qardaşlıq sevgisiylə, şəfqətlə sevin. Bir-birinizə hörmət göstərməkdə yarışın. (Romalılara, 12: 10)*

*Tanrının istəyini kim yerinə yetirsə, qardaşım, bacım və anam odur. (Mark, 3: 35)*

# Allahın dininə möhkəm sarılmaq

Kitabdan möhkəm yapışanlara və namaz qılanlara gəlincə, Biz yaxşı işlər görənlərin mükafatını puç etmərik. (Əraf surəsi, 170)

Odur ki, sən özünə vəhy olunan ayələrə sarıl! Əslində, sən düz yoldasan. (Zuxruf surəsi, 43)

Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın! Allahın sizə olan nemətini xatırlayın... (Ali İmran surəsi, 103)

İncil

*O halda qardaşlarım, dözün! İstər sözlə, istər məktubla olsun, sizə çatdırdığımız təlimlərə möhkəm yapışın. (2 Saloniklilərə, 2: 15)*

*Həm başqalarını sərt təlimlə cəsarətləndirmək, həm də qarşı çıxanları razı salmaq üçün imanlılara öyrədilən etibarlı sözə möhkəm sarılmalıdır. (Titə, 1: 9)*

## İman edənlərin həyatı və ölümü Allah üçündür

De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür! (Ənam surəsi, 162)

O kəslər ki, onlara bir müsibət üz verdikdə: "Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq!" – deyirlər. (Bəqərə surəsi, 156)

İncil

*Heç birimiz özümüz üçün həyatda deyilik, heç birimiz də özümüz üçün ölmərik. Yaşasaq, Rəbb üçün yaşayarıq, ölsək Rəbb üçün ölərik. Beləcə yaşasaq da, ölsək də Rəbbə aidik. (Romalılara, 14: 7-8)*

# Atalarının dininə uymaları

Onlara: “Allahın nazil etdiyinə tabe olun!” – deyildikdə, onlar: “Xeyr, biz atalarımızın tutduğu yolu tutacağıq!” – deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yola yönəlməyiblərsə necə? (Bəqərə surəsi, 170)

İncil

*Siz Allahın hökmlərini bir tərəfə qoymuş, insanların ənənəsinə uyursunuz. İsa onlara bunu söylədi: “Öz ənənənizi davam etdirmək üçün Allahın hökmlərini bir kənara qoymağı necə də gözəl bacarırsınız! (Mark, 7: 8-9)*

Tövrat

*Sözlərimi dinləmək istəməyən atalarının fəsadlarına döndülər və başqa ilahlara qulluq etmək üçün onların ardınca getdilər... (Yeremya, 11: 10)*

# Dində təriqətlərə ayrılmamaq

Allah Nuha tövsiyə etdiyini, sənə vəhy etdiyimizi, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyimizi sizin üçün də dində qanun etdi... (Şura surəsi, 13)

O kəslərdən ki, öz dinini bölüb firqələrə ayrıldılar. Hər firqə öz təriqətini üstün bilib sevinir. (Rum surəsi, 32)

Kitab verilənlər onlara yalnız aydın bir dəlil gəldikdən sonra firqələrə bölündülər. (Beyyinə surəsi, 4)

Allaha və Onun Elçisinə itaət edin, bir-birinizlə mübahisə etməyin, yoxsa ruhdan düşər və zəifləyərsiniz. Səbir edin, çünki Allah səbir edənlərlədir. (Ənfal surəsi, 46)

İncil

... *Hamınız uyğunluq içində olun, aranızda bölünmələr olmadan eyni düşüncədə və eyni mühakimədə birləşin. (1 Korinflilərə, 1: 10)*

# İnsanın yaradılışı

Həqiqətən, Biz insanı palçıq cövhərindən yaratdıq. Sonra nütfə halında möhkəm yerdə yerləşdirdik. Sonra nütfədən laxtalanmış qan yaratdıq, sonra o qandan bir parça ət yaratdıq, sonra o bir parça ətdən sümüklər yaratdıq, sonra da sümükləri ət ilə örtdük. Sonra da onu başqa bir məxluq olaraq xəlq etdik. Yaradanların ən yaxşısı olan Allah nə qədər xeyirxahdır! (Muminun surəsi, 12-14)

Tövrat

*Sən hər yanımdan mənə forma verdi, məni yaratdı... Sən, palçıq kimi mənə forma verdin... Mənə dəri və ət geydirdin, sümüklərlə və sinirlərlə məni hördün. (Əyyub, 10: 8-11)*

*Allahın məni yaratdı. Və Qadirin nəfəsi məni diriltdi. (Eyüp, 33: 4)*

*Məhz, mən də sənin kimi Allahın quluyam. Mən də palçıqdan yarandım. (Əyyub, 33: 6)*

# Nəfs daim pisliyi əmr edər

And olsun nəfsə və onu yaradıb kamilləşdirənə, ona günahları və Allahdan qorxmağı təlqin edənə! Nəfsini günahdan təmizləyən uğur qazanmışdır. (Şəms surəsi, 7-9)

... nəfslər xəsislik etməyə hazırdır. Əgər qadınlarla yaxşı davranıb Allahdan qorxsanız, bilin ki, Allah nə etdiklərinizdən xəbərdardır. (Nisa surəsi, 128)

Mən özümə bəraət qazandırmıram. Çünki, Rəbbimin rəhm etdiyi kəs istisna olmaqla, nəfs adama pis işləri əmr edər... (Yusif surəsi, 53)

İncil

*Bu səbəblə bədənin ehtiraslarına uymamaq üçün günahın ölümlü bədənlərinizdə hökm sürməsinə icazə verməyin. (Romalılara, 6: 12)*

*Mənliyin işləri açıqdır. Bunlar cinsi əxlaqsızlıq, pislik, pozğunluq, bütpərəstlik, cadugərlik, düşmənlik, çəkişmə, qısqanclıq, qəzəb, eqoist ehtiraslar, ayrılıqlar, bölünmələr, sərxoşluq, dəlicə əyləncələr və bənzəri şeylərdir. Sizi daha əvvəl xəbərdar etdiyim kimi yenə xəbərdar edirəm, belə davrananlar Allahın hökmünü miras ala bilməyəcəklər.” (Qalatiyalılara, 5: 19-21)*

*İsa belə davam etdi: "İnsanı çirkləndən, insanın içindən çıxandır. Çünki pis düşüncələr, cinsi əxlaqsızlıq, oğurluq, cinayət, zina, acgözlük, pislik, hiylə, pozğunluq, qısqanclıq, böhtan, qürur və ağılsızlıq daxildən, insanın ürəyindən qaynaqlanar. Bu pisliklərin hamısı daxildən qaynaqlanar və insanı çirklədər." (Mark, 7: 20-22)*

# Pis əxlaq xüsusiyyətləri

İtaət etmə hər tez-tez and içənə, alçağa, qeybət edənə, dedi-qodu yayana, xeyrə mane olana, həddi aşana, günahkara, daş ürəkliyə, bunlardan sonra da başqasının adını mənimsəyən fırıldaqçıya - o adam var-dövlət və oğul-uşaq sahibi olsa belə. Ayələrimiz ona oxunduğu zaman: "Bu, keçmişdəkilərin əsatirlərindəndir!" - deyər. (Qələm surəsi, 10-15)

Onların arxasınca namazı buraxıb şəhvətə uyan bir nəsil gəldi. Onlar ziyana uğrayacaqlar. (Məryəm surəsi, 59)

İncil

*Hər cür haqsızlıq, pislik, acgözlük və kinlə doldular. Qısqanclıq, öldürmə ehtirası, çəkişmə, hiylə və pis niyyətlə doludurlar. Dedi-qoduçu, həyasız, qürurlu, öyünən, pislik çıxaran, ana-ata sözü dinləməyən, anlayışsız, sözündə durmaz, sevgidən məhrum və mərhəmətsiz insanlardır. (Romalılara, 1: 29-31)*

Tövrat

*Və ataları kimi inadçı və üsyankar, sərt ürəkli və ruhu Allaha sədaqətsiz bir nəsil olmasınlar. (Zəbur, 78: 8)*

*Lakin bu adam, zorbalıq edən, qan tökən, və bunlardan birini işləyib o vəzifələrdən heç birini etməyən, ancaq dağların üzərində yeyən və qonşusunun arvadını murdar edən, miskinə və yoxsula haqsızlıq edən, soyğunçuluq edən, girovu geri verməyən və gözlərini bütlərə dikən, məkruh şeyi edən. (Yezekel, 18: 10-12)*

*Hiyləgərlərin düşüncələrini pozar və hiyləgərlik edə bilməz. Hikmətliləri öz hiylələrində tapar. Və əyrilərin öyüdü dərhal yıxılar. (Əyyub, 5: 12-13)*

## Göz, ürək və qulaqların laqeydləşməsi

Onlar deyirlər: "Sənin bizi dəvət etdiyinə qarşı qəlbimiz qapalıdır, qulaqlarımızda tıxac vardır, bizimlə sənin arana pərdə çəkilmişdir. Sən işində ol, biz də öz işimizdə olacağıq!" (Fussilət surəsi, 5)

Allah onların qəlblərini və qulaqlarını möhürləmiş, gözlərinə də pərdə çəkmişdir. Onlar üçün böyük bir əzab vardır. (Bəqərə surəsi, 7)

Aralarında səni dinləyənlər də vardır. Quranı anlamasınlar deyə onların qəlblərinə pərdə çəkdik, qulaqlarına da tıxac vurduq. Onlar istənilən ayəni görsələr belə, yenə də ona inanmazlar. Hətta sənin yanına gəldikdə səninlə mübahisə edirlər. Kafir olanlar: "Bu, keçmişdəkilərin əfsanələrindən başqa bir şey deyildir" - deyərlər. (Ənam surəsi, 25)

Biz Cəhənnəm üçün bir çox cinlər və insanlar yaratdıq. Onların qəlbləri var, onunla anlamazlar; gözləri var, onunla görməzlər; qulaqları var, onunla eşitməzlər. Onlar heyvan kimidirlər, hətta daha çox azğınlıqdadırlar. Qafil olanlar da məhz onlardır. (Əraf surəsi, 179)

İncil

*Çünki bu xalqın ürəyi duyğusuzlaşdı, qulaqları kar oldu. Gözlərini də bağladılar. Belə ki, gözləri görməsin, qulaqları eşitməsin, ürəkləri anlamasın və Mənə dönməsinlər. Dönsəydilər, onları təkmilləşdirərdim. (Matta, 13: 15)*

*Gözləriniz olduğu halda görmürsünüzmü? Qulaqlarınız olduğu halda eşitmirsinizmi?.. (Mark, 8: 18-19)*

*Bu xalqa gedib bunu söylə: "Eşidəcəksiniz, amma heç anlamayacaqsınız, baxacaqsınız, amma heç görməyəcəksiniz. Çünki bu xalqın ürəyi duyğusuzlaşdı, qulaqları kar oldu. Gözlərini də bağladılar. Belə ki, gözləri görməsin, qulaqları eşitməsin, ürəkləri anlamasın və Mənə dönməsinlər... (Elçilərin İşləri, 28: 26-27)*

## İnkarçıların özlərini ağıllı sanmaları

**Onlara: "Bu insanlar iman gətirdiyi kimi siz də iman gətirin!" - deyildiyi zaman: "Biz də səfehlərin iman gətirdikləri kimi iman gətirək?" - deyirlər. Doğrusu, onlar özləri səfehdirlər, lakin bunu bilmirlər. (Bəqərə surəsi, 13)**

İncil

*Ağıllı olduqlarını iddia edərkən ağılsız oldular. (Romalılara, 1: 22)*

# İman etməyənlərin rəzil edilməsi

Allahın icazəsi olmadan heç kəs iman gətirə bilməz. Allah anlamayanları qəzəbə uğradar. (Yunis surəsi, 100)

İncil

*Bunun üçün Allah öz aralarında bədənləri rəzil olsun deyə, ürəklərinin şəhvətləri içində onları pisliyə təslim etdi... (Romalılara, 1: 24)*

# Gözəl əxlaqa sahib olmayanlarla dost olmamaq

Allaha və Axirət gününə iman gətirən elə bir camaat tapa bilməzsən ki, onlar Allaha və Onun Elçisinə düşmən olanlarla – öz ataları, oğulları, qardaşları, qohum-əqrəbaları olsalar belə – dostluq etsinlər. Allah onların qəlbinə iman salmış və onları Öz tərəfindən bir ruhla dəstəkləmişdir. Allah onları ağacları altından çaylar axan Cənnət bağlarına daxil edəcəkdir. Onlar orada əbədi qalacaqlar. Allah onlardan razıdır, onlar da Allahdan razıdırlar. Onlar Allahın firqəsidirlər. Həqiqətən, məhz Allahın firqəsi nicat tapanlardır. (Mücadilə surəsi, 22)

Allah sizə ancaq sizinlə din uğrunda vuruşan, sizi diyarınızdan qovub çıxardan və çıxarılmanıza kömək edən kimsələrlə dostluq etmənizi qadağan edir. Onlarla dostluq edənlər zalımlardır. (Mumtəhənə surəsi, 9)

İncil

*Amma qardaş olaraq tanınan biri əxlaqsız, acgöz, bütpərəst, söyüşkən, əyyaş ya da soyğunçu isə onunla yoldaşlıq etməmənizi, beləlɘri ilə yemək belə yeməmənizi indi sizə yazıram. (1 Korinflilərə, 5: 11)*

*Aranızda heç bir cinsi əxlaqsızlıq, pislik ya da acgözlük belə xatırlanmasın. Bu, müqəddəslərə yaraşmaz... Heç kim sizi boş sözlərlə aldatmasın. Bu şeylərə görə Tanrının qəzəbi söz dinləməyənlərin üzərinədir. Onun üçün beləlɘriylə oturub qalxmayın. (Efeslilərə, 5: 3, 6-7)*

## Allah dərgahında bir gün sizin saydığınız min il kimidir

Onlar səndən əzabın tez gəlməsini istəyirlər. Allah Öz vədinə əsla xilaf çıxmaz. Rəbbinin yanında olan bir gün sizin saydığınızın min ili kimidir! (Həcc surəsi, 47)

İncil

*... Rəbbin gözündə bir gün min il və min il bir gün kimidir. Bəzilərinin gecikmiş saydığı kimi Rəbb, vədini yerinə yetirməkdə gecikməz, amma sizə qarşı səbir edir. Çünki heç kimin məhv olmasını istəmir, hər kəsin tövbə etməsini istəyir. (2 Peter 3: 8-9)*

# Heç kim başqasının günahını daşımaz

Kim doğru yolla getsə, xeyri onun özünə olar, kim azğınlığa düşsə, ziyanı da onun öz əleyhinə olar. Heç bir günahkar başqasının günahını daşımaz. Biz elçi göndərməmiş heç kəsə əzab vermirdik. (İsra surəsi, 15)

Tövrat

*Günah işləyən can, öləcək olan odur. Atanın fəsadını oğul daşımaz və oğlun fəsadını ata daşımaz. Salehin əməli özünə, pisin pisliyi də özünə qalar. (Yezekel, 18: 20)*

# İnsanların öz əlləriylə qazandıqları günahların səbəbiylə cəzalandırılmaları

Başınıza gələn hər bir müsibət öz əllərinizlə qazandığınız günahlar üzündəndir. Allah günahların çoxunu bağışlayır. (Şura surəsi, 30)

Tövrat

*Başımıza gələnlərə etdiyimiz pisliklər və böyük günahımız səbəb oldu. Sən, ey Allahımız! Bizi layiq olduğumuzdan daha az cəzalandırdın və bizə sürgündən xilas olan bu cür bir azlıq buraxdın. (Ezra, 9: 13)*

# Təvəkkül

Əgər Allah sizə kömək edərsə, heç kəs sizə qalib gələ bilməz. Əgər O, sizi zəlil edərsə, Ondan sonra kim sizə yardım edə bilər? Qoy möminlər Allaha təvəkkül etsinlər! (Ali İmran surəsi, 160)

Ey iman gətirənlər! Allahın sizə olan nemətini xatırlayın. Bir zaman bir tayfa sizə əl qaldırmaq fikrinə düşdükdə Allah onları sizdən əl çəkməyə məcbur etmişdi. Allahdan qorxun! Qoy möminlər Allaha təvəkkül etsinlər! (Maidə surəsi, 11)

Tövrat

*Özünə Allah qorxusunu öyrədən Zəkəriyyanın günlərində Allaha yönəldi. Rəbbə yönəldiyi müddətcə Allah onu müvəffəqiyyətli etdi. (2 Salnamələr, 26: 5)*

*Bütün ürəyinlə Rəbbə güvən və öz anlayışına güvənmə.. (Süleymanın Məsəlləri, 3: 5)*

*Ey orduların Rəbbi! Sənə güvənən adam nə xoşbəxtdir! (Zəbur, 84: 12)*

# Doğru yol göstərmək Allaha aiddir

Doğru yol göstərmək Allaha aiddir. Əyri yollar da vardır. Əgər O istəsəydi, sizin hamınızı doğru yola yönəldərdi. (Nəhl surəsi, 9)

Tövrat

*Bütün yollarında Onu tanı, O da sənə doğru yol göstərsin. (Süleymanın Məsəlləri, 3: 6)*

# Qiyamət günü

O: "Qiyamət günü nə vaxt olacaq!" - deyə rişxəndlə soruşur. Gözlər bərələ qalacağı, ay tutulacağı və günəşlə ayın qovuşacağı zaman -o gün insan deyəcəkdir: "Hara qaçaq?" Xeyr, o gün pənah aparılacaq yer tapılmayacaq. (Qiyamət surəsi, 6-11)

Ulduzlar sönəcəyi zaman; Göy yarılacağı zaman; Dağlar dağılacağı zaman; Elçilərə vaxt təyin olunacağı zaman - (Mürsəlat surəsi, 8-11)

Həmin Saat hökmən gələcək! Hər kəsə törətdiklərinin əvəzi verilsin deyə, Mən onu az qala Özümdən belə gizlədirəm. (Taha surəsi, 15)

Səndən o Saat barəsində soruşurlar ki, nə vaxt qopacaq? De: "Bu haqda bilgi ancaq Rəbbimə aiddir. Qopacağı vaxtı yalnız O, aşkara çıxara bilər. Bu bilgi göylərə və yerə də ağır gəlir. O sizə qəflətən gələcəkdir". Sanki onu bilirmişsən kimi səndən soruşurlar. De: "Bu haqda bilgi ancaq Allaha aiddir. Lakin insanların çoxu bunu bilmir". (Əraf surəsi, 187)

O gün göy əridilmiş metal kimi olacaqdır. Dağlar da didilmiş yuna bənzəyəcəklər. Dost dostunun halını xəbər almayacaq. (Məaric surəsi, 8-10)

Göy yarılıb dağ edilmiş yağ (yaxud ərinmiş qurğuşun) kimi qıpqırmızı olacaqdır. (Rəhman surəsi, 37)

İncil

*Amma o günlərdə, o çətinlikdən sonra, Günəş qaralacaq, Ay işıq verməyəcək, ulduzlar göydən düşəcək... (Mark, 13: 24-25)*

*Diqqət yetirin, ayıq olun, dua edin. Çünki o anın nə vaxt gələcəyini bilə bilməzsiniz. (Mark, 13: 33)*

*Özünüzə diqqət yetirin! Ürəkləriniz pozğunluq, sərxoşluq və bu həyatın qayğılarıyla ağırlaşmasın. O gün, üzərinizə bir tələ kimi birdən enməsin. Çünki o gün bütün yer üzündə yaşayan hər kəsin üzərinə gələcəkdir. (Luka, 21: 34-35)*

*... O gün göylər böyük bir səs-küylə ortadan qalxacaq, maddi elementlər yanaraq yox olacaq, yer və yer üzündə olan hər şey yanıb bitəcək. Hər şey bu şəkildə yox olacağına görə, necə insan olmalısınız? Allahın gününü gözləyib o günün gəlişini tezləşdirərək müqəddəslik içində yaşamalı və Allah yolunu izləməlisiniz. O gün göylər yanaraq yox olacaq, maddi elementlər şiddətli atəşdə əriyəcək. (2 Peter, 3: 10-12)*

Tövrat

*... Rəbbin günü yaxındır. Günəş ilə Ay qaralır və ulduzlar işıqlarını gizləyirlər... (Yoel, 3: 14-15)*

*... Rəbbin günü yaxındır, hər şeyə Qadir olan tərəfindən bir müsibət kimi gəlir. Bundan ötəri bütün əllər açılacaq, hər insan ürəyi əriyəcək və çaşacaqlar. Onları ağrılar və əzablar tutacaq. Doğan qadın kimi ağrı çəkəcəklər, çaşqın-çaşqın bir-birlərinə baxacaqlar, üzlərini alov bürüyəcək. Məmləkəti səhra etmək üçün və onun içindən günahkar olanlarını həlak etmək üçün, məhz,*

*Rəbbin günü, acımayan gün, qəzəblə və qızğın hiddətlə gəlir. Çünki göylərin ulduzları işıqlarını verməyəcəklər. Günəş doğduqda qaralacaq və Ay parlaq işığını verməyəcək. (İşaya, 13: 6-10)*

*Ah o gün! Çünki Rəbbin günü yaxındır və hər şeyə Qadir olan tərəfindən bir müsibət kimi gəlir. (Yoel, 1: 15)*

*Rəbbin böyük günü yaxındır, yaxındır və Rəbb gününün səsi çox tez gəlir! İgid orada ağrı-acıyla qışqırar. O gün qəzəb günüdür, çətinlik və darlıq günüdür, xaraba qoyma və viran etmə günüdür, qaranlıq və qaraltı günüdür, buludlar və tünd qaranlıq günüdür. (Sefanya, 1: 14-15)*

# ƏLAVƏ BÖLMƏ:
# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allahın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

### Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allahın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı

“Nəzəriyyənin qarşısında duran çətinliklər” başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

### Keçilməz ilk pillə: Həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

### Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

### XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**
- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**
- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**
- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, cild 271, oktyabr 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül

mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

### Fosillər: Ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

“Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?” *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

### Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

### İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

- **Australopithecus**
- **Homo habilis**
- **Homo erectus**
- **Homo sapiens**

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, cild 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan

zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwins Current Bulldog: Ernst Mayr", Scientific American, dekabr 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, səh 221; M. D. Leakey, Olduvai Gorge, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

“Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür”. *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin düsturu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından “Darvin düsturu” adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər.

Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allahın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl “Necə görürük?” sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır.

Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca

aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

### Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allahı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

### Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər

nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 yanvar 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allahın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allahdır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allahın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər

alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən bilənsən, müdriksən! (Bəqərə surəsi, 32)**

# ƏDƏBİYYAT


1) Qüdsdəki Məbəddə tətbiq olunan qurban sistemi, Tövratın "Saylar" və xüsusilə "Levililər" kitablarında çox təfərrüatlı şəkildə təsvir edilir. Buna görə Məbəddə qurban edilən heyvanların iç orqanlarının ayrılmaları və müəyyən qaydalara görə atəşdə yandırılmaları lazımdır. **Allah Quranda yəhudilərin "Allah bizə atəşin (yeyəcəyi) bir qurban gətirməyincə heç bir peyğəmbərə inanmayaq!" (Ali İmran surəsi, 183)** deyərək bu sistemə nə qədər əhəmiyyət verdiklərini bildirir. Bəqərə surəsinin 67-71-ci ayələrində isə yəhudilərin özlərinə qurban əmri verildiyində bu mövzuda həmişə təfərrüatlar axtardıqları və Allahın da onlara bu təfərrüatları bildirdiyi xəbər verilir.

2) M. Asam Köksal, Peyğəmbərlər tarixi, səh. 334-335

3) Mevdudi, Tarix boyu Tövhid mübarizəsi və hz. Peyğəmbər, 1-ci cild, səh. 377-383

4) İbn Kəsr, Təfsirul Quranil Azim, 1-ci cild, səh. 573-576

5) Almalılı Həmdi Yazar, http://www.kuranikerim.com/telmalili/zuhruf.htm

6) Məhəmməd Xəlil Hərras, Faslul-Makal fi Refi İsa Hayyən və Nüzulihi və Katlihid-Dəccal, Məktəbətüs Sünnə, Qahirə, 1990, səh. 20

7) Taberi Təfsiri, İmam Taberi, 2-ci cild, səh. 528; 1-ci cild, səh. 247

8) Böyük lüğət-Tüv-Dav, 3003

9) Əbu Hənifə, Numan b. Sabit (150/767), Fiqhi Əkbər, Tərcümə edən: H. Bəsri Çantay, Ankara, 1982

10) Sünəni İbni Macə, 10/338

11) MEB Şərq Islam klassikləri, Müqəddimə, İbni Haldun, 2-ci cild, səh. 137-139

12) http://www.ahl-ul-bayt.org/Turkish/Books/04_adlet/002.htm

13) Səid Həvva, a. k. ə., səh. 445

14) Kittani, a. k. ə., səh. 147

15) Səhihi Müslim, Bi şərhin-Nevevi, 2-ci cild, səh . 192. Kitabul-İman, Babı Nuzuli İsa İbni Məryəm, Kenzul Ummal, 14/332

16) Sidney Fox, Klaus DOSə, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2

17) Aleksandr I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196

18) "New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, cild 63, noyabr 1982, səh. 1328-1330

19) Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7

20) Jeffrey Bada, Earth, fevral 1998, səh. 40

21) Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, səh. 271, oktyabr 1994, səh. 78

22) Charles Darvin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 189

23) Charles Darvin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184

24) B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.

25) Charles Darvin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179

26) Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133

27) Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. səh. 197

28) Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 75-94; Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, cild 258, səh. 389

29) J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, dekabr 1992

30) Alan Walker, Science, cild 207, 1980, səh. 1103; A. J. Kelso, Physical Antropology, 1-ci nəşr, New York: J. B. Lipincott Co., 1970, səh. 221; M. D. Leakey, Olduvai Gorge, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272

31) Time, noyabr 1996

32) S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30

33) Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19

34) Richard Lewontin, "The demon-Haunted World", The New York Review of Books, 9 yanvar 1997, səh. 28

35) Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43

# ARXA CİLD

Həzrəti İsa (ə.s), Allahın üstün elmlərlə dəstəklədiyi dəyərli bir quludur. Allahın lütfü ilə, hələ beşikdə ikən danışmış, dünyada qaldığı müddət ərzində ətrafındakı insanlara böyük möcüzələr göstərmişdir. Digər bütün peyğəmbərlərdən fərqli olaraq ölmədən Allah Qatına alınmışdır və Quranda təkrar dünyaya göndəriləcəyi xəbər verilir. Hz. İsa (ə.s)-ın ikinci dəfə yer üzünə gəlişi bütün insanlar üçün çox böyük bir nemət, Allahdan bir lütfdür.

Hz. İsa (ə.s) gəldiyində günahsız, tərtəmiz və nurlu üzü ilə, hikmətli, ağıllı və məqsədəuyğun danışıqlarıyla dərhal diqqəti çəkəcək, dünya üzərindəki bütün insanlar həyatlarında ilk dəfə ən yüksək insani xüsusiyyətlərə sahib mübarək bir peyğəmbər görəcəklər. Onun keçmiş həyatı kimi yer üzünə ikinci dəfə gəlişindən sonrakı həyatı da Allahın icazəsiylə möcüzələrlə dolu olacaq. Hz. İsa (ə.s)-ı ikinci dəfə gəlişində tanımamızı təmin edən ən əhəmiyyətli xüsusiyyətlərdən biri onun dünyada bir ailəsinin, qohumunun, keçmişdən tanışı, tək bir adamın olmaması olacaq.

Bu kitabı oxuyarkən bir tərəfdən hz. İsa (ə.s)-ın Quran ayələrində və hədislərdə bildirilən, möcüzələrlə dolu həyatı haqqında məlumat sahibi olarkən, bir tərəfdən də çox xüsusi bir zaman dilimində yaşadığınızı fərq edəcəksiniz. Unudulmamalıdır ki, hz. İsa (ə.s)-ın gəlişi bütün dünyaya təsir edəcək fövqəladəliklər daşıyan, möcüzəvi və metafizik bir hadisədir. Məhz bu səbəblə bütün iman sahiblərinin qısa müddətdə hərəkətə keçmələri və birlik içində hz. İsa (ə.s)-ı ən gözəl şəkildə qarşılamaq üçün əllərindəki bütün imkanları səfərbər etmələri lazımdır. Həyəcanla, sevgi ilə, şövqlə ediləcək bu böyük hazırlıq hərəkəti bir dua olacaq, bu hazırlığı etməyənlər isə hz. İsa (ə.s) yer üzünə döndüyü zaman şübhəsiz, çox böyük peşmanlıq hissi yaşayacaqlar.

Bütün əlamətlər bizə göstərir ki: hz. İsa (ə.s)-ın gəlişi çox yaxındır və hazırlıq etmək üçün itiriləcək zaman yoxdur.

**MÜƏLLİF HAQQINDA:** Harun Yəhya imzasından istifadə edən Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Bununla yanaşı, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla qaranlıq əlaqələrini üzə çıxaran çox mühüm əsərləri var.

Müəllifin bütün əsərlərindəki ortaq məqsəd Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi əsas imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və batil əməllərini nümayiş etdirməkdir. Belə ki, müəllifin bu günə qədər 73 müxtəlif dilə tərcümə edilən 300-dən çox əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunur. Harun Yəhya Külliyyatı, Allahın izni ilə XXI əsrdə dünyadakı insanları Quranda bəhs edilən hüzur və sülhə, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa səbəb olacaqdır.